# 33 il əvvəl Naxçıvan MR Ali Məclisi

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qərar qəbul etdi*

**Son yarım əsrlik tariximizin hansı səhifəsinə nəzər salsaq, orada ulu öndər Heydər Əliyevin adı, əməli ilə bağlı olan faktlar və hadisələrlə rastlaşırıq. Bu arqumentimizi əlli milyonluq xalqımızın 15 gündən sonra otuz üçüncü dəfə bayram edəcəyi Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixçəsinə nəzər salmaqla da əsaslandıra bilərik.**

Zaman sübut edir ki, Heydər Əliyev bütün ictimai-siyasi fəaliyyəti ilə öndə olmuş, öz təklif və təşəbbüslərinin həyata keçirilməsini təmin etmişdir. Xatırladaq ki, onun ideya, layihə, plan, təklif və təşəbbüslərinin hamısı daim milli dövlətçilik baxımından əhəmiyyətli olub. Bu qısa yazıda onun ancaq Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi müddətdə atdığı bəzi addımların ictimai-siyasi baxımdan əhəmiyyətini yada salmaq istəyirik.

(ardı 2-ci səhifədə)




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 277 (30681) 15 dekabr 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Hindistan Cənubi Qafqazda yeni gərginlik ocağı yaradır

*Bu ocağın törədəcəyi fəsadların məsuliyyətini həm də Nyu–Dehli daşıyacaq*

**Ermənistan və Hindistan arasında əməkdaşlıq gündən-günə genişlənir. Deməkolar ki, hər həftə bu istiqamətdə yeni məlumatlar açıqlanır. Xüsusilə, son vaxtlar hərbi və hərbi-texniki sahədə münasibətlərin inkişafı diqqətdən yayınmır. Hindistan hazırda Ermənistanın əsas silah tədarükçülərindən birinə çevrilib.**



Əlbəttə, Ermənistan və Hindistan BMT-nin üzvü olan iki müstəqil dövlətdir. Onların arasındakı münasibətlərin inkişafı ilə bağlı məsələlərə bizim qarışmağımız düzgün olmazdı. Ancaq nəzərə almaq lazımdır ki, burada söhbət Azərbaycan ərazilərini 30 ilə yaxın işğal altında saxlamış, azərbaycanlılara qarşı soyqırımı törətmiş, işğal etdiyi ərazilərdə olmazın vəhşiliklərə imza atmış, 2020-ci ildəki məğlubiyyətinə və bu gün sülh danışıqları aparmasına rəğmən, konstitusiyasından ölkəmizə qarşı iddialarını çıxarmaqdan imtina edən bir ölkədən gedir.

Yeri gəlmişkən, qeyd edək ki, Ermənistan baş naziri rəsmi Bakının ünvanladığı aydın çağırışlara baxmayaraq, bu yaxınlarda əvvəlki mövqeyini bir daha təkrarlayıb. Nikol Paşinyan ölkə konstitusiyasına dəyişiklik edilməsini sülh prosesi üçün vacib saymadığını bildirib. Ağ yalan danışaraq Ermənistan konstitusiyasının Azərbaycan ərazisinə heç bir iddia ehtiva etmədiyini (?) deyib. Onun sözlərinə görə, Bakının təzyiqi altında (?) konstitusiyaya dəyişikliklərin edilməsi mümkün deyil. “Ermənistan konstitusiyasının heç bir müddəası qonşu ölkələrə ərazi iddiaları ehtiva etmir. Ermənistan konstitusiya məhkəməsi 2024-cü il 26 sentyabr tarixli qərarında qeyd edib ki, konstitusiyanın preambulasında Müstəqillik bəyannaməsinə istinad yalnız konstitusiyanın mətnində əksini tapan müddəalara aiddir” – deyə Paşinyan özünün rəsmi “X” platformasındakı hesabında yazıb. Hayastan mediası isə bildirir ki, bu bəyanat müxalifət qruplarının və ictimaiyyətin mövqeyi ilə üst-üstə düşür, onlar əsas qanunun xarici təsir altında (?) dəyişdirilməsinə qarşıdırlar.

Belə bir məqamda Ermənistanın silahlanması Azərbaycanda təhlükəsizlik qayğılarının yaranmasına səbəb olur. İrəvanın bu addımları ölkəmizə qarşı təhdiddir. Bu səbəbdən bizim narahatlığımız təbii qarşılanmalıdır.

Bugünlərdə Ermənistanın Nyu–Dehlidəki səfiri Vaaqn Afyan Hindistanın xarici işlər naziri Subramanyam Cayşankarla görüşüb. Səfirliyin mətbuat xidmətinin yaydığı məlumata görə, görüşdə ikitərəfli perspektiv əməkdaşlığın dərinləşdirilməsi məsələləri müzakirə olunub. Tərəflər ənənəvi dostluq əlaqələri əsasında gələcək qarşılıqlı faydalı əməkdaşlığın təmin edilməsi üçün tədbirlərin görülməsinin vacibliyini vurğulayıblar.

Bu məlumat bir daha göstərir ki, Ermənistan və Hindistan qarşıdakı dövrdə əlaqələri yalnız genişləndirəcəklər. Əlaqələrin genişlənməsində, təbii ki, silah-sursat tədarükü məsələləri üstünlük təşkil edəcək.

(ardı 3-cü səhifədə)

## Ermənistan üçün prioritet “soyqırımı”dırsa…

*Ölkənin təhlükəsizliyindən danışmağa dəyməz*



**Argentinalı dələduz hüquqşünas, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Moreno Okampo yenidən “fəallaşıb”. O, İrəvanda keçirilmiş “Soyqırımı cinayətinə qarşı” V qlobal forumda iştirak edib və səfəri əsnasında erməni mediasına müsahibə verib.**

Morenonun nələrdən söz açmasına, hansı cəfəngiyyatı dilə gətirməsinə nəzər salacaq, “Moreno-Melani tandemi”nin ermənipərəst mahiyyətindəki təzahürlərə diqqət yetirəcəyik. Melani kimdir, nəçidir, bu barədə biləcəksiniz. Ancaq əvvəlcə bir məqamın üzərində dayanaq. Daha doğrusu, erməni hiyləgərliyinin üzərində...

Qeyd edək ki, “Soyqırımı cinayətinə qarşı” V qlobal forum Ermənistanın xarici işlər nazirliyinin təşəbbüsü ilə təşkil olunub. Halbuki bu ilin oktyabrında qurumun rəhbəri Ararat Mirzoyan parlamentdə 2025-ci il üçün büdcə layihəsinin müzakirəsi zamanı bildirmişdi ki, qondarma “erməni soyqırımı”nın beynəlxalq aləmdə tanınması Ermənistanın xarici siyasət gündəmi üçün prioritet deyil. O, prioritetin ölkə ətrafında sülh və sabitliyin təmin edilməsi olduğunu da vurğulamışdı.

Ancaq indi Mirzoyanın nazir olduğu qurum soyqırımı ilə bağlı forum keçirir. Özü də “Soyqırımı və digər cinayətlərə qarşı erkən xəbərdarlıq və erkən reaksiya üçün beynəlxalq mexanizmlərin effektivliyinin gücləndirilməsi” mövzusunda.

(ardı 3-cü səhifədə)

# Milli sənayemizin artım dinamikası davam edir

*Bu ilin 11 ayında ölkədə 58,3 milyard manatlıq sənaye məhsulu istehsal olunub*




**Son illər ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayedə yeni istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı çoxsaylı layihələr icra olunur, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən mühüm işlər sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanşı, qeyri-neft sektorunun inkişafına da mühüm töhfələr verir.**

Bu baxımdan yola salmağa hazırlaşdığımız 2024-cü il də ölkə sənayesi üçün dinamik inkişaf dövrü kimi xarakterizə oluna bilər. Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-noyabr aylarında ölkənin sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 58,3 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çox sənaye məhsulu istehsal edilib.

Hesabat dövründə sənayenin neft-qaz sektorunda məhsul istehsalı 0,6 faiz, qeyri neft-qaz sektorunda 7,2 faiz artıb. Sənaye məhsulunun 64,4 faizi isə mədənçıxarma sektorunun payına düşüb. Cari ilin 11 ayında mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 3,9 faiz azalsa da, əmtəəlik qaz hasilatı 5,9 faiz artıb.

(ardı 7-ci səhifədə)

## Suriyanın gələcəyi necə formalaşacaq?



Səhifə ⇨ 11

## Talelərinə əbədi qonşuluq yazılmış 2 sənətkar

Səhifə ⇨ 9

## İrəvanın “qeyri-səlis” məntiqi

*Yaxud hayların etnik natamamlıq kompleksinin siyasi xarakteristikası*

**Pis vərdişlərdən qurtulmaq elə də asan məsələ deyil. Ortada yüzillərlə formalaşmış, bu səbəbdən xroniki xəstəlik həddinə çatmış adətdən əl çəkmək məsələsi varsa, iş daha da qəlizləşir. Həmin vərdişlər kompleksini aradan qaldırmaqdan ötrü tibb elminin üsulları kara gəlmir. Burada hər şeyin izahını verməyə qadir elementar məntiqin özü də gücsüzdür. Xüsusilə siyasi məntiqdən uzaq, səbəb-nəticə əlaqələrinin pozulduğu “qeyri-səlis” mülahizələr əndazəyə sığmır.**



Yəqin mövzumuzun ünvanını təxmin etdiniz. Bəli, söhbət dilindən bir söz çıxarıb, ürəyində ikinci sözü tutan, ağlında isə üçüncünü saxlayan erməni xislətindən gedir. Əgər gələcəkdə sosioloqlara yalana, riyakarlığa aid parlaq nümunələr lazım olarsa, onlar bu axtarışı XIX, XX və XXI əsrlərin yaddaşında qalmış hay qövmünün əməllərində araşdırmalı olacaqlar. “…Məhz ermənilər hər cür bəhanə ilə hay-küy qoparmaq qabiliyyətinə malikdirlər. Onları özgə evinə buraxmadıqda, yaxud hər hansı bir hiylələrinin üstü açıldıqda, ya da oğrularını məhkəməyə verdikdə təkcə özləri haray-həşir salmırlar. Həm də özgə xalqdan olan səfeh, yaxud satılmış admları da hay-küy qoparmağa məcbur edirlər”. Erməni xislətinə yaxından bələd olan rus tədqiqatçısı Vasili Veliçko bu sözləri “Qafqaz” əsərində yazıb.

Hayların beyinlərində, sanki, yalan kərpiclərindən hörülmüş “piramidalar” ucalır. Bütün müstəvilərdə, hər fürsətdə yalan danışmaq, ehtirasları coşdurmaq, Femidanın gözlərini pərdələmək və Azərbaycanı Ermənistan üzərinə “böyük hücuma hazırlaşmaqda” ittiham etmək. Rəsmi İrəvanın və ona “ideoloji hazırlıq kursları” keçən “kollektiv Qərb”in menyusunda belə “taktiki hücum metodları” kifayət qədərdir. Ermənistanı özünün Cənubi Qafqazdakı “maşasına” çevirən haypərəst-xaçpərəst düşərgə “fəaliyyət planı”na uyğun şəkildə, vaxtaşırı Paşinyanı bu metodlarla silahlandırır. Misal üçün, keçən ilin yayında Paşinyanın növbəti dəfə “yazıq və əzabkeş” obrazına girərək Azərbaycana qarşı böhtanlar səsləndirməyə, dünyanın “fağır ermənilərə” yazığı gəlməsini təmin etməyə yönəlik cəhdlərini unutmamışıq. Bu, onun imkanından yararlandığı ilk və sonuncu tribuna, yaxud istinad nöqtəsi deyildi.

(ardı 3-cü səhifədə)

# Gürcüstanın yeni seçilmiş Prezidenti Zati-aliləri cənab Mixeil Kavelaşviliyə

**Hörmətli cənab Kavelaşvili!**

Gürcüstanın Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Gürcüstan əlaqələri tarixən dostluq və mehriban qonşuluq şəraitində yaşamış, bir-birinə daim dəstək olmuş xalqlarımızın iradəsindən qaynaqlanır. Belə möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərimizin bu gün hərtərəfli və müvəffəqiyyətlə inkişaf etməsi bizi sevindirir.

İnanıram ki, ölkələrimizin və xalqlarımızın rifahı, regionumuzun sabitliyi və təhlükəsizliyinin təmin olunması, iqtisadi potensialının reallaşdırılması naminə dövlətlərarası əlaqələrimizin və strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi və genişləndirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının firavanlığı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 dekabr 2024-cü il**

# Hikmət Hacıyev Türkiyədə görüşlər keçirdi



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun və Prezidentin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə müşaviri Akif Çağatay Kılıçla Yaxın Şərq və Cənubi Qafqazdakı vəziyyəti müzakirə edib.**

Bu barədə Prezidentin köməkçisi "X" hesabında yazıb.

"Qardaş Türkiyəyə səfərim əsnasında dəyərli qardaşlarım Fəxrəddin Altun və Akif Çağatay ilə həmişə olduğu kimi səmimi və məzmunlu görüşlər keçirdim. Yaxın Şərq və Cənubi Qafqazdakı vəziyyəti müzakirə etdik, müttəfiqlik xarakteri daşıyan ikitərəfli əlaqələrimizi nəzərdən keçirdik", – H.Hacıyev qeyd edib.

***XQ***

# Bakıda II İoann Pavelin şərəfinə katolik kilsəsi tikiləcək



**Azərbaycanda səfərdə olan Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallagerin iştirakı ilə Prezident İlham Əliyevin tapşırığına əsasən Heydər Əliyev Fondunun dəstəyi və Bakı Şəhər İcra Hakimiyyətinin sifarişi ilə Müqəddəs II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin təqdisetmə mərasimi keçirilib.**

Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi, Milli Məclisin deputatı Soltan Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov, Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Müqəddəs Taxt-Tacın Azərbaycan Respublikasındakı Apostol nunsisi Marek Solçinski, Azərbaycanın Müqəddəs Taxt-Tacda fövqəladə və səlahiyyətli səfiri İlqar Muxtarov və digər rəsmi şəxslərin də iştirak etdiyi mərasimdə arxiyepiskop Paul Riçard Qallager kilsənin layihəsi ilə tanış olub.

*

Azərbaycanda II İoann Pavelin şərəfinə tikiləcək katolik kilsəsinin yerləşəcəyi ərazinin Müqəddəs Taxt-Tacın Dövlətlər və Beynəlxalq Təşkilatlarla əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Qallager tərəfindən təqdis edilməsi münasibətilə dünən Bakıda qəbul keçirilib.

Mərasimdə çıxış edən Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev bildirib ki, dostluq və sıx əməkdaşlığa əsaslanan Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələri müsbət məcrada inkişaf edir. O, 1997-ci ildə Ulu öndər Heydər Əliyevin və 2005-ci ildən etibarən Prezident İlham Əliyevin Vatikana, 2002-ci ildə Roma Papası II İoann Pavelin, 2016-cı ildə isə Roma Papası Fransiskin Azərbaycana səfərlərini xatırladıb, bu səfərlərin iki ölkə arasındakı əlaqələrin indiki səviyyəyə yüksəlməsinə böyük təkan verdiyini vurğulayıb.

Paul Riçard Qallager Bakıda katolik kilsəsinin tikintisi üçün ərazi ayırdığına görə Azərbaycan Prezidenti İlham Əliyevə, həmçinin Heydər Əliyev Fonduna dərin minnətdarlığını bildirib.

***XQ***

# Hərbi attaşelərlə görüş

**Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində xarici dövlətlərin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri ilə cari ilin yekununa dair toplantı keçirilib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, toplantıda xarici dövlətlərin Azərbaycanda akkreditə olunmuş 34 nümayəndəsi iştirak edib.

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi polkovnik Elçin Abdullayev 44 günlük Vətən müharibəsində qazanılan qələbədən danışaraq bildirib ki, Azərbaycan tarixi Zəfər qazanaraq 30 illik işğalı sona çatdırdı, separatçı rejimə son qoydu və Cənubi Qafqaz regionunun təhlükəsizliyi təmin edilib.

Toplantıda 2024-cü il ərzində ölkəmizdə hərbi əməkdaşlıq çərçivəsində görülən işlərdən danışılıb, o cümlədən attaşelərin ölkəmizin müxtəlif ərazilərinə etdikləri ziyarətlər barədə geniş məlumat verilib.

***XQ***

**Təqvim yada salır**

# 33 il əvvəl Naxçıvan MR Ali Məclisi

*Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında qərar qəbul etdi*

**(əvvəli 1-ci səhifədə)**



Məlum olduğu kimi, Ümummilli liderimiz 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisinin Sədri seçilmişdi. Bundan cəmi 4 gün sonra – sentyabrın 7-də Naxçıvan Dövlət Müdafiə Komitəsi yaradılmışdı. Həmin qətiyyətin davamı olaraq, "Naxçıvan MR-də yerləşən Silahlı Qüvvələrin hissələrinin statusu haqqında" Ali Məclisin 1991-ci il oktyabrın 26-da qəbul etdiyi qərar xüsusi önəm kəsb edirdi. Bu qərarın icrası nəticəsində keçmiş sovet ordusu hissələrinin muxtar respublikadan çıxarılması, həmin orduya məxsus silah-sursatın isə Naxçıvanda saxlanılması Ulu öndərin muxtar respublikanın erməni hərbi təcavüzündən qorunması uğrunda mühüm addımlarından biri olmuşdu.

1991-ci il dekabrın 16-da Ümummilli lider Heydər Əliyevin birbaşa təklifi ilə Naxçıvan parlamentinin qəbul etdiyi "31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərarla 1989-cu il dekabr ayının son günlərində baş vermiş "Sərhəd hərəkatı" tariximizin daş yaddaşına bayram günü kimi həkk edildi və artıq dünyadakı 50 milyonluq Azərbaycan xalqının böyük məmnunluğuna səbəb oldu.

Xatırladaq ki, muxtar respublika üçün çox çətin və mürəkkəb dövr olan 1992-ci ildə Ali Məclisin Sədri Heydər Əliyev Naxçıvanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra mühüm addımlar atmışdı. Onun qonşu Türkiyə və İrana səfərləri zamanı imzalanan iqtisadi-mədəni əməkdaşlıq barədə protokollar, Naxçıvanla Türkiyə arasında "Ümid körpüsü"nün (1992-ci il, 28 may) açılması, iki qardaş ölkə arasında əlaqələrin uzun illərdən sonra bərpa edilməsi sonrakı mərhələdə Naxçıvanın yalnız iqtisadi həyatında deyil, həmçinin siyasi həyatında da müstəsna rol oynamışdır.

Tarixçilər yazırlar ki, ermənilərin muxtar respublikaya təcavüzünün genişləndiyi 1992-ci ilin may ayında Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin qardaş Türkiyə Cümhuriyyəti rəhbərliyi ilə qurduğu uğurlu münasibətlər və məqsədyönlü diplomatik mübarizəsi nəticəsində dünyanın 57 dövləti Ermənistanın Naxçıvana təcavüzünü qətiyyətlə pislədi. Bu mühüm siyasi gedişlər Heydər Əliyevin əsl xilaskarlıq missiyasının əsas faktlarından biri idi.

O ki qaldı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" qərarına, xatırladaq ki, həmin sənədin preambulasında milli tariximizin son iki əsrlik faciələrinin əksər detalları xatırladılırdı. Qeyd edilirdi ki, uzun əsrlik tarixə malik olan Azərbaycan türkləri öz inkişafının müxtəlif mərhələlərində dəfələrlə xarici istilaya məruz qalmış, onun ərazisi zəbt edilmiş və parçalanmış, dövlət müstəqilliyi və istiqlaliyyəti əlindən alınmışdır. Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə Azərbaycan türkləri və onun tarixi ərazisi bir daha parçalanaraq, Rusiya ilə İran dövlətləri arasında mənafe dairələrinə bölünmüşdür.

Xüsusilə vurğulanırdı ki, Sovet imperiyası tərkibinə qatıldığı 70 il ərzində Azərbaycana qarşı müstəmləkəçilik siyasəti yeridilmiş, Azərbaycan türkləri təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmışlar. İmperiya siyasəti dünya türklərini bir-birindən təcrid etmək məqsədilə pantürkizm məfhumunu Şərq aləmində təhlükəli bir ideya kimi qələmə verərək, dünya türklərini və o cümlədən Sovetlər İttifaqında yaşayan türklərin arasında əlaqələrin məhdudlaşmasına, kəsilməsinə cəhd göstərmişdi. Bu siyasətin təzahürü kimi qanunsuz çəkilən sərhəd çəpərləri Azərbaycan türklərini ikiyə parçaladı. Bütün bunlara baxmayaraq, Azərbaycan türkləri milli dövlət quruculuğu, milli və mənəvi bütövlük, müstəqillik uğrunda mübarizəni davam etdirmişlər.

Kreml rəhbərliyinin SSRİ-nin son dövrlərində yeritdiyi milli ayrı-seçkilik siyasətinə, Azərbaycanda başlanan xalq azadlıq hərəkatına, azadlıq hərəkatı fəallarının Moskva tərəfindən cəzalandırılmasına, 1988-1989-cu il hadisələrinə, 1990-cı ilin 20 Yanvar soyqırımına xüsusi qiymət verilən həmin preambulada göstərilirdi ki, qonşu ölkələrin, dünyanın müxtəlif yerlərində yaşayan Azərbaycan türklərinin, ümumən türk dünyasının 1989-cu ildəki "sərhəd hərəkatı"na parçalanmış xalqların təbii birləşmə meyli kimi baxması və müdafiə etməsi, ölkədə və dünyada gedən demokratik proseslər mövqeyindən qiymətləndirməsi xalqımıza qarşı yönəldilmiş mürtəce təbliğatın qarşısını qismən aldı:

"1990-cı ilin noyabr ayının 3-də Türkiyədə keçirilən Birinci Millətlərarası Azərbaycan türk dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasından başlanmış sərhəd hərəkatının real nəticəsi kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Noyabr ayının 5-də qurultayın qəbul etdiyi qərarda 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurəti irəli sürüldü".

**Sənəddə oxuyuruq: "Bütün bunlara istinad edən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:**

**1. 31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü elan olunsun və hər il bayram edilsin. Həmin gün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməsin.**

**2. 31 dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü kimi bütün Azərbaycan Respublikasında rəsmi qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilsin…"**

Ulu öndər Heydər Əliyevin 1991-ci il dekabrın 16-da imzaladığı beş bəndlik bu tarixi sənədin sonunda xüsusi olaraq qeyd edilirdi ki, "Bu qərarın dünya Azərbaycan türklərinə çatdırılması təmin edilsin".

Bəli, həmin qərarın dünyanın hər yerindəki soydaşlarımıza çatdırılması təmin edildi, sonra dövlət müstəqilliyimizi bərpa etdik, qüdrətli Azərbaycan Ordusu yaratdıq, düşmən tapdağında olan ərazilərimizin yağı əsarətindən azad edilməsinə nail olduq, suverenliyimizi əbədiləşdirdik, Azərbaycanın regionun və dünyanın əsas aktorlarından birinə çevirdik və… Ulu öndərin bütün vəsiyyətlərini, ideyallarını reallaşdırdıq.

***İttifaq MİRZƏBƏYLİ***

**16 dekabr FHN İşçilərinin Peşə Bayramı Günüdür**

# FHN qarşıya qoyulan vəzifələrin öhdəsindən uğurla gəlir

**Prezident İlham Əliyevin 2005-ci il 16 dekabr tarixli sərəncamı ilə yaradılan Fövqəladə Hallar Nazirliyi (FHN) qarşısına ölkədə təbii və texnogen xarakterli fövqəladə halların vaxtında aşkarlanaraq xəbərdar edilməsi, nəticələrin çevik və səmərəli şəkildə aradan qaldırılması kimi mühüm vəzifə qoyulub. Dövlətimizin başçısının 2006-cı il 8 dekabr tarixli sərəncamı ilə hər il dekabrın 16-sı isə ölkəmizdə FHN işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi qərara alınıb.**



Fəaliyyət göstərdiyi ötən illər ərzində nazirlik fövqəladə hallar sahəsində etibarlı şəbəkənin yaradılması, əhalinin və ərazilərin təbii və texnogen hallardan, mümkün terror hadisələrindən qorunması, yanğın və su hövzələrində, sənayedə, dağ-mədən işlərində, habelə digər sahələrdə əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində üzərinə düşən bütün vəzifələrin icrası ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirib.

Dövlət başçısının xüsusi diqqət və qayğısı nəticəsində FHN maddi-texniki cəhətdən hərtərəfli şəkildə təmin edilərək mobil quruma çevrilib. Nazirliyin bütün qurumlarının texnika parkı dünyada mövcud ən müasir müxtəlif təyinatlı maşın və mexanizmlərlə zənginləşdirilib, informasiya texnologiyaları infrastrukturunun yaradılması və inkişafı, elektron xidmətlərin təşkili, eləcə də respublikada baş vermiş təbii-texnogen hadisələrin statistikasının aparılması istiqamətində müvafiq layihələr gerçəkləşdirilib.

FHN-in əməkdaşlarının peşə hazırlığının artırılması daim diqqət mərkəzində saxlanılıb. Belə ki, bir sıra ölkələrin müvafiq ali təhsil ocaqları ilə bağlanan müqavilələr əsasında nazirliyin işçilərinin həmin təhsil müəssisələrində müasir biliklərə yiyələnmələrinə xüsusi önəm verilib. Bununla yanaşı, Azərbaycan Prezidentinin imzaladığı müvafiq sərəncamla 2008-ci ildə nazirliyin Akademiyası yaradılıb.

FHN yarandığı ilk gündən beynəlxalq əməkdaşlığı və tərəfdaşlığı fəaliyyətinin əsas prinsiplərindən biri kimi müəyyənləşdirib. Qurum xarici ölkələrin aidiyyəti dövlət qurumları və nüfuzlu beynəlxalq təşkilatları ilə qarşılıqlı əlaqələri inkişaf etdirib.

Beynəlxalq əməkdaşlığını da durmadan genişləndirən FHN Azərbaycan Prezidentinin tapşırığı ilə bir neçə ölkəyə humanitar yardımlar çatdırıb. Bundan başqa, FHN-in xilasetmə dəstələri İsrail, Gürcüstan və Türkiyədə meşə yanğınlarının söndürülməsində fəal iştirak ediblər. Nazirliyin şəxsi heyətinin peşəkarlığının və digər ölkələrdə baş verən fövqəladə hadisələrin qarşısının alınmasında göstərdiyi yüksək çeviklik və fədakarlığın ən bariz nümunəsi qardaş Türkiyədə baş vermiş meşə yanğınlarının söndürülməsi olub.

İkinci Qarabağ müharibəsi dövründə FHN-in strukturları Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək şanlı Zəfərin qazanılmasına töhfələrini veriblər. Nazirliyin qüvvələri düşmən tərəfindən ağır artilleriya qurğularından və raketlərdən atəşə məruz qalan yaşayış məntəqələrinin yanğından mühafizəsində və xilasetmə işlərində fədakarlıq nümayiş etdiriblər.

FHN-in qüvvə və vasitələri ilk günlərdən işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə işlərinə fəal şəkildə cəlb ediliblər. Nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin istehkam qrupları 2021-ci ilin yanvarından Ağdam və Füzulidə minatəmizləmə əməliyyatları aparır. Minaaxtarma işlərinin keyfiyyətinin yüksəldilməsi və sürətləndirilməsi məqsədilə dislokasiya məntəqəsi Bərdədə olmaqla nazirliyin Xüsusi Riskli Xilasetmə Xidmətinin ən müasir texnika və avadanlıqlarla komplektləşdirilən "N" saylı hərbi hissəsi yaradılıb.

Beləliklə, nazirliyin əməkdaşlarının fədakarlıq və peşəkarlıq örnəkləri qurumun şəxsi heyətinin ölkə rəhbərliyinin qarşıya qoyduğu vəzifələri daha yüksək keyfiyyətlə, operativ və sədaqətlə icra etməyə hər an hazırdır.

***V.BİNYATOĞLU***
***XQ***

# Hindistan Cənubi Qafqazda yeni gərginlik ocağı yaradır

(əvvəli 1-ci səhifədə)

Bunun Ermənistanda revanşist niyyətlərin daha da güclənməsinə gətirib çıxaracağı şübhəsizdir. Beləliklə, aydın olur ki, Hindistan daha bir təxribatçı ölkə – Fransa ilə birgə bölgədə yeni gərginlik ocağı qalayır. Bu ocağın fəsadlarına görə məsuliyyəti həm də Nyu–Dehli və Paris daşıyacaq.

Onu da qeyd edək ki, Hindistanın bu addımları Azərbaycanda dəfələrlə tənqid olunub, qınanıb. Diqqətə çatdırılıb ki, Ermənistan təcavüzkar dövlətdir və belə bir ölkənin silahlandırılması bölgə üçün yaxşı heç nə vəd etmir. Prezident İlham Əliyev hələ 2023-cü il mayın 19-da Hindistanın ölkəmizə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edərkən bildirib ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadırlar. Ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən dövlətimizin başçısı qeyd edib ki, əgər Ermənistan, doğrudan da, Azərbaycanla sülh istəyirsə onda nə üçün yüz milyonlarla dollar dəyərində silah alır?! Azərbaycan Prezidenti vurğulayıb ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Ancaq Hindistan rəhbərliyi bu irad və qınaqlardan lazımi nəticə çıxarmadı. Nəticədə Azərbaycan tərəfi Nyu–Dehlinin regionumuzla bağlı destruktiv siyasətini daha açıq mətnlə tənqid etməyə başladı. Cənab İlham Əliyev 2024-cü il aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Vətən müharibəsindən sonra bölgədə baş verən proseslərin xronoloji ardıcıllığına dair məntiqi ümumiləşdirmə apardıqdan sonra dedi: "Beləliklə, Ermənistanda baş verənlərin hamısına çox ciddi yanaşmaq üçün tam haqqımız var. Ancaq biz onların daxili işlərinə və ya uzaqda yerləşən başqa ölkələrlə münasibətlərinə heç bir halda qarışmırıq. Biz heç vaxt heç bir ölkənin daxili işinə qarışmırıq və bunu bütün qonşularımız bilir. Amma bu, bizim milli təhlükəsizliyimizlə bağlı bir məsələdir. Biz Fransanın, Hindistanın və Yunanıstanın Ermənistanı bizə qarşı necə silahlandırdığını və bunu açıq, nümayişkaranə şəkildə etdiyini, sanki bizə nəyisə sübut etməyə çalışdığını görüb, sakit oturub gözləyə bilmərik. Biz, sadəcə, oturub gözləyə bilmərik və biz bu mövqeyi Ermənistan hökumətinə, indi Ermənistanın qayğısına qalmaq istəyənlərə açıq şəkildə bildiririk".

Prezident qeyd etdi ki, bizə qarşı ciddi təhlükə görsək, ciddi tədbirlər görməli olacağıq: "Bəziləri təhlükəli, bəziləri isə təhlükəli olmayan, amma bu o dərəcədə vacib deyil, həmin silahlar Ermənistana çatdırılır. Ona görə bir daha bu platformadan istifadə edərək Ermənistana mesajım budur ki, bunu etməyin. Yenə deyirəm, mənim mesajım qətiyyən təkəbbürlü xəbərdarlıq kimi qəbul edilməməlidir. Xeyr! Onların nə etməsindən asılı olmayaraq, müdaxilə etməyəcəyəm. Bu, onların həyatı və onların ölkəsidir. Amma onlar bizə qarşı hərbi güc nümayiş etdirəndə, bəzən öz qoşunlarını sərhədimizdə cəmləyəndə biz sakit otura bilmərik. Bu, bizim təhlükəsizliyimizdir və narahat olmağa haqqımız var. Ona görə də mənim onlara və onlardan Azərbaycana qarşı forpost kimi istifadə etmək istəyənlərə mesajım budur ki, bunu etməyin. Ermənistana nə qədər silah göndərilsə də, onların bizə qarşı heç bir şansları yoxdur. İkinci Qarabağ müharibəsi də bunu nümayiş etdirdi. Cəmi 44 gün adi insanların, sadəcə, gəzintiyə çıxa bilmədiyi dağlara çıxdıq və biz bunu yüngül silahlarla etdik, onların ordusunu tamamilə məhv etdik..."

Beləliklə, bir daha aydın olur ki, Hindistan və Ermənistan hərbi sahədə münasibətlərini hər nə qədər inkişaf etdirsələr də, bu, Azərbaycanı əsla qorxutmur. Rəsmi Bakı istənilən təxribata qarşı cavab hüququnu özündə saxlayır və bunu Ermənistan rəhbərliyi, o cümlədən hayları qızışdıranlar da bilməlidirlər.

Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən **Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** bildirdi ki, Er-



mənistan və Azərbaycan arasında sülh sazişi hələ də imzalanmadığı üçün Bakı İrəvanın dünyanın ayrı-ayrı dövlətləri ilə hərbi əməkdaşlığına, eləcə də hücum xarakterli silahlar almasına çox ciddi və həssaslıqla yanaşır. Onun sözlərinə görə, dünya praktikasına baxdıqda görmək olar ki, işğalçı dövlət məğlub olduqdan sonra onun silahlı qüvvələri buraxılır, silah-sursat alışına ciddi məhdudiyyət qoyulur. Amma biz bu gün Ermənistanın Fransa və Hindistan kimi ölkələrin sayəsində ciddi şəkildə silahlandığını görürük. Bu sırada əvvəllər Ermənistanda heç vaxt olmayan hücum xarakterli, uzaqmənzilli raketlərin işğalçı ordunun arsenalına verilməsi xüsusilə diqqəti cəlb edir.

Politoloq qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının qanunvericilik müstəvisində davam etdiyi dövrdə Hindistanın Fransa kimi bu ölkəyə silahlar verməsi bizi ciddi şəkildə narahat edir. Bu narahatlıq daha çox Ermənistanın yenidən hansısa xəyallara düşəcəyi, revanş istəyəcəyi ilə bağlıdır: "Hindistan bu hərəkətləri ilə sülhə deyil, yeni müharibəyə "töhfə verən" beynəlxalq aktorlardan biri olduğunu ortaya qoyur. Hindistanın baş naziri Narendra Modi uzun müddətdir ki, millətçiliyi, müsəlmanlara qarşı aqressiv münasibəti ilə seçilir. Hətta, 2000-ci illərdə ABŞ hökuməti onun Birləşmiş Ştatlara daxil olmasına qadağa qoymuşdu. Səbəb də Hindistanın əyalətlərində müsəlmanlara qarşı Modi tərəfindən təqibçilik siyasətinin aparılması idi. O, ümumiyyətlə, qatı şovinizmi, digər etnik qruplara,ələlxüsus dini icmalara qarşı qeyri-tolerant münasibəti ilə seçilir. Vətən müharibəsindən sonra Hindistanın Errmənistanla hərbi əməkdaşlığı gücləndirməsi, eyni zamanda, beynəlxalq təşkilatlarda Azərbaycanın əleyhinə addımlar atması Nyu–Dehlini bizə qarşı olan tərəfə çevirib".

Z.Məmmədovun fikrincə, ümumiyyətlə, Ermənistan bir çox ölkələrlə hərbi əməkdaşlığı genişləndirməkdədir. Biz 2024-cü ilə nəzər salsaq görərik ki, İrəvan Hindistan və Fransa ilə yanaşı, ABŞ, Yunanıstan və Cənubi Kiprlə də hərbi əməkdaşlığı gücləndirmək istiqamətində addımlar atıb. Cənubi Koreya və Çinlə isə hərbi-texniki əməkdaşlıq üzrə dialoqa başlanılıb. Bu isə ondan xəbər verir ki, 2025-ci il üzrə hərbi büdcəsini 2024-cü ilə nisbətən 20 faiz artıran, İkinci Qarabağ müharibəsinin baş verdiyi 2020-ci illə müqayisədə isə 2025-ci ilin hərbi büdcəsinin təxminən 2,8 dəfə böyük olacağı Ermənistan revanşa hazırlaşır: "Əgər vaxtilə Ermənistan ordusunun arsenalında Rusiya istehsalı olan silah-sursatın payı 96 faiz idisə, bu gün həmin rəqəm 10 faizə enib. Bunun da əsas səbəbi ermənilərin silah tədarükünü Fransa və Hindistan kimi ölkələrin hesabına şaxələndirməsidir. Ermənistan ötən illər ərzində təkcə Hindistandan 600 milyon dollarlıq hərbi texnika alıb. Bu, mediaya məlum olan rəqəmdir. Yəqin ki, gerçək rəqəmlər bundan qat-qat böyükdür. Bundan əlavə, İrəvan Su-30 qırıcı təyyarələrinin modernləşdirilməsi istiqamətində Nyu–Dehli ilə danışıqlar aparır. Eyni zamanda, "hava-hava" və "hava-yer" tipli hücum raketlərinin yenilərinin alınması istiqamətində iki ölkə arasında dialoq gedir".

Müsahibimiz qeyd etdi ki, Hindistanın atdığı addımlar Cənubi Asiyadan xeyli uzaqda yerləşən Cənubi Qafqazda vəziyyəti gərginləşdirir. Hindistanın Ermənistanla hərbi əməkdaşlığının bir sıra səbəbləri var. Nyu–Dehli regionda gedən proseslərə Türkiyə amili üzərindən yanaşır. Türkiyənin Pakistanda güclənməsi, Azərbaycan–Pakistan əlaqələrinin inkişaf etməsi və bölgədə nəqliyyat kommunikasiyalarının açılması məsələsi də əsas məqamlardandır.

*Səxavət HƏMİD*
**XQ**

# Ermənistan üçün prioritet "soyqırımı"dırsa…

(əvvəli 1-ci səhifədə)

Burada, məqsəd yalnız diqqəti saxta iddiaya çəkmək yox, eyni zamanda, həmin iddianın lazımi nəticə vermədiyi, Azərbaycana münasibətdə sərt ölçü tədbirinin götürülmədiyi üçün dünya birliyini ittiham etməkdir.

Belə bir misal var, dəvəquşu başını quma salır, elə bilir görünmür. Mirzoyanın şəxsində XİN, bu qurumun timsalında isə bütövlükdə Ermənistan dövləti həmin dəvəquşunun günündədir. Nazir, necə deyərlər, oxu atır, yayı gizlədir. O, foruma toplaşan ermənipərəstlərdən fərqli olaraq, Azərbaycanı dolayısı ilə günahlandırır. Yəni, ölkəmizin adını çəkmədən. Niyə? Səbəb rəsmi İrəvanın hazırda Bakı ilə sülh axtarışında olduğuna dair görüntü yaratmağa, özünü mütərəqqi kimi göstərməyindədir. Mirzoyan məhz bu görüntünün pozulmaması üçün ölkəmizin adını birbaşa mənfi tonda gündəmə gətirmir. Ancaq onun dediklərindən hər şey bəllidir, hədəf aşkardır.

Ermənistan rəhbərliyinin saxta soyqırımı məsələsində Azərbaycanı subliminal şəkildə ittiham etdiyi bir vaxtda, elə fon yaradılır ki, rəsmi İrəvan, guya, soyqırımına ümumi şəkildə qiymət verir və bütövlükdə dünyanı insanlıq əleyhinə cinayətlərə qarşı mütəşəkkil mübarizə aparmağa çağırır. Təzada baxın, soyqırımının yolverilməzliyindən danışan, qeyri-insani rəftarı dövlət siyasətinə çevirmiş ölkənin təmsilçiləridir. Utanmayasan, oynamağa nə var?

Digər tərəfdən, Ankara ilə münasibətlər amili var. Bu günlərdə Türkiyə – Ermənistan sərhədlərinin açılması, eləcə də iki ölkə arasında dəmir yolu əlaqəsinin bərpası ilə əlaqədar müzakirələr aparılır. Yəni, erməni XİN rəhbəri həm də bu səbəbdən ad çəkmir. Amma bunu onun yerinə tədbirə dəvət edilmiş ermənipərəstlər edirlər. L.M.Okampo da belələrindəndir.

Yada salaq ki, Okampo 2023-cü ildə Ermənistanın Laçın dəhlizi məsələsində qaldırdığı isteriya dövrünün zay məhsuludur. Dələduz həmin vaxt, var gücü ilə çalışmışdı ki, beynəlxalq ictimaiyyət Qarabağ xüsusunda yaşananları soyqırımı və etnik təmizləmə olaraq qəbul etsin. 2023-cü ildə rəsmi İrəvanın özü də açıq tekstlə məhz mövcud istiqamətdə səylər göstərmiş, geniş miqyaslı iş aparmışdı. Əlbəttə ki, bütün bunlar fayda verməmişdi.

Vurğuldığımız kimi, Ermənistanın yerinə Azərbaycanı ittiham edən ermənipərəstlər var. Onlar saxta "erməni soyqırımı" məsələsini beynəlxalq tribunalara çıxarır, onu siyasi alver predmetinə çevirirlər. Okampo həm də belələrindəndir, bu, öz yerində. Deməli, indiki durumda o, nə isə sərsəmləyirsə, şübhə yoxdur ki, bu sərsəmləmənin arxasında dayanan rəsmi İrəvanın özüdür. Nəzərə alaq ki, Okamponu da Beynəlxalq Soyqırımı Tədqiqatçıları Assosiasiyası adlanan qurumun prezidenti Melani O'Brayen adlı qatı ermənipərəsti də İrəvandakı foruma dəvət edən Mirzoyanın özüdür. Bəli, əvvəldə haqqında söz açdığımız və şərti olaraq Moreno – Melani adlandırdığımız "tandemə" keçid alırıq.

*

M.O'Brayen və başçılıq etdiyi təşkilat haqqında bir neçə məqama diqqət yetirək. İlk baxışdan, elə təəssürat yarana bilər ki, bu xanım ABŞ Dövlət Departamenti rəhbərinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayenlə bağlıdır. Hərçənd, buna dair hansısa bilgi əldə edə bilmədiyimizdən, məsələnin üzərindən keçirik. Hərçənd o'brayenlərin ikisi də eyni təbiətdədir. Yəni, Azərbaycana qərəz, hiddət və nifrət pəncərəsindən baxırlar.

Əlqərəz, M.O'Brayenin rəhbərlik etdiyi Beynəlxalq Soyqırımı Tədqiqatçıları Assosiasiyası 1994-cü ildə ABŞ-da yaradılıb. Qurum Arlinqtondakı Corc Meyson Universitetində



yerləşir. Assosiasiya hələ 1997-ci ildə "erməni soyqırımı"nı tanıyan yekdil qətnamə qəbul edib. "Yekdil" sözünə çox da diqqət yetirməyin. Çünki qurum cəmi beş nəfərdən ibarətdir. Beləliklə, 5 nəfərlik Amerika qeyri-hökumət təşkilatının rəhbəri İrəvanda dünya dövlətlərini saxta "erməni soyqırımı"nı tanımağa çağırıb və bu çağırış A.Mirzoyanın gözü qarşısında səslənib. Üstəlik, Melani, belə demək mümkünsə, okampoluğa keçib. O bildirib ki, Azərbaycanın 2023-cü ilin sentyabrında Qarabağda törətdiyi əməlləri soyqırımı kimi tövsif etmək lazımdır. O, fikrini əsaslandırmaq üçün müxtəlif cəfəngiyyatlara baş vurub. Xanım O'Brayen ona ünvanlanmış sualı cavablandırarkən sərsəmləyib. Sualın isə Ermənistan XİN-nin tezisləri əsasında hazırlandığına zərrə qədər də şübhə yoxdur.

*

İndi isə keçək, bilavasitə "əsərin qəhrəmanı"na. Yəni, L.Okampoya. Argentinalı dələduz deyib ki, Qarabağ ermənilərinin öz vətənlərinə qayıtmaq hüququ var. "Mən Qarabağ ermənilərinin geri qayıtma ehtimalını mütləq görürəm. Buna göz yummaq olmaz. Mübarizəmizi davam etdirməliyik. Mübarizəni davam etdirməlisən. Mübarizəni dayandırdığınız günü itirirsiniz. Onlara öz vətənlərinə qayıtmaq hüququ uğrunda mübarizəyə kömək etmək lazımdır", – deyərək ucuz populizmi işə salan Okamponun diqqət yetirdiyi bir məsələ var. O deyib ki, Azərbaycan ermənilərin Qarabağda olmaq hüququnu tanıyır və buna görə də həmin hüquqlar uğrunda mübarizə aparılmalıdır.

Əlbəttə, Azərbaycan multikultural ölkədir. Ermənistandan fərqli olaraq, respublikamızda müxtəlif millətlərin və dinlərin daşıyıcıları sərbəst şəkildə ömür sürürlər. Ölkəmizdə hətta etnik ermənilər də yaşayırlar. Bu mənada Qarabağ İqtisadi rayonundan köçüb Ermənistana getmiş ermənilərə də Azərbaycanda qalıb yaşamaq imkanı yaradılmışdı. Lakin onlar bunu istəmədilər. Həm də ona görə istəmədilər ki, bu gün Okampo 2023-cü ildə Qarabağda baş verənləri soyqırımı kimi qiymətləndirsin, anti-Azərbaycan təbliğat aparsın. Axı, sifariş rəsmi İrəvandan gəlib.

Bəli, Ermənistan rəhbərliyi 2023-cü ildə Qarabağ ermənilərinin tez bir zamanda bölgəni tərk etmələrini ona görə reallaşdırdı ki, məsələni etnik təmizləmə və soyqırımı kimi qiymətləndirsin. Baxın, Okampo indi deyir ki, soyqırımı əməlini törətmək yalnız qətlə yetirməklə ölçülmür. "Bu, Laçın dəhlizinin blokadaya alınması, Qarabağın bütün əhalisinin qaçması, eləcə də ciddi psixoloji zədələnməsi, ermənilərin qorxusu və sair deməkdir. Bütün bunlar soyqırımının əlamətləridir", – deyən Okampo ermənilərin, ilk növbədə, ədalət və yaddaş uğrunda mübarizə apardıqlarını da bildirib. Ədaləti başa düşdük, görəsən, yaddaş nə imiş?

Çox da düşünməyə ehtiyac yoxdur, çünki argentinalı dələduz yarımçıq bildiyi tarixə üz tutur və bu dəfə Türkiyəni ittiham etməyə başlayır. O, Türkiyənin nə vaxtsa "erməni soyqırımı"nın tanımasının mümkün olub-olmamasına dair əvvəlcədən hazırlanmış suala cavab olaraq qeyri-müəyyən tərzdə vurğulayıb: "Bilmirik, amma Türkiyəni işə cəlb edib izahat verməliyik. Gənc nəsil artıq fərqlidir. Düşünürəm ki, biz onları cəlb edib bu məsələni müzakirə edə bilərik".

*

Sonda onu da bildirək ki, Ermənistan mənfur dövlət xislətini tarixin arxivinə gömmək istəmir. Onun rəsmiləri hər cür hiyləgərliyə baş vururlar və İrəvanda keçirilmiş "Soyqırımı cinayətinə qarşı" V qlobal forum da böyük hiyləgərlik və saxtakarlıq tamaşası kimi yadda qaldı. Başlıca məqam rəsmi İrəvanın bu gedişlə nə etmək, nəyə nail olmaq istəməsidir. Əslində, hər şey aydındır.

A.Mirzoyan ölkəsinin xarici siyasət gündəmi üçün prioritetin "erməni soyqırımı" olduğunu təsdiqlədi. Deməli, bir ay əvvəlki çıxışında dediklərinin əksinə getdi. Ermənistan rəhbərliyi haqqında söz açdığımız forumun təşkili ilə anti-türk, anti-Azərbaycan ritorikası ilə qonşularına qarşı ərazi iddiası məsələsini gündəmdə saxlamağa çalışdığını sübuta yetirdi. Prioritet saxta "soyqırımı"nın təbliğidirsə, Mirzoyanın təbirincə desək, ölkə ətrafında sülh və sabitliyin təmin edilməsindən danışmağa dəyməz. Deməli, Qərbin erməni varlığı üçün biçdiyi "amplua" öz "əhəmiyyətini" qoruyur. O amplua ki, qlobal maraqlardan qaynaqlanır və erməni varlığı həmin maraqlarda alətdir. Alət isə şahmat lövhəsindəki peşkadır və asanlıqla qurban verilə bilir. Ermənistan qurban aqibətinə doğru sürətlə irəliləyir. Vəssalam!

*Ə.CAHANGİROĞLU*
**XQ**

# İrəvanın "qeyri-səlis" məntiqi

(əvvəli 1-ci səhifədə)

Hayastan baş nazirinin siyasi oyunbazlıqlarını Birinci Qarabağ savaşından əvvəl, 2020-ci ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində təşkil edilən panel müzakirələrin gedişində də müşahidə etmişik. Ondan üç il sonra keçirilən Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda və bu kimi digər beynəlxalq tədbirlərdə onun "taktiki gedişlərinin" əyani şahidi olmuşuq. Həmin konfransların hər birində Azərbaycan Prezidenti İlham Əliyev Nikol Paşinyanın tutarlı cavabını verərək onu yerində otuzdurdu.

2024-cü ilin mayında Moskvada Avrasiya İqtisadi İttifaqının toplantısında hayların baş naziri yenə öz ampluasındaydı və sərsəm erməni fantaziyalarına uyğun şəkildə özlərinə xəyali problemlər yaratmaqla məşğul idi. Nikol Paşinyan altı ölkənin liderindən utanıb-çəkinmədən, Aİİ-nin zirvə görüşünə fəxri qonaq kimi dəvət edilmiş İlham Əliyevin öz çıxışında, guya, Hayastana qarşı ərazi iddiası səsləndirdiyi barədə yalanı dövriyyəyə buraxmağa çalışdı. Onun bu yalan və cəfəng ittihamına Prezident İlham Əliyev soyuqqanlıqla və tutarlı şəkildə cavab verdi: "Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır".

Bəzən hayların baş nazirinin reallıqla üst-üstə düşən, sağlam məntiqlə ayaqlaşdığı təəssüratını yaradan açıqlamalar versə də, az sonra onun əvvəlki sözünü və mövqeyini təkzib edən "qeyri-səlis" mülahizələrini eşitməli olmuşuq. Belə məqamlarda Nikol Paşinyanın təkcə auditoriyanı deyil, hətta özünü də çaş-baş saldığını, naqolay pozalarda qaldığını az müşahidə etməmişik.



O, bir yandan Tavuşda sərhədin delimitasiyasının Azərbaycanla yeni müharibənin qarşısını ala biləcəyi barədə nikbin siyasi proqnoz səsləndirir, digər tərəfdən amma bunun münaqişənin alovlanmayacağına zəmanət verməyəcəyini ərz edir: "Buna baxmayaraq, delimitasiya aparılmalıdır. Bunu etiraf etmək çətindir, lakin bu, faktdır. Ermənistanın beynəlxalq miqyasda tanınmış sərhədlərinin müəyyənləşdirilməsi ölkənin təhlükəsizliyi üçün əsas amildir. Mən buna 2022-ci ildə əmin oldum. Başa düşdüm ki, sərhədlərin müəyyənləşdirilməsi yaxın, orta və uzun müddətli perspektivdə təhlükəsizliyimiz üçün həlledicidir. 2022-ci ildən sonra siyasi-psixoloji proses başladı. Bunu real və tarixi Ermənistan arasında sərhədin müəyyənləşdirilməsi prosesi adlandırmaq olar".

***

Görünən odur ki, İrəvan indi daha çox Bakı ilə münasibətləri normallaşdırmaq haqqında deyil, Qərbdən hər cür ianələrlə yanaşı, həm də atacağı növbəti addımlarının xeyir-duasını almaq barədə düşünür. Ermənistan hakimiyyəti bundan ötrü Azərbaycanla müəyyən səviyyədə qarşıdurma "nümayiş etdirməyin" vacibliyini də unutmur. Onun üçün belə qarşıdurma fonunu Rusiya amili üzərində yaratmaq çətin deyil. Qərbin gözündə həmin "mübarizə meydanına" Moskvadan savayı Bakını da daxil etməklə daha çox siyasi dividend əldə etməyə çalışır. Paşinyanın gah xaricdəki tərəfdaşlarına, gah da daxili auditoriya üçün nəzərdə tutduğu çağırışları məhz belə qeyri-mütənasib diplomatik davranışlarının nəticəsi sayılmalıdır. Paşinyanın xaricə ünvanladığı çağırışlarının sırasına "Azərbaycanın hərbi ritorika ilə müşayiət olunan təcavüzkar siyasəti", "Ermənistanın suveren ərazilərinin işğalına hazırlaşması", "dəyəri on milyon dollarla ölçülən silahlar əldə etməsi" və bu kimi yalan və şantajçı bəyanatları daxildir. Sanki, Azərbaycan 30 il ərzində Ermənistan ərazisinin 20 faizini işğal altında saxlayıb. Yəqin bu zaman, o, üz tutduğu auditoriyanın elementar məntiqi unudacağına ümid bəsləyir. Yəni, özünü inandırır ki, onu eşidənlərdə 44 günlük müharibənin Azərbaycanda deyil, Ermənistan ərazisində aparıldığı təsəvvürü yaranacaq. Bunu hay baş nazirin "qeyri-səlis" məntiqinin zirvəsi saymaq lazımdır.

İkinci Qarabağ müharibəsi zamanı dinc Azərbaycan şəhərlərinə raket və artilleriya zərbələri endirən, yüzlərlə qoca, qadın və uşağın ölümünə səbəb olan da Ermənistan yox, Afrikanın hansısa ölkəsi imiş. Xankəndidəki separatçı xunta rejimini də rəsmi İrəvan deyil, BMT maliyyələşdirirmiş. Elə Qarabağı minalarla zibilləyən də okeanın o tayındakılar olub.

Aydın görünən odur ki, rəsmi İrəvan aşkar olanları təkzib etməklə məşğuldur. Haylar, sadəcə, reallığı və həqiqəti təkzib etməklə kifayətlənmir, həm də başqlarına məxsus olanı özünküləşdirməyə cürət edirlər. Musiqimizə, mətbəximizə göz dikən, müxtəlif əsərlərimizi öz adlarına çıxmaq üçün tarixi saxtalaşdıran, özlərindən əfsanələr uyduran, işi-peşəsi yalan istehsal etməkdən qeyri bir şey olmayan ermənilərin belə addımlarına artıq təəccüblənmirik.

Bu da özlərinə "böyük bacı" seçdikləri fransalı səyyah qraf De-Şölyenin yüz il əvvəl haylara verdiyi zəmanət-xarakteristika: "Mən onlarla (ermənilərlə -red.) heç zaman dil tapa bilmədim. Onların hiyləgərliyi olduqca iyrənc, alçaqlığı olduqca dözülməz, əclaflığı olduqca təəssüfləndiricidir".

***

Milli natamamlıq kompleksindən qurtula bilməyən Paşinyanın Vətən müharibəsindən sonra Cənubi Qafqazda normallaşma, sülh müqaviləsinin imzalanması istiqamətində danışıqların daha çox intensivləşdiyi, ard-arda Azərbaycan və Hayastan liderlərinin, o cümlədən xarici işlər nazirlərinin üçtərəfli görüşlərinin təşkil edildiyi bu dövrdə də ikibaşlı, diplomatik baxımdan anlaşılmaz davranışları nəzərdən yayınmayıb. Onun sülh danışıqlarının gündəliyinə daxil olmayan, iqtisadi sahəyə aid olan tədbirlərdə Azərbaycana qarşı siyasi avantüra nümunəsi sayılan bəyanatlar verməsi hayların xislətinə aid riyakarlıq damarından irəli gəlir. Digər tərəfdən də Paşinyanın bir siyasi fiqur kimi savadsızlığından, diplomat səriştəsizliyindəndir. Əgər sonda üzləşəcəyi aqibəti əvvəlcədən proqnozlaşdırmağı bacarsaydı, özünü heç vaxt mötəbər platformalarda gülünc vəziyyətdə görmək istəməzdi... Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibəsində maraqlı şərh verdi: "Yəni incidilmiş tərəf kimi mövqe tutmaq həm rahat, həm də münasibdir. Amma bu mövqe həm insan üçün, həm də ölkə üçün çox zərərlidir. Necə deyərlər, yazığı gəlmək siyasi xadimlərin arsenalında heç də ən yaxşı vasitə deyil. Xüsusən də, indi qəbul edilmiş təbirlə desək, bütün bunlar feyk olduğu halda".

*İmran BƏDİRXANLI*
**XQ**

(əvvəli qəzetin 12 dekabr sayında )

# Xilaskar

Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələrək ölkədə siyasi qarşıdurmanı, xaosu aradan qaldırdı, vətəndaşların əmin-amanlığını və təhlükəsizliyini təmin etdi. Bunun ardınca ölkədə iqtisadi, sosial və mədəni inkişafa yeni nəfəs gətirdi.

Azərbaycan dili Heydər Əliyevin xüsusi diqqət mərkəzində idi. O, qəti əmin idi ki, "hər bir xalqı ana dili yaşadır". Ümummilli lider hələ 1978-ci il Konstitusiyasında hüquqi cəhətdən Azərbaycan dilinin dövlət dili statusu almasına nail olmuşdu. O zaman belə bir addım qəhrəmanlığa bərabər idi.

Ulu öndər həmişə milli mənəvi-mədəni dəyərlərin qorunub saxlanması uğrunda mübarizə aparmış, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə inteqrasiya yolu ilə zənginləşməsi üçün əlindən gələni edirdi.

Heydər Əliyev milli dövlətçiliyin ideoloji əsasını təşkil edən azərbaycançılıq məfkurəsini formalaşdırıb həyata keçirdi. Eyni zamanda, xaricdə yaşayan azərbaycanlıların həmrəyliyinə möhkəm zəmin yaratdı. Uzun illər Azərbaycan ziyalısının şüurunu həyəcanlandıran milli dirçəliş Ümummilli liderin sayəsində elmdən, sosiologiyadan, fəlsəfədən əməli müstəviyə keçərək dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Məhz bunun nəticəsində Azərbaycanın dövlətçilik ənənələrinin bərpası və zənginləşdirilməsi, müstəqilliyinin möhkəmləndirilməsi, beynəlxalq nüfuzunun sürətlə artması mümkün oldu.

Tam məsuliyyətlə deyə bilərik ki, Heydər Əliyev azərbaycançılıq ideologiyasının - dövrün diktəsini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisidir. Çünki azərbaycançılıq məfkurəsi məhz Ulu öndərin dövründə siyasi-ideoloji məzmun kəsb edərək doktrinaya çevrildi, dövlət ideologiyası səviyyəsinə yüksəldi.

Politoloqlar, jurnalistlər bəzən Ulu öndəri "güc sahibi" adlandırırdılar. Cavabında Heydər Əliyev gülümsəyərək deyirdi ki, hakimiyyətin yalnız bir mənbəyi var – Xalq. Onun siyasətçi məharətinin sirlərini təkcə xalqına inamında deyil, həm də insanların ümidinin canlı təcəssümündə axtarmaq lazımdır.

Ümumbəşəri məhəbbəti qazanmaq üçün təkcə yaxşı siyasətçi olmaq kifayət deyil, həm də universal insani keyfiyyətlərə malik olmaq lazımdır. "Böyük siyasət xırda hisslərə, maraqlara tabe edilə bilməz" – deyən Heydər Əliyev buna əmin idi.

Bu məqamda müasir İtaliyanın qurucularından sayılan qraf Kamillo Kavurun sözünü xatırlatmaq yerinə düşər: "İtaliyanı biz yaratdıq, indi isə vəzifəmiz italyanları yaratmaqdır".

Heydər Əliyevin Azərbaycan və xalqı qarşısındakı xidmətləri əvəzsiz və danılmazdır. Ümummilli liderinə sonsuz məhəbbətlərini ifadə edən azərbaycanlılar onu özlərinin Xilaskarı, "Millətin atası" adlandırırlar. O, Vətənini çox bəlalardan xilas etdi. Onun bütün həyatı, doğrudan da, böyük xilaskarlıq missiyası idi. O, Azərbaycan xalqını birləşdirdi ideal mənəviyyat zirvəsinə qaldırdı.

Ulu öndər xaricdə yaşayan azərbaycanlıların həmrəyliyini, bir-birinə dəstək olmasını milli adət-ənənələrə riayət etmələrini istəyirdi. Heydər Əliyevin fikrincə, azərbaycançılıq "öz milli kimliyini, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onları sintez edərək zənginləşdirmək, ümumbəşəri dəyərlərə inteqrasiya etmək, o cümlədən hər bir insanın inkişafına nail olmaq deməkdir".

Heydər Əliyev 1 oktyabr 2003-cü il tarixli xalqa müraciətində böyük inam hissi ilə bildirmişdir ki, "mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri siz tamamlaya biləcəksiniz".

Ulu öndər bu sözləri deyəndə yəqin ki, ilk növbədə Qarabağ probleminin həllini nəzərdə tutulurdu. 30 il davam edən işğala son qoyulması möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə mümkün oldu.

2000-ci ilin sentyabrında Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alarkən professorlardan biri söhbət zamanı bildirdi ki, Azərbaycan hər cəhətdən geridə qalmış ölkədir. Mədəniyyəti zəif, demokratiya yox... Sumqayıt hadisələrində ermənilərə qarşı vəhşiliklər törədilib və sair. Mən ondan soruşdum ki, "Azərbaycanda olmusunuzmu?" – Dedi ki, "yox". Növbəti mühazirəsi zamanı Heydər Əliyevin son 7 illik fəaliyyəti zamanı faktlarla təsdiqlənən Azərbaycan reallıqlarını əks etdirən məqaləmi həmin professora təqdim etdim. Növbəti həftədə mühazirəsindən sonra mənə yaxınlaşaraq bildirdi ki, "Siz mənim səhv mövqeyimi düzəltdiniz, məni tərbiyə etdiniz. Sizin materialı vermişəm "Poitika i kultura" jurnalına, orada dərc olunacaq. Get redaktorla görüş, əlavələrin varsa, elə...". Beləliklə mənim "Millət atası. Nə üçün Azərbaycan xalqı Heydər Əliyevdən xahiş etdi ki, məsuliyyəti öz üzərinə götürsün?" başlığı ilə 2000-ci il sentyabrın 5-dən 11-dək həmin jurnalda dərc edildi.

Bu məqalə həmin ilin sentyabrında Azərbaycanın "Xalq qəzeti", "Azərbaycan", "Бакински рабочи" və digər qəzetlərində məqaləm tərcümə olunaraq dərc edildi.

2001-ci ilin iyulunda GUAM-ın Yalta sammitində Heydər Əliyevlə görüşəndə mən diasporun fəal üzvü, "Xalq qəzeti"nin jurnalisti və Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçilik Akademiyasının dinləyicisi idim. Üzünü mənə tutub "Bütün bərdəlilərə salam!" - dedi.

Heydər Əliyev fəaliyyətinin bütün sahələrində Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsinin təmin edilməsi prinsiplərinə əsaslanırdı. O, hakimiyyətə gəldiyi ilk vaxtdan fəaliyyətinin sonuna kimi güclü, müstəqil, hüquqi dövlət quruculuğu üzərində titanik enerji ilə çalışdı.

"Müstəqillik yolundan çətin yol yoxdur" – deyən Ulu öndər başa düşürdü və bununla belə, o, xalqını bu yolda inamla aparır, cəmiyyətin sosial, iqtisadi, mədəni və ideoloji sahələrini inkişaf etdirir, eyni zamanda, xarici siyasət məsələlərini həll edir.

Kembric Beynəlxalq Bioqrafik Mərkəzinin Direktorlar Şurası 1999-cu ildə sülhsevər siyasətinə və demokratiyanın inkişafında böyük xidmətlərinə görə Heydər Əliyevi "XX əsrin görkəmli xadimi" adına layiq görüb .



Ulu öndər son dərəcə çətin bir dövrdə xalqının xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi. Müstəqilliyin və müasir Azərbaycanın formalaşması yolunu xalqı ilə birlikdə, çiyin-çiyinə keçdi.

Anadangəlmə fitri istedad, siyasi iradə və liderlik xarizması Heydər Əliyev xarakterinin əsas cizgiləri idi. Təbiət Ulu öndərə həssaslıq, qayğıkeşlik kimi yüksək insani keyfiyyətlələ yanaşı, həm də incə zövq bəxş etmişdi. O, müasir Azərbaycanı dahi strateq olaraq zərgər dəqiqliyi və incə zövqlə qurmağı bacardı.

Bu yüksək mənəvi-siyasi keyfiyyətləri irsən qəbul edən, onları xarakterində cəmləyən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi uğurlar davam edir. Bu uğurların baş memarı Heydər Əliyevin adı və yeri daim ucalıqda qərar tutacaq. Nə qədər ki, müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaq.

***Arif QULİYEV,***
***hüquq elmləri doktoru, professor,***
***Ukraynanın Əməkdar təhsil işçisi***

# Gürcüstanın dostu, borçalıların arxa-dayağı

**Ümummilli lider Heydər Əliyev Azərbaycanın müasir tarixindəki ən önəmli siyasi liderlərdən biri olaraq həm ölkəsinin daxili siyasətində, həm də beynəlxalq münasibətlərində misilsiz xidmətləri ilə taleyüklü rol oynamışdır. Ulu öndər qonşu Gürcüstanla dostluq və qonşuluq əlaqələrinin qorunub möhkəmlənməsinə də tarixi töhfələr vermişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə Gürcüstanla münasibətlər xalqlarımızın köklü maraqlarına uyğun inkişaf etmiş, əməkdaşlığın bütün sahələrində ciddi uğurlara nail olunmuşdur.**



**Müsahibimiz Gürcüstan parlamentinin keçmiş deputatı, energetika nazirinin müavini olmuş, Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri İsak Novruzov bu mövzuda söhbətimizin davamında bildirdi:**

– Təkcə Azərbaycanın deyil, bütün Qafqazın lideri kimi tanınmış Heydər Əliyev ölkəmizin müstəqillik qazanmasından sonra xalqlarımız arasında dostluq münasibətlərinin davamlı olmasına çalışırdı. Onun rəhbərliyi dövründə Azərbaycan və Gürcüstan arasında enerji sahəsindəki əməkdaşlıq yeni şəraitdə daha çox diqqət yetirilən önəmli məsələlərdən idi. "Bakı-Tbilisi-Ceyhan" neft kəməri Heydər Əliyevin ideyalarından biri olaraq Azərbaycan neftinin Gürcüstan və Türkiyə ərazisindən dünya bazarlarına çatdırılması üçün strateji bir yol açdı. Bu kəmər həm Azərbaycanın, həm də Gürcüstanın iqtisadi inkişafında mühüm rol oynadı.

Heydər Əliyevin Gürcüstanla münasibətləri onun xarici siyasətində öncül yer tutmuşdur. Azərbaycan və Gürcüstan arasında yeni mərhələyə yüksəldilmiş əməkdaşlıq yalnız iqtisadi və enerji sahələri ilə məhdudlaşmayıb, həm də regional təhlükəsizlik, beynəlxalq aləmdə həmrəylik məsələlərini də əhatə etmişdir. Ulu öndər bu münasibətləri iki ölkənin maraqlarına uyğun şəkildə inkişaf etdirmiş və bu gün də iki ölkə arasında davam edən qonşuluq, dövlətlərarası dostluğun təməlində Azərbaycan liderinin yüksək məramı və yaratdığı möhkəm əsaslar dayanır.

Mən bu tarixi prosesin təkcə şahidi deyil, həm də çox yaxın iştirakçısıyam, bir çox halda mərkəzində dayanan insan olmuşam. Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də yaradılıb. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı çoxəsrlik dostluq və birgəyaşayış münasibətlərimiz baxımından tarixi hadisə oldu. Bu diplomatik missiyalar müstəqillik şəraitində ikitərəfli əlaqələrin inkişafına xidmət etməyə başladı, bir çox problemlər sürətlə yoluna qoyuldu.

Bunu ona görə xüsusi qeyd edirəm ki, o vaxta qədər başımıza çox oyun gəlmişdi, keçməkeşli və çətin yollardan keçməli olmuşduq. Bunları unutmaq, yada salmamaq mümkün deyil. O dövrdə Azərbaycandakı hakimiyyət böhranı, Qarabağ problemi vəziyyəti son dərəcə mürəkkəbləşdirmiş, ölkə qanlı müharibəyə sürüklənmişdi. Bu, Gürcüstanda yaşayan azərbaycanlıların yerli çətinliklərinə əlavə olunub onları talenin ümidində qoymuşdu. O vaxt Gürcüstan Respublikasının Prezidenti seçilən Zviad Qamsaxurdiyanın rəhbərliyi altında "çiçəklənən gürcü millətçiliyi" yerli azərbaycanlılara qarşı çevrilmişdi.

Erməni və gürcü millətçiliyinin soydaşlarımıza qarşı düşmənçiliyinin belə azğın həddə çatması Qafqaz xalqlarının, ilk növbədə, azərbaycanlıların öz torpaqlarında milli mövcudluğu təhlükədə qoyulmuşdu. 1993-cü ildə Azərbaycanda Heydər Əliyevin, Gürcüstanda isə Eduard Şevardnadzenin hakimiyyətə gəlməsi hər iki qonşu ölkənin həyatında yeni dövrün başlanğıcı oldu. İki liderin dostluğu və xalqlarımızın taleyinə cavabdehlik missiyası Cənubi Qafqazda ziddiyyətlərin tədricən aradan qalxmasına kömək etdi.

Təəssüf ki, Ermənistanda nə onlara bərabər bir şəxsiyyət hakimiyyətə gəldi, nə də belə siyasət yeridildi. Nəticədə, erməni millətçiliyi Qafqazı qan çanağına çevirdi. Azərbaycanla Gürcüstanın çoxəsrlik dostluq münasibətlərinin qorunub saxlanması hər iki ölkəni mənasız qarşıdurmadan və gözlənilən faciələrdən qorudu. Bu ənənə ötən illərdə də davam etdirilərək, indi regionda əmin-amanlığın, sülhün, tərəqqinin ictimai qarantına çevrilib.

**– İsak müəllim, heç şübhəsiz ki, burada Heydər Əliyev şəxsiyyətinin misilsiz rolu olub. Şübhəsiz, bunu Gürcüstanda da yaxşı bilirlər.**

– Bunu Borçalıda yaşayan azərbaycanlılar kimi, bütün gürcü xalqı da yaxşı bilir və heç vaxt unutmur. Ulu öndərlə sovet dövründə görüşüb tanış olmuşdum. Bu görüş mənim taleyimdə sonralar da olduqca mühüm rol oynadı. Keçən əsrin 80-ci illərinin əvvəlində Gürcüstanda yeni salınan komsomol şəhərciyi Qardabani rayonunun ərazisində yerləşirdi. Bu böyük və zərbəçi tikintiyə bütün Gürcüstan səfərbər olmuşdu. Mən o dövrdə rayon komsomol təşkilatının rəhbəri olduğumdan bu işin bütün taleyi mənə tapşırılmışdı.

Komsomol şəhərciyinin açılış mərasiminə Gürcüstanın o zamankı rəhbəri Eduard Şevardnadze özü gəlmişdi. Dəvət olunmuş fəxri qonaqlar sırasında Azərbaycan xalqının lideri, Moskvadan Siyasi Büronu, Sovet rəhbərliyini təmsil edən Heydər Əliyev də var idi. Deyim ki, ən hörmətli və mötəbər qonaq kimi də o qarşılandı. Ulu öndərin belə yüksək nüfuzu yerli azərbaycanlılarda böyük fəxarət hissi doğurdu. Yadımdadır ki, mərasim başlayan kimi Eduard Şevardnadze Heydər Əliyevi xüsusi bir səmimiyyətlə baba olmağı münasibəti ilə təbrik etdi. Heydər Əliyevin ilk nəvəsinin dünyaya gəlməsi münasibətilə səslənən bu təbrik gurultulu alqışlarla qarşılandı və sürəklə davam etdi. Bu, həm də tədbir iştirakçılarının, eləcə də azərbaycanlıların Heydər Əliyevə sevgisinin ifadəsi idi.

Şəhərcikdə xatirə olaraq ağacəkmə mərasimində Heydər Əliyevi mən müşayiət etdim. Daha doğrusu, Gürcüstan komsomolunun o vaxtkı rəhbərinin təqdimatı ilə bu iş rayon komsomol komitəsinin I katibi kimi mənə həvalə edildi. Ulu öndərlə ilk tanışlığımız da o vaxt oldu. Elə o mərasimdə də onun qayğı və diqqətini dərhal hiss etdim. O nəhəng şəxsiyyət qısa təmas zamanı bəzi məsələlərlə maraqlandı, dil öyrənməyi, Gürcüstanın siyasi həyatına fəallıqla qoşulmağı tövsiyə etdi. Mən sonrakı görüşlərimizdə Heydər Əliyevin bu söhbətləri unutmadığının şahidi oldum.

Sonralar Qardabani şəhərinin meri və rayon partiya komitəsinin katibi vəzifəsini tutdum. SSRİ-nin iflasından sonra Gürcüstanda ifrat millətçi Qamsaxurdiyanın hakimiyyətə gəlişi borçalıların həyatında təlatüm yaratdı. 1992-ci ildə Eduard Şevardnadze hakimiyyətə gələndən sonra vəziyyət tamamilə dəyişdi, mən də Qardabani rayonunda icra başçısının müavini təyin olundum.

1995-ci ilin oktyabrında Gürcüstan parlamentinin deputatı seçildim. İctimai-siyasi fəaliyyətimiz daha da genişləndi. Ulu öndərin açdığı yolla mənəvi dayağımız, milli dövlətimiz olan Azərbaycanla rəsmi əlaqələrimiz yarandı. Gürcüstan nümayəndə heyətinin tərkibində, həm də parlamentin Azərbaycan əsilli millət vəkili kimi mən də Heydər Əliyevlə dəfələrlə görüşdüm. Ulu öndərin təşəbbüsü ilə təkbətək görüşlərimiz də oldu. Bu böyük insan Gürcüstanda yaşayan azərbaycanlıların problemlərini dərindən öyrənməyə çalışır, ciddi məsələləri davamlı olaraq diqqətdə saxlayırdı.

**– Heydər Əliyevlə görüşlərinizlə bağlı daha çox nələrdən danışmaq istərdiniz?**

– Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı təkcə Azərbaycanın həyatında yox, Gürcüstan azərbaycanlılarının taleyində də xilaskarlıq missiyası ilə yadda qalıb. Sovet rejiminin çöküşü dövründə Heydər Əliyev hakimiyyətdə olsa idi nə Azərbaycanda, nə də Gürcüstanda o müsibətlər başımıza gəlməzdi. Çətin zamanda Heydər Əliyev xilaskarlıq missiyası ilə milləti səfərbər etdi, dövlət müstəqilliyini qorudu. Bizi də Gürcüstanda millətçilərin tüğyan edən azğınlıqlarından və deportasiyasından xilas etdi.

1996-cı ilin yanvarında Gürcüstan parlamentinin nümayəndələri Bakıya gəlmişdi. Prezident Sarayında Heydər Əliyev Gürcüstan parlamentinin o zamankı deputatları Ramiz Bəkirovu, Hidayət Hüseynovu və məni ayrıca qəbul etdi. Ulu öndər bir saatdan çox çəkən görüşdə hər birimizi diqqətlə dinlədi, Borçalıda soydaşlarımızın qayğı və problemləri ilə maraqlandı. Bu bizim üçün tarixi, həm də çox məsuliyyətli görüş oldu. Heydər Əliyev Gürcüstanda mövcud olan durumu incəliklərinə qədər bilirdi. Hiss etdik ki, bizimlə görüşündə bəzi faktları dəqiqləşdirmək niyyətində olub.

Ulu öndərin millət atası kimi nəsihəti, qürurverici sözləri indi də yadımdadır: "Siz Gürcüstanda yaşayan azərbaycanlılar, unutmayın ki, bu ölkə sizin vətəniniz, dövlətinizdir. Siz bu dövlətin qurulmasında, möhkəmlənməsində və inkişafında gürcü qardaşlarla çiyin-çiyinə çalışmalısınız. Sizin Gürcüstan parlamentinin deputatı seçilməyiniz məni çox sevindirir. Çalışın ki, Gürcüstanda yaşayan azərbaycanlılar öz zəka və bacarıqları ilə hamıdan öndə olsunlar".

Ümummilli lider növbəti dəfə Gürcüstana səfərə gələndə Rustaveli adına Opera və Balet Teatrında azərbaycanlılarla görüşdü. Burada Azərbaycan liderinin söylədiyi və mühüm tarixi əhəmiyyət kəsb edən fikirləri bizi daha da ruhlandırdı, arxasız olmadığımıza inandıq. O, bizə müraciət edərək dedi: "Siz diaspor deyilsiniz. Siz Gürcüstanda aborigen xalqsınız və Gürcüstan sizin vətəninizdir. Siz də bizim soydaşlarımızsınız, tək deyilsiniz".

Biz bu həqiqəti bilsək də nə söyləmək, nə də eşitdirmək imkanımız var idi. Buradakı azərbaycanlıların qədim tarixi, mədəniyyəti, adət-ənənələri var. Azərbaycanlıların yığcam yaşadıqları Marneuli, Bolnisi, Dmanisi, Qardabaninin qədimliyi bir yana, Telavi rayonunun Qaracala kəndinin 500 ildən çox yaşı var. Laqodexinin Qabal kəndinin də tarixi çox qədimdir. Kaspi rayonunda 10-dan artıq belə kənd var. Ulu öndər də bunları yaxşı bilirdi. Ona görə də Gürcüstan prezidentinin və hökumət nümayəndələrinin də iştirak etdiyi tədbirdə azərbaycanlıların yerli, köklü xalq, Gürcüstanın isə onların vətəni olduğunu çox böyük cəsarətlə söylədi.

Ümummilli lider Heydər Əliyev daim çalışırdı ki, Gürcüstanda – qədim Borçalı obalarında soydaşlarımız öz mədəniyyətlərini, ana dili və digər milli keyfiyyətlərini unutmasınlar. Gürcüstanda onun göstərişi ilə həyata keçirilən bütün layihələrin mərkəzində də məhz bu amal dayanırdı.

**– Görüşləriniz sonra da davam etdimi?**

– Davam etdi, çox maraqlı və yaddaqalan, həm mənim taleyimdə silinməz izlər qoydu, həm də Azərbaycan – Gürcüstan əlaqələrini dərinləşdirən görüşlər bir neçə dəfə də oldu. Gürcüstanın rəsmi heyətlərinin bütün Bakı səfərlərində iştirak etmişəm. Hər dəfə də Heydər Əliyev məni xüsusi hörmətlə qəbul edib. Görüşlərin birində bildirdim ki, Azərbaycandan Gürcüstana göndərilən yanacaq Ermənistana ötürülür. Heydər Əliyev ani sükutdan sonra təmkinli, həm də diplomatik bir cavab verdi: "Bakı məhz azərbaycanlılara görə, Gürcüstana yanacaq verir". Amma onu da anladım ki, Heydər Əliyevin də bu xəyanətdən xəbəri var. O, bu məsələni çox ciddi araşdırdı və məlumatların təsdiqindən sonra bu "xəyanətkar alverə" son qoyuldu. Bundan sonra mənə olan münasibət və inamının daha da artdığını gördüm.

*(ardı 5-ci səhifədə)*

# Əlvida, cənab Prezident!

## *Öz dövrünün "memarı"na vida sözü*

**Məqalə "Azerbaijan İnternational" jurnalının 2003-cü il sayında ingilis dilində dərc edilmişdir və ilk dəfə "Xalq qəzeti"ndə Azərbaycan dilində işıq üzü görür. Müəllif Betti Bleyerdir**



Prezident Heydər Əliyevdən aldığım bütün müsahibələr içərisində mənim ən çox yaddaşımda qalan 1997-ci ilin avqustundakı müsahibə oldu. Bu müsahibə Heydər Əliyevin ABŞ-ın 4 şəhərinə – Nyu-York, Vaşinqton, Hyuston və Çikaqo şəhərlərinə 10 günlük səfəri zamanı axırıncı günə – Hyustondan Çikaqoya uçuşuna təsadüf etdi. Müşavirlər, Nazirlər Kabineti və Parlamentin müvafiq nümayəndələri, təhlükəsizlik heyətinin təxminən 30-a yaxın əməkdaşı, fotoqraflar, mətbuat və televiziya nümayəndələri və yeganə əcnəbi olan mən də daxil olmaqla heyətin ümumi sayı 60 nəfər idi.

O, "Azerbaijan İnternational" jurnalına müsahibə verməyə söz vermişdi. Vaxt yetişəndə məni təyyarənin Prezident üçün ayrılmış bölməsinə ötürdülər. Səyahət məsələlərində təcrübəli olduğumdan, həmişə bütün uçuş boyu təhlükəsizlik kəmərini bağlayıram. Amma bu dəfə Prezident kəməri bağlamadığından mən də kəmərimi bağlamadım və onunla üzbəüz kresloya əyləşdim.

Tanrının hökmü ilə, çox keçmədi ki, elə bil təyyarə qəsdən tufanlı havaya düşdü və silkələnməyə başladı. Müsahibəni diktafona yazdığımdan, onun diqqətini yayındırmaq istəmədim və kor-koranə əllərimlə təhlükəsizlik kəmərinin qollarını axtarmağa başladım. Əlbəttə ki bu, Prezidentin diqqətini çəkdi. O, danışığına fasilə verdi, gülümsədi və ona xas qəribə bir yumorla dedi: "Narahat olma, qoymaram təyyarəmizə bir şey olsun!" İkimiz də güldük. Amma mən kəməri bağladım.

Bu xüsusiyyət yalnız ona məxsus idi – yalnız Heydər Əliyev belə bir şeyi özünəməxsus yumorla və məqamında söyləyə bilərdi.

Mənə elə gəlir ki, bu günlərdə, Heydər Əliyevin dəfn mərasimində (15 dekabr, 2003-cü il), milyonlarla azərbaycanlının Prezidentə qarşı hisslərini və rəğbətini bu cür kütləvi şəkildə ifadə etmələrinin kökünü onun etdiyi həmin zarafatda axtarmaq lazımdır: "Narahat olma, qoymaram təyyarəmizə bir şey olsun!".

Görünür, Azərbaycan xalqının əksəriyyəti də - nə qədər ki, Heydər Əliyev hakimiyyətdədir, xalqa zaval yoxdur – deyə düşünmüşlər. Xalqı onu ağıllı, təcrübəli, hədsiz etibarlı siyasətçi kimi qəbul edirdi… Hər şeydən öncə o, 11 saatlıq uçuş ərazisini əhatə edən sərhədsiz Sovet Ittifaqının ən nüfuzlu siyasətçiləri arasında Siyasi Büroda barmaqla sayılan şəxslər sırasında olmuşdur.

Azərbaycanın Sovet İttifaqında ən kiçik respublikalardan biri olmasına baxmayaraq, Heydər Əliyev həmişə özünü tanıyan və kökünə bələd olan bir insan təəssüratı bağışlayırdı. Hətta onun rəqibləri belə, Sovet Ittifaqının dağılmasından sonrakı ilk illərdə (1993-1997) hakimiyyət uğrunda mübarizə aparan qüvvələrin və Qarabağ uğrunda gedən müharibənin xalqı parçalamasına imkan verməməsində onun xidmətini etiraf edir. Çoxları üçün müstəqilliyin ilk çətin illərində Əliyev əmin-amanlıq simvolu idi.

Əliyevin son dərəcə gərgin iş regimi var idi. Heç kim onu "9-dan 6-ya qədər işləyən prezident" adlandıra bilməz. Saatın neçə olmasının onun üçün əhəmiyyəti yox idi. O, həmişə iş başında idi –həmişə Prezident idi.

Xatirimdədir, ilk müsahibəmiz 1994-cü ildə olmuşdu. Onda Əliyevin 71 yaşı var idi. Biz onun qəbuluna düşəndə çox gec idi. Müsahibə isə gecə saat ikiyə qədər çəkdi və gec olduğunu onun nəzərinə çatdırdım. Cavab verdi ki, son 50 ildə həyatı bu cür keçir – səhər saat 10-11- də işə gəlir, yalnız axşam saat 7 ərəfəsində nahar fasiləsi götürür və yenidən gecə saat ikiyə - üçə qədər işləyir.

Yəqin ki, mən Azərbaycan müstəqillik qazanandan sonra ondan ən çox müsahibə götürən Qərb – əcnəbi jurnalistiyəm. Onunla dəfələrlə görüşmüş, ən azından yeddi dəfə müsahibə almışdım. Axırıncı müsahibə zamanı isə o, mənə dedi: "Elə fikirləşmə ki, mən hamıya belə tez-tez müsahibə verirəm".

İlk müsahibəmizdən başlayaraq biz nadir hallarda mətbuatın daim maraqlandığı neft, iqtisadiyyat və müharibə mövzusunda söhbət edərdik. Və sovet müxbirlərindən fərqli olaraq, mən şəxsi suallar verməyə cürət etdim. O, dil haqqında və Azərbaycan dilinin rolunun möhkəmləndirməsi yolunda atdığı addımlardan məmnuniyyətlə söhbət açdı. Eyni zamanda o, 1980-ci ildə "Time" jurnalının təhlillərində çıxardıqları "Heydər Əliyev rus dilində rusların çoxundan yaxşı danışır" nəticəsi ilə fəxr edirdi.

Tarixdən, xüsusilə son illərdə ozünün yaratdığı müasir tarixdən məmnunluqla danışırdı. O, musiqini incəsənəti, yaraşıqlı binaları və istedadlı, ağıllı insanları çox sevirdi. İnsanda elə fikir yaranırdı ki, o, vaxtının çoxunu ürəkdən bəyəndiyi şeyləri etməyə sərf edirdi, O, bürokratiyanın onu bu əməlindən çəkindirməsinə imkan verməmişdi. Protokol qaydalarınından kənara çıxıb qeyri – adi hərəkət etmək ona yad deyildi. Heydər Əliyevin adi jestləri – əl sıxması, başıyla işarə eləməsi, təbəssümü, səmimi görüşü belə onun qüdrətindən xəbər verirdi.

Mənim yaddaşımda qalan digər müsahibəmiz isə 1999-cu ildə oldu. Həmin dövrdə prezidentin ürəyində yenidən cərahiyyə əməliyyatı aparılmışdı və onu əvəz edəcək heç kim olmadığından əhali narahat idi. Mən onun gələcək liderlərə xarici siyasətlə bağlı məsləhəti ilə maraqlandım.

O, cavab verdi ki, onlar onun kursunu davam etdirməlidirlər. Onun sözlərinin mənasının əcnəbilər üçün aydın olmayacağını bildiyimdən və onun sözünü kəsmək istəmədiyimdən xahiş etdim ki, fikrini açıqlasın.

Qəfildən Əliyev yumruğunu stola vurdu – onun bu hərəkəti ilə heç vaxt rastlaşmamışdım – və dedi: **"Bu o deməkdir ki, əksər ölkələrdən fərqli olaraq, biz bəzi ölkələrlə dost, digərləri ilə isə düşmən ola bilmərik. Hər bir ölkənin öz marağını nəzərə almaq lazımdır. Azərbaycan heç bir dövlətlə düşmən olmaq istəmir. Eyni zamanda, biz hər hansı bir ölkənin siyasətinin də qurbanı ola bilmərik. Bizim öz müstəqil siyasətimiz var. Həmçinin, hal - hazırda biz Avropa və Amerika ilə sıx əlaqələr qururuq, öz milli dəyərlərimizi və kökümüzü yaşatmaqla, onların təcrübəsindən faydalanmağa çalışırıq. Gələcək liderlər mən qoyduğum yolu davam etdirməlidirlər. Əgər bunu etsələr, müvəffəqiyyət qazanacaqlar. Yox, edə bilməsələr, Azərbaycan böyük faciə ilə üzləşəcək".** Müsahibə bu fikirlə sona çatmışdı.

Təbii olaraq, o da tənqiddən xali deyildi, lakin əksər hallarda, bu tənqidlər haqsız idi. Ümumilikdə, insanlar onu "həyatın özünə sığmayan bir insan" və böyük siyasətin ustası kimi qəbul edirlər. Şübhəsiz, Heydər Əliyev 1970-ci ildən 2003-cü ilə qədər otuz illik bir dövrün – öz dövrünün MEMARI kimi yaddaşlarda yaşayacaq…

İndi növbə gənclərindir, onun xalqına bəxş etdiyi üstünlüklərdən bəhrələnərək, yorulmadan bu yolda can qoyaraq güclü, saf, sağlam və tərəqqipərvər millət yaratsınlar.

***İngilis dilindən çevirəni***
***Süsənbər AĞAMALIYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Öndər, sənə görə belə güclüyük...

**Vahid ƏZİZ, Xalq şairi**

**Coşur məzarında güllərdən dəniz –**
**Varaqlar üstündə qələm hönkürür,**
**Təkcə Azərbaycan qalmadı Sənsiz –**
**Öndər, yoxluğuna aləm hönkürür.**

**Cənnətin göylərin yeddi qatında,**
**Yerə zülmət çökər Günəş batanda,**
**Çox doğma olsa da zarafatın da –**
**Bu gün o da qoymur güləm, hönkürür.**

**Adın milyon-milyon sevən ürəkdə,**
**Çağırışın yumruqlu qolda, biləkdə,**
**Deyir qəbrin üstə bitən çiçək də –**
**"Düşünmə bəxtəvər güləm", hönkürür.**

**Heyrət timsalıydı Səndəki dözüm,**
**Nur oldun içində alovun, közün,**
**Yaşıdım ixtiyar – gizlədir gözün,**
**İstəmir səbəbin biləm, hönkürür.**

**Öndər, Sənə görə belə güclüyük,**
**İndi iradəli ölkəyik, elik,**
**Olsa da hamıdan evimdə kiçik –**
**Çəkilib gizlinə nəvəm, hönkürür.**

**Coşur məzarında güllərdən dəniz –**
**Varaqlar üstündə qələm hönkürür,**
**Təkcə Azərbaycan qalmadı Sənsiz –**
**Öndər, yoxluğuna aləm hönkürür...**

***(Şeir 2003-cü il dekabrın 12-də yazılıb və ilk dəfə çap olunur)***

# Minnətdarlıq imkanı



**Mən yetişdim atəşlə su**
**Öpüşdüyü bir ölkədə**
**İzləyirkən sevgi yolu**
**Acı duydum hər kölgədən.**

Dahi Hüseyn Cavid Azərin bu nidaları ilə əslində öz tərcümeyi-halını, yoxsul ikən zənginləri diz çökdürən diləklərini, müdrik arif olduğu halda təvazö ilə bilmədiklərinin ənginliklərə qədər gedib çıxdığını, mülayim olsa da dalğaları atəş püskürən dənizini, aciz olsa da sülh uğrunda qovğalardan usanmadığını, qaval çalıb vicdanları inlədən çoban olduğunu elə məharətlə ifadə edib ki, bu poetik parça bütöv bir dövrü, ulusu tərif edən fəlsəfəyə çevrilib. Təkcə Azərin cavabı şairin düşüncə tərzi, ifadə üsulu ilə müəllifin ölçüyəgəlməz imkanından xəbər verir. Bu söhbətin mövzusu isə Cavid yaradıcılığını təhlil etmək deyil, nəşi 1982-ci ilin dekabrında Vətənə gətirilmiş acı taleli şairin xatirəsi ilə bağlı bir tarixi görüşdür.

Sovet dövlətinin varlığının sona yaxınlaşdığı 1991-ci il idi. Amma təbii ki, heç kim, hətta özlərini öncəgörən hesab edən güclü ekstrasenslər belə bu sonluğu ağla gətirmirdilər. Belə bir vaxtda Moskvadakı tanışlarımdan biri yaranmış vəziyyətdən düzgün istifadə edərək, biznes fəaliyyətinə başlamış, rəqabətin hələ az olduğuna görə uğurlar qazanmış həmyerlimiz məndən xahiş etdi. "Toyum olacaq, amma elə dəbdəbəli və musiqili yox. Çox mötəbər qonaqlarım var. Ona görə mərkəzdə 30-40 nəfərlik bir restoran tapa bilərikmi?" Bu sual hər addımda restoran, kafe, şadlıq sarayının olduğu indiki vaxtda çox qəribə səslənə bilər, lakin otuz il əvvəl hətta Moskva kimi böyük şəhərdə restoran qıtlığı vardı. O vaxt Qorki küçəsi deyilən (hazırda Tverskaya adlanır) mərkəzi küçədə "Minsk" hoteli vardı. İndi küçənin də adı dəyişib, hotel də uçurulub, yerində başqası tikilib. İkinci mərtəbədə istədiyimiz kimi yer tapa bildik.

Yığıncağa, həqiqətən, mötəbər qonaqlar gəldi və onların ən tanınmışı, məşhuru Heydər Əliyev idi. Sonralar Azərbaycanda dövlət katibi olmuş görkəmli ictimai xadim Lalə Şövkət Hacıyeva bacısı ilə gəlmişdi. Musiqisiz məclisi riyaziyyat elmləri doktoru, professor Səid Ələsgərov idarə edirdi. Səid müəllim Azərbaycan elmində və elmi-tədqiqat institutlarının yaradılmasında xüsusi xidmətləri olan alim idi və Heydər Əliyevlə səmimi münasibətləri vardı. Tanışlıq, yeni ailə həyatına qədəm qoyan gənclərə xoşbəxtlik arzularından sonra məclis bildiyimiz klassik toy axarında deyil, səmimi ünsiyyət, söhbət şəklində davam edirdi. Səid müəllimin növbəti sağlıq üçün kimə söz vermək axtarışında baxışlarımız toqquşdu və işarə ilə söz demək istədiyimi bildirdim. Səid müəllim də öz növbəsində Heydər Əliyevi göstərərək onun barəsində də danışmağa məndə cəsarət yaratdı. Yeni ailə quran gəncləri təbrik etdikdən sonra Heydər Əliyevə müraciət etdim.

--Hörmətli Heydər müəllim, – dedim, – 34 yaşım var və bu, mənim Sizinlə ilk canlı görüşümdür. Bundan sonrakı otuz dörd ildə də görüşmə ehtimalını dəyərləndirə bilmədiyimə görə izin verin bu fürsətdən istifadə edim. Əvvəlcə onu deyim ki, bu günlərdə "Komsomolskaya pravda"da bir yazı oxudum. Sərlövhəsi belə idi: "Heydər Əliyev (siyasətə) qayıdır". Yazının ahəngində sevincdən daha çox təşviş, narahatlıq, hətta, təbir caizsə, başqasının arxasınca danışılan bir qeybət havası hiss olunurdu. Buna fikir bildirmək istəyirəm ki, arxanızca danışılırsa, deməkSiz irəlidəsiniz. İkincisi, Sizin siyasi fəaliyyətinizə qiymət verməli, mənə düşməz. SSRİ tarixində xidmətləriniz göz qabağındadır. Bu gün Sizin Olimpdə olmamağınızın səbəbləri də qısqanclığın və məkrli oyunların nəticəsidir. Mən başqa məqamdan danışmaq istəyirəm. Sizin Siyasi Büro üzvü kimi Moskvada işə başladığınız dövrdən təxminən 9 il keçir. Əlbəttə, keşməkeşli Stalin dövründəki qorxu, təlaş indi yoxdur. Amma dövlət maşını yenə, lazım gələrsə, sərt üzünü göstərir. Sadəcə bir faktı deyim, bir diktor dövlət başçısını təqlid etdiyinə görə həbsə atılmışdı bu illərdə. Stalin vaxtında haqsız cəzalara məhkum olunanlara hələ də çox könülsüz bəraət verilir. Belə bir vaxtda Siz Azərbaycan üçün tarixi missiyaya imza atdınız. Onu deyim ki, Hüseyn Cavid ingilislərdə olsaydı, yaxud ingilis olsaydı, tərifli Vilyam Şekspir ikinci olardı. Qondarma istintaqında "Millətçi olduğunuzu etiraf edirsinizmi" sualına "Millətini sevmək millətçilikdirsə, bəli" cavabını vermişdi Cavid. Bu cavaba görə Sibir çöllərində həyatla vidalaşmışdı. Sizin heç bir siyasi fəaliyyətiniz olmasa belə təkcə Vətənin böyük övladı, dramaturqu və şairi Hüseyn Cavidin nəşini ana torpağa gətirdiyiniz üçün Azərbaycan gəncliyi, Azərbaycan xalqı Sizə ömürlük minnətdardır. Bu minnətdarlığı dilə gətirmək imkanına görə taleyimdən razıyam. Sağ olun. Sizin şərəfinizə!

Heydər Əliyevlə Səid Ələsgərov üzüzə əyləşmişdilər. Mən sözümü bitirəndə hər ikisi ayağa qalxdı. Səid müəllim mənim çıxışımdan razı qalmışdı və nə isə əlavə etmək istəyirdi. Bir müddət hər ikisi ayaq üstə durdu. Sonra Səid müəllim əyləşib Heydər Əliyevi dinlədi.

– Təşəkkür edirəm, – dedi Heydər Əliyev. – Mən bütün fəaliyyətimdə Azərbaycanın mənafelərini hər şeydən üstün tutmuşam. Həmişə də Azərbaycanın böyük uğurlar qazanacağına əmin olmuşam. Amma uğurlar öz-özünə qazanılmır. Daim yorulmadan çalışmaq tələb edir...

O görüşün xatirəsi bu gün də yaddaşımdadır. Görünür, həm də ona görə ki, həmin görüş mənim o böyük insanla ilk və son canlı görüşüm idi.

***Cəfər SADIQ***

**Moskva**

# Gürcüstanın dostu, borçalıların arxa-dayağı

**(əvvəli 4-cü səhifədə)**

Ulu öndər Gürcüstan azərbaycanlılarının həyatı və məişəti ilə çox maraqlanırdı, hər şeyə diqqət edirdi, ən adi saydığımız detallar barədə maraqla soruşurdu.

Onu da bildirim ki, Heydər Əliyevin 1998-ci ildə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi Gürcüstanda da böyük sevinclə qarşılandı. Bu, Gürcüstanda yaşayan azərbaycanlılar üçün də bayram idi. Hər yerdə bu hadisə ilə əlaqədar qurbanlar kəsilir, bayram təntənəsi davam edirdi. Həm deputat həmkarlarım, həm də ətrafımdakı adamlar və seçicilər Heydər Əliyevlə danışmağı və onların təbriklərini çatdırmağı məndən xahiş edirdilər.

Heydər Əliyevin gərgin iş qrafikini nəzərə alaraq ona zəng etmədim, amma ünvanına təbrik teleqramı göndərdim. Səhərisi mənə təşəkkür məktubu göndərmişdi. Bu, Heydər Əliyevin nə qədər diqqətcil, hər şeyi həssaslıqla dəyərləndirən bir şəxsiyyət olduğunun təsdiqi idi. Ulu öndər heç kəslə müqayisə edilməyən nadir şəxsiyyət idi.

1999-cu ilə kimi – deputat olduğum illərdə Ulu öndərlə münasibətlərimiz davam etdi. Heydər Əliyevlə görüşlərim taleyimin ən xoş səhifələri kimi yaddaşımdadır.

**– Ulu öndər Heydər Əliyev heç vaxt Gürcüstan azərbaycanlılarının problemlərini Azərbaycanın taleyindən ayrı təsəvvür etməyib. Məhz bunun nəticəsidir ki, düşmən qüvvələr Borçalını azərbaycanlılarsız qoya bilmədilər.**

– Haqlısınız, Ümummilli lider Heydər Əliyev Azərbaycanda hakimiyyətdə olduğu istər birinci, istərsə də ikinci dövrdə qonşu Gürcüstanla əlaqələrin inkişafına və orada yaşayan azərbaycanlıların problemlərinin həllinə xüsusi diqqət göstərirdi. Ulu öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Borçalının taleyi xüsusi diqqətə alındı, hətta özü çətin durumda olan Azərbaycan bu müqəddəs işə səfərbər oldu. 1993-cü ildə Gürcüstanda ictimai-siyasi və iqtisadi vəziyyət son dərəcə gərgin idi, hadisələrin məcrası hər gün dəyişirdi. Soydaşlarımızın narahatlığına ciddi səbəblər var idi. Bu təhlükə və haqsızlıqları Heydər Əliyev kimi siyasətçi görə bilərdi və gördü də. Ulu öndər ilk gündən Gürcüstan rəhbərliyindən bu məkrli münasibətlərin aradan qaldırılmasını tələb etdi. Düşmən qüvvələr duruş gətirə bilməyib geri çəkildi. Azərbaycandan göndərilən nümayəndələrə tapşırıldı ki, Gürcüstanda yaşayan soydaşlarımızın problemləri dərindən öyrənilsin.

O vaxtlar Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı işləyən mərhum Aslan Aslanov məhz Heydər Əliyevin göstərişi ilə bu gərəkli missiyanın icrası ilə məşğul idi. Ulu öndərin Gürcüstan və Borçalıda yaşayan azərbaycanlılarla bağlı tapşırıqlarının icrasında mən də birbaşa iştirakçı olmuşam.

Heydər Əliyev Azərbaycan – Gürcüstan əlaqələrinin möhkəmləndirilməsinə, daha da inkişafına, orada yaşayan soydaşlarımızın problemlərinin həllinə, qədim yurd yerlərimizdəki milli abidələrimizin, maddi-mənəvi dəyərlərimizin, bir sözlə, tarixi yaddaşın qorunub saxlanılmasına xüsusi önəm verirdi. 1993-cü ildən başlayan bu iş mütəmadi olaraq davam etdirilmiş, Gürcüstan azərbaycanlılarının bütün problemləri diqqətdə saxlanılmış və onların həlli gündəmə gətirilmişdir.

Görkəmli ictimai-siyasi xadim, uzun illər Ulu öndərlə çiyin-çiyinə yüksək dövlət vəzifələrində çalışmış Həsən Həsənov çıxışlarının birində demişdi: "Heydər Əliyev Gürcüstanı çox sevirdi. Sovetlər dönəmində ölkələr arasında əlaqələr Moskvanın icazəsi ilə qurulurdu. Amma Heydər Əliyev deyirdi ki, bunun Azərbaycan ilə Gürcüstan arasında əlaqələrə heç bir aidiyyəti yoxdur. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Gürcüstanla münasibətlər yeni inkişaf dövrünü yaşadı. Bunun nəticəsidir ki, bu gün ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib".

Gürcüstan azərbaycanlılarının ən yüksək həddə çatan narahatlığı məhz Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində aradan qaldırıldı. Heydər Əliyev Azərbaycanın və Gürcüstanın dostluğunu müstəqillik epoxasında daha da möhkəmləndirdi. Ən əsası, Borçalı torpağının Qərbi Azərbaycanın taleyini yaşamaması üçün gerçək təhdidlərin qarşısını məhz ümummilli lider Heydər Əliyev aldı. Gürcüstan azərbaycanlıları bu xilaskarlığı heç zaman unutmayacaqlar.

**– Maraqlı söhbətə görə sağ olun. Gürcüstanda yaşayan soydaşlarımıza daha xoş günlər arzulayırıq.**

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Ulu öndər jurnalistlərin ən böyük dostu idi

**Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə, eləcə də Moskvada ali sovet rəhbərliyində çalışdığı illərdə medianın səfərbəredici gücündən ən yüksək səviyyədə istifadə edərək tarixi nailiyyətlərə imza atmış siyasət və dövlət xadimi olaraq da fenomenal sima kimi yaddaşlarda yaşayır. Bu həqiqəti onunla yaxın təmasda olmuş, Ulu öndərdən müsahibələr almış, bu böyük insanı səfərlərdə müşayiət etmiş yaşlı nəsil media işçiləri jurnalistlərin böyük dostunu unudulmaz xatirələrlə yad edərək bir daha təsdiqlədilər.**





Dövlət teleradiosunda reportyorluqdan informasiya baş redaksiyasının rəhbərinədək yüksəlmiş Akif Cabbarlı hələ sovet dövründə Azərbaycan liderini dəfələrlə ölkənin müxtəlif yerlərində keçirilən görüş və mərasimlərdə media qrupunda müşayiət etmiş, silsilə reportajlar hazırlamışdır. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin böhranlı yayında xalqın tələbi ilə Bakıya dəvət edilib Ali Sovetə sədr seçilən gün televiziya ilə xalqa müraciətinin AzTV studiyasında çəkilişinə də həmkarımız rəhbərlik etmişdir.

**Hazırda Azərbaycan Kinematoqrafçılar İttifaqının redaktoru olan Akif Cabbarlı Ulu öndərin jurnalist əməyinə verdiyi önəmli dəyəri Ümummilli liderin növbəti anım günündə belə xatırladı:**

– Dünya şöhrətli dövlət və siyasət xadimi, xalqımızın qüdrətli oğlu Heydər Əliyev özünün bütün siyasi və dövlətçilik fəaliyyəti boyu ölkənin sosial-iqtisadi və mədəni inkişafı, vətəndaşların daha firavan yaşayışı naminə misilsiz xidmətlər göstərmişdir. Bunu mən də bir qələm adamı olaraq daim müşahidə etmişəm. Ulu öndərin səfər və görüşlərindən aldığım təəssüratı bu gün də qəlbimdən heç zaman silinməyəcək duyğular kimi yaşatmaqdayam.

Zəmanəmizin nadir qurucu liderlərindən biri kimi tanınmış Heydər Əliyev jurnalistlərə əsl dost, dövrün salnaməsini yaradan fədakar insanlar kimi yanaşır, onların taleyi, yaşayışı ilə də dərindən maraqlanırdı. Yaxşı xatırlayıram, 1980-ci ilin aprelində Heydər Əliyev Azərbaycanın bir qrup yaradıcı ziyalısını və qələm adamlarını da özü ilə Naxçıvan Muxtar Respublikasına səfərə aparmışdı. Səfərimiz 4 gün çəkdi. Görüşlər barədə televiziya və radio reportajlarını diqqətlə izləyən və dinləyən Heydər Əliyev elə ertəsi gün səhər-səhər öz tapşırıq və qənaətini çatdırır, hər dəfə də təşəkkürünü bildirirdi.

1982-ci ilin yanvarında isə Şuşada M.P.Vaqifin məqbərəsinin tarixi açılışında, bölgələrdə keçirilən partiya-təssərrüfat fəallarının geniş müşavirələrində və digər mərasimlərdə də jurnalistlərə belə isti yanaşmanın şahidi olurduq. Onun mülahizə və təklifləri hər birimizin "qulağında bir sırğa" olub gələcək fəaliyyətimizdə də rəhbər tutulurdu. Elə şəxsən mənim jurnalistik fəaliyyətimdə Ulu öndərin tövsiyələri, canlı bir məktəbin dərslərinə çevrilmişdi.

Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra da bu böyük şəxsiyyətin keçirdiyi görüşlərdə, mətbuat konfranslarında AzTV-nin baş redaksiya rəhbəri kimi iştirak etmişəm, ondan müsahibələr almışam. 1993-cü ilin 15 iyununda Ulu öndərin Azərbaycan parlamentinə sədr seçilib çətin şəraitdə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürdükdən dərhal sonra keçirilən mətbuat konfransında da iştirak edib reportaj hazırlamışam. Qarşıdakı dövrdə ölkəmizin digər dövlətlərlə, xüsusən MDB ölkələri ilə əməkdaşlığının hansı prinsiplər əsasında qurulacağı ilə bağlı verdiyim sualı isə Ulu öndərin necə həssaslıqla dinlədiyi və böyük dövlət xadimi, mahir siyasətçi və diplomat kimi cavablandırması indi də sözbəsöz yaddaşımdadır.

Heydər Əliyevin televiziya ilə xalqa müraciətinin və Rusiyanın "Ostankino" telekanalı üçün müsahibəsinin yazılışında iştirak etməyim də unudulmaz xatirələrimdəndir. Heydər Əliyevin AzTV-nin həyətində səmimi qarşılanması, əməkdaşlarla doğma adamlar kimi görüşməsi əsl bayram ovqatı yaratmışdı. Hər birimiz böyük dövlət adamını doğmamız kimi qarşılamış, ona müstəqil Azərbaycanın inkişafı yolunda həyata keçirəcəyi işlərdə böyük uğurlar arzulamışdıq. Təbii ki, hər bir azərbaycanlı kimi, biz qələm adamlarının, yaradıcı ziyalıların da o günlərdəki arzu və gözləntiləri tezliklə reallaşdı. Azərbaycan Ulu öndərin rəhbərliyi ilə böyük, qazanclı layihələrə imza atdı. Ölkəmiz dünya meridianlarında layiqincə tanınmağa başladı.

Əlbəttə, ölkəmizi qarşıda daha böyük sosial-iqtisadi, hərbi uğurlar gözləyirdi və Ulu öndər uzaqgörən siyasətçi, məharətli diplomat kimi bütün bunları hamıdan yaxşı və hərtərəfli təsəvvür edirdi. O böyük insanın Ümummilli Xatirə günündə bütün bunlar məmnunluq və minnətdarlıqla yada düşür.

**AzTV-də müxtəlif vəzifələrdə çalışmış, rəhbərlikdə təmsil olunmuş Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı da Ulu öndəri müxtəlif görüşlərdə müşayiət etmiş, 2 dəfə isə onunla müsahib olmuşdur. Tanınmış telejurnalist o günləri ən xoş xatirə kimi yad etdi:**

– Millət atası, jurnalistlərin ən yaxın dostu Heydər Əliyevdən 2 dəfə müsahibə almağım yarım əsrlik jurnalist fəaliyyətimin qızıl səhifəsidir.

Ulu öndər 1993-cü ilin yayında Ali Sovetə Sədr və payızda ölkə Prezidenti seçiləndə ondan geniş müsahibə almaq mənə həvalə olundu. Həmin müsahibələrin biri 1 saat 15 dəqiqə, digəri 1 saat davam elədi. Heydər Əliyev özü o vaxt müsahibə almaq üçün mənim gəlməyimi istəmişdi. Çünki o vaxt üzdə olan jurnalistlərdən idim, hadisələr dövründə efirdə daha çox görünürdüm.

Ali Sovetdəki müsahibəyə iki operatorla – Nadir Zeynalov və Rüstəm Zülalovla getmişdik. Bəylər Əyyubov qapını açdı və bizi içəri dəvət etdi. Heydər Əliyev bizi çox səmimi qarşıladı, o, ümumiyyətlə jurnalistlərlə ünsiyyət qurmağı sevirdi və bunu çox məharətlə bacarırdı. Sonra mənə dedi ki, "eşitmişəm, sən mənə görə çox əziyyət çəkmisən". Dedim ki, "həqiqəti müdafiə eləmişəm."

Sonra ikinci dəfə yenə ondan müsahibə aldıq. Heydər Əliyevlə müsahibə aparmaq iddiasında olanların hamısı deyirdilər ki, "onun gözünün içinə baxıb danışmaq çox çətindir. Amma mən onunla çox rahat və sərbəst danışırdım, çünki bu səmimiyyəti o özü yaradırdı.

Bu görüşlərdən sonra mən jurnalistliyin necə çətin, şərəfli və məsuliyyətli bir peşə olduğuna bir daha əmin oldum. O vaxt çoxları deyirdi ki, guya, "Heydər Əliyevlə üzbəüz oturub danışmaq çətindir, onda qəribə bir magiya var". Təbii ki, o nəhəng insan idi. XX əsr Azərbaycan ədəbiyyatında, incəsənətində, mədəniyyətində çox böyük dahilərimiz olub. Amma siyasətdə ikinci Heydər Əliyevimiz yoxdur.

Biz sıradan biri olaraq, öz ailəmiz, çevrəmiz üçün, bəlkə də, təkrarsızıq. Amma söhbət millətin, ölkənin taleyini dəyişdirməyə qadir olan seçilmişlərdən, dahilərdən gedir! Bəli, o, təkrarsız insan, böyük şəxsiyyət idi. Onu dostları da sevirdi, düşmənləri də yüksək dəyərləndirirdi. Dostları onun parlaq istedadını və ali şəxsiyyətini dəyərləndirdikləri, düşmənləri isə ona həsəd aparıb qorxduqları üçün.

Bütün siyasətçilər bir-birlərinə bənzəyirlər, o isə fenomen yaddaşı, savadı, işgüzarlığı, ağlı, zəkası və ən əsası dəmir məntiqi ilə hər kəsi mat qoymağı bacarırdı. Bu insan ədəbiyyatdan danışanda ədəbiyyatçı, musiqidən danışanda musiqişünas, teatrdan danışanda ən gözəl aktyor və rejissor oyunlarını şərh edən bir teatr, səhnə bilicisi olurdu. Rəssamlar, memarlar, arxitektorlar onun tövsiyə və məsləhətlərini həvəslə dinləyirdilər. Kənd təsərrüfatından danışanda düşünürdün ki, yəqin, nə vaxtsa Kənd Təsərrüfatı İnstitutunda oxuyub.

Həmin dövrdə AzTV-nin sədri də, müavini də Xalq Cəbhəsinin nümayəndələri idi. Mən də "Xəbərlər" baş redaksiyasında işləyirdim. Naxçıvandakı müxbirimiz ara-sıra materiallar göndərirdi. Bu materiallar da Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevin xarici qonaqlarla görüşləri zamanı lentə alınmışdı. Mən o materialları işləyib efirə vermək istəyəndə deyirdilər ki, "olmaz". Mən də dirəşirdim ki, bu material efirə getməlidir. Bunu kimisə müdafiə etmək üçün etmirdim. Mənimçün həqiqət, elə indi də, hər kəsdən və hər şeydən yüksəkdədir, haqqı söylə, yolun açıqdır – deyirəm...

O vaxtkı rəhbərliklə mübahisəm düşəndə deyirdim ki, "gücünüz çatırsa, onu Ali Məclisin sədri vəzifəsindən çıxarın, qoyun gəlsin, ayrı adam otursun. Yəqin ki, onda yeni gələn adam haqda materialların efirə getməsinə icazə verəcəksiniz". Susurdular. Deyirdim ki, sizin efirə vermək istəmədiyiniz şəxsin bu süjetin efirə getməsində heç marağı da yoxdur, amma əgər o kimisə qəbul edirsə, hansısa xarici ölkənin rəsmiləri onun qəbuluna gəlirsə, onunla görüşüb Naxçıvanın və Azərbaycanın taleyi ilə bağlı məsələlər müzakirə olunsa, bizim xəbər proqramı olaraq bunu efirə vermək haqqımız var.

İllər əvvəl olmuş bir görüşü də xatırlayıram. Sovet dövrü idi, məşhur rus bəstəkarı, SSRİ-nin Xalq artisti Tixen Xrennikovun Bakıda Filarmoniyadakı konsertini çəkməyə getmişdik. Onda mən bəstəkardan müsahibə almaq üçün otağa dəvət olunanda içəridə Heydər Əliyevi və Zərifə xanımı görəndə heyrətimdən quruyub qaldım. Heydər Əliyev çaşqınlığımı görüb gülə-gülə məni Xrennikova təqdim elədi və dedi ki, "bu bizim çox gənc, amma çox istedadlı jurnalistimizdir, mən onu çox böyük maraqla izləyirəm". Mən təəccüblə və heyrətlə bu müdrik insana baxdım və onun, hələ o qədər də təcrübəsi olmayan adi bir jurnalistə verdiyi qiymətdən gözüm yaşardı.

İndi "Hüquq və qanun" jurnalının baş redaktoru olan Fəxrəddin Ağamirzəyev dünyanın siyasət nəhəglərindən biri Heydər Əliyev 1990-cı ilin yayında Moskvadan Bakıya dönüb Naxçıvana gedəndən sonra ondan ilk müsahibə alıb çalışdığı Saatlı rayonunda çıxan "Dönüş" qəzetinin 3 nömrəsində çap etdirməyə nail olmuşdur. Buna görə o zaman, necə deyərlər, dərhal qələmi sındırılmış jurnalistin qeyrət və fədakarlığı da mətbuat tariximizdə Ulu öndərlə bağlı öyünclü səhifə təşkil edir.

**Qələm dostumuz bu barədə "Dönüşdən Qurtuluşa" adlı kitabında geniş bəhs etmişdir. Fəxrəddin Ağamirzəyev həmin tarixi müsahibənin ərsəyə gəlməsini 34 il sonra belə xatırladı:**

– 1990-cı ilin yayı idi. Azərbaycan KP Saatlı Rayon Komitəsinin orqanı olan "Dönüş" qəzetində zəhmətkeş məktubları və kütləvi iş şöbəsinin müdiri vəzifəsində çalışırdım (həmin vəzifə rayon partiya komitəsinin nomenklaturası idi). SSRİ Jurnalistlər İttifaqının üzvü idim. İyun ayında eşitdim ki, xalqımızın qüdrətli oğlu, yenilməz insan Heydər Əliyev Bakıya – Azərbaycana qayıdır.

Qısa müddətdən sonra öyrəndim ki, Heydər Əliyev Naxçıvana gedib. Sövqi-təbii olaraq ürəyimdə onunla görüşüb müsahibə almaq, tövsiyələrini taleyüklü günlər yaşayan Azərbaycanın nigaran, ümidsiz vəziyyətə düşmüş vətəndaşlarına çatdırmaq istəyi doğdu.

Bundan sonra məni nələrin gözlədiyinin fərqinə varmayaraq avqust ayının əvvəllərində Naxçıvana yollandım. O günlərdə hər yerdə Heydər Əliyevin söhbəti gedirdi. Bütün Naxçıvan əhalisi öz böyük oğlunu, dünya siyasətçisi zirvəsinə yüksəlmiş həmyerlisini sonsuz bir sevgi və ehtiramla qarşılamışdı.

Heydər Əliyevlə görüşmək üçün bir neçə gün çalışdım. Nəhayət, bacısı qızı Sənifə xanımın evində yerləşdiyini müəyyənləşdirib ünvanı, telefon nömrəsini öyrəndim. Yerləşdiyim "Təbriz" mehmanxanasında öz otağımdan telefonla zəng etdim, Heydər Əliyevlə danışmaq istədiyimi bildirdim. Dəstəkdə Heydər Əliyevin səsini eşidəndə bütün vücudum titrədi. Özümü təqdim edib məqsədimi bildirəndən sonra Heydər Əliyev görüşümüz üçün münasib vaxt müəyyənləşdirərkən telefon əlaqəsi kəsildi. Həmin vaxtdan otağımdakı telefon işləmədi. Əlacsız qalıb şəhərdəki telefon köşkündən Heydər Əliyevlə danışa bildim. Səhərisi günü tezdən o böyük insanın qaldığı ünvana getdim.

Görüşdük. Bu görüş mənim həyatımın ən ali hadisəsi oldu.

Bir anlıq gözlərimə inana bilmədim – bu, o nəhəng, adı, şöhrəti dünyaya yayılmış insandırmı? Belə bir ucalığa çatmaqmı olar? O əfsanəvi şəxsiyyətin illər boyu eşitdiyimiz tanış, şirin səsi, sanki məni yuxudan oyatdı: "Xoş gəlmisiniz, cavan oğlan. Saatlıda nə var, nə yox? " Bəli, bu, O idi. Bir Allah bilir o vaxtlarda yaşadığım xoşbəxtliyin dərəcəsini. Mən Heydər Əliyev zirvəsində onunla üz-üzə, nəfəs-nəfəsə idim. Sanki o vaxta qədər yaşadığım həyatın mənası bax bu görüşə yetişmək üçünmüş. O andan ömrümün Heydər Əliyev ucalığından başlanan yeni bir yolu açıldı. Bu görüşün ilk andan ruhuma, qəlbimə hopan nuru məni başqalaşdırdı, üzərimə ali bir missiya – millət atasına xidmət etmək yükü qoydu.

Heydər Əliyev müsahibəmizin bütünlüklə audio yazıya alınmasını istədi. Biz arxa otağa daxil olduq, çay süfrəsi hazırlanmışdı. Qızı Sevil xanım və nəvələri də orada idilər. Görüşümüzün əvvəlində fenomen yaddaşa malik Heydər Əliyev Saatlıda xeyli adam tanıdığını və familiyamın ona çox tanış gəldiyini bildirib kimlərdən olduğumu soruşdu. Mən də söylədim ki, Siz respublikaya rəhbərlik etdiyiniz dövrdə M.B.Qasımov adına kolxozun sədri işləyən Mansur Ağamirzəyevin oğluyam. Heydər Əliyev bir anlıq nələrisə xatırlayıb təsirlənərək yenidən əlimi sıxdı, saatlılılara salamlarını çatdırmağımı xahiş etdi.

Sonra o, mənim çoxsaylı suallarımı ətraflı cavablandırdı. Axırda müsahibəmiz yazılan kaseti özü mənə verdi. Üzərinə yaşadığı evin telefon nömrəsini də yazmışdı ki, lazım olarsa əlaqə saxlayım. (2004-cü ildə həmin audio kaseti Heydər Əliyev Fonduna təqdim etmişəm.)

İlk görüşümüzdən iki gün sonra yenidən zəng edib görüşə getdim. Müsahibənin iki sualının lent yazısında aydın eşidilməyən cavablarını yenidən köçürüb mənə verdilər. Heydər Əliyevlə bu görüşdən sonra mehmanxanadan çıxıb Şərur rayonuna getdim, orada gecələdim. Çünki artıq ciddi şəkildə izləndiyimi hiss edirdim. Mən Saatlıya qayıdandan az sonra Heydər Əliyevlə müsahibəm böyük tirajla dərc olundu. Və bu müsahibə "Dönüş" qəzetində son yazım oldu. Bir gün sonra on illik jurnalistlik fəaliyyətimə son qoyularaq "öz ərizəmlə" işdən azad edilməli oldum.

O vaxtlar Heydər Əliyev haqqında Kommunist Partiyasının orqanı olan mətbuatda, demək olar ki, heç nə yazmırdılar. Bəzi hallarda Heydər Əliyevdən Moskvanın mərkəzi mətbuatı yazırdı, o da qeyri-obyektiv və mütləq qərəzli olurdu. İlk vaxtlar Heydər Əliyevlə tez-tez telefon əlaqəsi saxlayırdım. Adətən, axşam saat 10-dan sonra danışırdıq. Çünki Heydər Əliyev özü belə istəyirdi. Lakin bir neçə telefon danışığımızdan sonra rayon ATS-indən Naxçıvanla əlaqə yaratmadılar.

Heydər Əliyevlə sonuncu görüşümüz 1991-ci ilin yay aylarında oldu. Artıq Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının deputatı seçilmişdi və Ali Məclisin sədri vəzifəsini daşıyırdı. Ali Məclisin iclası gedirdi. Fasilə zamanı vestibüldə görüşdük. Məni sevinc və sayğı ilə qarşılayıb hal-əhval tutdu. Bu vaxt yaxınlıqda olan AZƏRTAC-ın Naxçıvan müxbiri Namiq Əhmədovu da yanına çağırdı. Məni ona təqdim etdi. Namiq də öz növbəsində bildirdi ki, yoldaş Əliyev, biz tələbəlikdən yaxınıq, bir yerdə oxumuşuq".

1993-cü ilin yayında Bakya ölkə rəhbərliyinə dəvət edilənədək Ulu öndərlə bir neçə dəfə görüşmüşdüm. Hər görüşümüzdə işimlə, vəziyyətimlə maraqlanırdı. Mən də o böyük insan narahat olmasın deyə işlərimin qaydasında, vəziyyətimin yaxşı olduğunu deyirdim. Lakin sonuncu dəfə həqiqəti söylədim. Çünki artıq bu mübarizələrdə mətinləşmiş Heydər Əliyevin fiziki və mənəvi durumu qaydasında idi. Bildirdim ki, onunla müsahibəm "Dönüş" qəzetində son yazım oldu. Həmin müsahibə dərc edildikdən iki gün sonra "öz ərizəmlə" işdən çıxarıldım...

Sonuncu dəfə xalq yolunda usanmadan çalışan rəhbər məni gecə saat 01:00 radələrində qəbul etdi. Yorğun olmasına baxmayaraq mənimlə çox səmimi və mehribanlıqla görüşdü və dedi ki, özüm bilərəkdən səni işin axırında qəbul etməyi planlaşdırdım ki, günümü mənalı başa vurum. Nəvəmin ad günüdür. Özü də bu günün xatirəsi mənim üçün ikiqat əzizdur. Çünki bu nəvəmizə adı mərhum həyat yoldaşım verib.

**Azərbaycana ikinci rəhbərliyinin 10 ilində Prezident Heydər Əliyevin şəxsi fotoqrafı olmuş Rafiq Bağırov da Ulu öndərin informasiya və illüstrasiya materialları ilə dövrün salnaməsinin yaradılmasına necə böyük önəm verməsinin şahididir:**

– Heydər Əliyev dahilərin dahisi idi. Mən xoşbəxt insanam ki, nə az, nə çox, düz 10 il, 1993–2003-cü illərdə o böyük insanın fotoqrafı olmuşam. 1993-cü ildə Azərbaycan Dövlət Televiziyasında kino lentlərinin aşkarlanması sexinin rəhbəri vəzifəsində işləyirdim. Həmin vaxt şəxsi maaşımdan hər ay qənaət edib özümə o dövr üçün ən müasir sayılan fotoaparat kolleksiyası toplamışdım. Həm də rəngli fotolar çəkən ilk fotoqraf idim. Bir gün mənə Ali Sovetdən dəvət gəldi. Heydər Əliyev həmin vaxt Ali Sovetin Sədri, həm də prezidentliyə namizəd idi. Mənə onun seçki kampaniyası üçün portretlərin çəkilməsi işi həvalə edildi.

Düzü, mən əvvəl tərəddüd etdim, özümü hec cür Heydər Əliyev kimi böyük rəhbərlə işləməyə layiq bilmirdim. Bu, böyük məsuliyyət idi. Nəhayət, razılaşmalı oldum. Heydər Əliyevin namizədlik kampaniyasında təbliğat-təşviqat, reklam xarakterli bütün portretləri mən hazırladım. Portretlərə baxan Heydər Əliyev məni yanına çağırdı. Əl işlərimi bəyənmişdi. Mənə bir cümlə ilə dedi: "Mənimlə işləyəcəksən".

İlk dəfə işə götürülən zaman məni çağırdı və öz iradlarını bildirdi ki, bax, mən belə istəyirəm. Mən də onun xasiyyətinə uyğun çəkirdim. Bir dəfə belə bir hadisə oldu: 2 ildən artıq olardı ki, işləyirdim. Məni çağırdı ki, bu qədər işləyirsən, ancaq mən fərli bir şəkil görməmişəm səndə. Dedim, cənab Prezident, fərli şəkil deyəndə nəyi nəzərdə tutursunuz? Fotoları yığmışdı önünə, birini göstərdi ki, bax, bunu iranlılar çəkib. Dedim, cənab Prezident onu mən çəkmişəm, icazə verin gedim neqativini götürüm gəlim. İkisini, dördünü, beşini... Ancaq hamısı mənim çəkdiklərim idi. Dedi ki, yoox, işləyirsən...

Ulu öndər prezident seçiləndən sonra Azərbaycan Prezidenti Aparatı Mətbuat xidmətinin baş məsləhətçisi vəzifəsinə təyin olundum. Yəni Prezidentin şəxsi fotoqrafı oldum. Onunla getdiyim, fotolentə köçürdüyüm bütün görüşlər mənim üçün yaddaqalan, unudulmazdır. Heç bir səfərimizdən ayrıca danışa bilmərəm, çünki bütün görüşlər fərqli və orijinal idi.

Rəhmətlik Heydər Əliyev mənə icazə vermişdi, çəkilişlər zamanı geyimində, hərəkətlərində hər hansı nöqsan olsa, özünə deməyi tapşırmışdı. Amma, inanın, bu 10 ildə çəkilişlər zamanı buna ehtiyac olmadı. O evdən elə səliqəli çıxardı ki, geyimində, üst-başında heç bir çatışmazlıq, nöqsan olmazdı.

Ulu öndərin xarici ölkələrə səfərləri zamanı dünyanın ən böyük liderlərinin otağında olmuşam, bu, hər adama nəsib olmur. Onun nüfuzuna görə Məkkədə Kəbənin içinə daxil olmuşam. Hər adama açılmır o qapılar. Heydər Əliyev kimi şəxsiyyət üçün açdılar və onun hesabına biz də gördük. Nəinki o, hətta Ağ Ev, Yaponiyanın İmperator Sarayı... Mən şəxsi fotoqraf olduğum üçün ən möhtəşəm yerlərə tək girirdim. Bu məsuliyyət çox böyük idi. Çəkdiyin kadr alınmasa, ya da itsə? Çox həyəcan keçirirdim. Amma şükür ki, elə bir şey olmadı, üzü ağ çıxdım.

2003-cü ildə Heydər Əliyevi Türkiyədən ABŞ-a yola saldıq, həmin gün təyyarəyə minəndə son fotosunu çəkmişdim. Ulu öndərin dünyasını dəyişməsi xəbərini Prezident İlham Əliyevlə İsveçrədən qayıdanda təyyarədə eşitdik. Təbii ki, çox sarsıldım. Ən əziz adamını itirən insan necə olur, o vaxt mən də elə oldum.

2006-cı ildə mənə 10 il ərzində Heydər Əliyevin fotolentə aldığım bütün şəkil və portretlərinin rəqamsal sistemə salınması işi tapşırıldı. Bu işi çox yüksək səviyyədə həyata keçirdim, Prezidentin mətbuat xidmətində bu və digər texniki işləri aparmaqla 2016-cı ilədək işlədim və təqaüdə çıxdım.

***Hazırladı: Tahir AYDINOĞLU***
***XQ***

Konfrans

# "Sıfıra doğru" şüarı ilə "yaşıl" gələcəyə



**Bakıda Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutu və "Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Sıfıra doğru şüarı ilə Sənaye Təhlükəsizliyi Zirvəsi" adlı konfrans keçirilib. Tədbirdə respublikamızda sənaye təhlükəsizliyinin mövcud vəziyyəti təhlil edilərək sahənin inkişaf perspektivləri müəyyənləşdirilib.**

Özəl və dövlət müəssisələri nümayəndələrinin iştirak etdikləri konfransda sənaye təhlükəsizliyi, ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyi, həmçinin iş yerlərində təhlükəsizlik mövzularında qlobal yeniliklər, innovativ həllər, habelə qabaqcıl təcrübələr müzakirə edilərək fikir mübadiləsi aparılıb.

Tədbirin "Sinerjidən enerjiyə" mövzusundakı birinci panelində innovasiyaları davamlı, karbonsuz gələcəyə aparan əməkdaşlıq yaratmaq üçün hökumət, biznes və akademik dairələrin birgə təşəbbüsü ilə alternativ enerji mənbələrinə keçidi sürətləndirmək, sənaye təhlükəsizliyini artırmaq yolları müzakirə edilib. Konfransın ikinci panelində isə müxtəlif sənaye liderlərinin karbonsuzlaşdırma sahəsindəki yeniliklər barədə məlumatları dinlənilib, açıq ünsiyyət və psixoloji təhlükəsizliyin sənaye innovasiyalarının və əməkdaşlığın gücləndirilməsindəki rolu vurğulanıb.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev konfransda çıxış edərək Azərbaycanda "yaşıl" enerjinin saxlanc sistemləri üzrə həcmlərinin 6 dəfə artırılması təşəbbüsünü irəli sürüb və sənayenin hər bir ölkənin və cəmiyyətin inkişafının başlıca amillərindən biri olduğunu diqqətə çatdırıb.

C.Abdullayev ölkəmizdə bərpa olunan enerji mənbələrinin inkişafı sahəsində bir sıra tədbirlər həyata keçirildiyini, rəhbərlik etdiyi agentliyin hazırda öhdəsində olan 3 əsas layihədən birincisinin 2027-ci ilin sonuna qədər başa çatdırılmasının qarşıya mühüm vəzifə kimi qoyulduğunu , ikincisinin isə 2027-ci ilin sonuna qədər, təxminən, 2 giqavata yaxın bərpa olunan enerji mənbələrinin şəbəkəyə qoşulmasının nəzərdə tutulduğunu bildirib.

"Masdar" şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Murad Sadıxov isə konfransda Prezident İlham Əliyevin çağırışına əsaslanılaraq 2018-ci ildən etibarən bu sahədə genişmiqyaslı layihələrin icrasına başlanıldığını, respublikamızda "yaşıl" enerji sahəsində fəaliyyət göstərən şirkətlərin sayının getdikcə artdığını, bütün bunların nəticəsində böyükhəcmli enerji istehsalının müşahidə edildiyini diqqətə çatdırıb.

Azərbaycanın enerji potensialının çox yüksək olduğunu vurğulayan M.Sadıxov qeyd edib ki, 2021-ci ildə ilk pilot layihə çərçivəsində tikintisinə başlanan 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyası 2023-cü il oktyabrın 26-dan etibarən fəaliyyətə başlayıb. Artıq indiyədək şəbəkəyə 500 milyon kilovat-saatdan artıq təmiz enerji ötürülüb. Bu enerji istehsalı nəticəsində 130 milyon kubmetrdən artıq qazın istifadəsinə qənaət edilib. Eyni zamanda, 200 min tondan artıq karbon emissiyasının qarşısı alınıb. Qaradağ Günəş Elektrik Stansiyası dövlət təminatı olmadan xarici investisiya hesabına icra edilən ilk layihədir ki, bu da Azərbaycanın investisiya cəlbediciliyini artıran mühüm nailiyyətlərdən biri kimi qeydə alınıb.

"Masdar" rəsmisi diqqətə çatdırıb ki, 2022-ci ildə bərpa olunan enerji sahəsində daha iki böyük saziş təsdiqlənib: "Quruda 1 giqavat gücündə günəş və 1 giqavat gücündə külək, dənizdə isə ilkin olaraq 2 giqavat, növbəti mərhələdə 4 giqavat gücündə külək enerjisi və hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı icra müqavilələri imzalanıb. Bu məqsədlə COP29 çərçivəsində Energetika Nazirliyi və "AzərEnerji" ASC arasında müvafiq müqavilələr də təsdiqlənib. Artıq 760 meqavat gücündə 2 günəş elektrik stansiyası –Biləsuvarda 445 meqavat və Neftçalada 315 meqavat gücündəki elektrik stansiyalarının tikintisinə başlanılıb və 2026-cı ilin ilk rübündə istifadəyə verilməsi planlaşdırılıb".

Respublikamızda təmiz enerji mənbələrindən səmərəli istifadə edilməsi və ölkəmizin regionda "yaşıl" enerji mərkəzinə çevrilməsi istiqamətində gerçəkləşdirilən bu layihələr Azərbaycan hökumətinin bərpa olunan enerji sektorunun inkişafına verdiyi önəmin göstəricisidir. Dövlət bu sahənin genişlənməsi üçün həm hüquqi bazanı təkmilləşdirir, həm də investisiyaların cəlbini təşviq edir.

## Masallı Sənaye Məhəlləsində istehsal 15 faiz çoxalıb

**İqtisadiyyat Nazirliyindən verilən məlumata əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki Masallı Sənaye Məhəlləsində cari ilin yanvar-sentyabr aylarında 2,2 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə, təxminən, 15 faiz çox) dəyərində məhsul istehsal edilib. Bununla da indiyə qədər sənaye məhəlləsində məhsul istehsalının ümumi dəyəri 14,2 milyon manata yüksəlib.**

Hazırda sözügedən sənaye məhəlləsində investisiya kapitalı 6,2 milyon manat olan 8 sahibkarlıq subyektinin rezidentliyi var. Onlar indiyə qədər adıçəkilən istehsalat sahəsinə 2,1 milyon manat investisiya yatırıb, 70 iş yeri yaradıb. Növbəti mərhələdə əlavə 4,1 milyon manat investisiya yatırılması, daha 159 iş yeri yaradılması nəzərdə tutulub.




## Salyanda 6,5 min hektar payızlıq əkini aparılıb

**Hazırda ölkənin bütün regionlarında payızlıq əkini aparılır. Salyan rayonunda da gələn ilin məhsulu üçün sahələrdə əkin işləri davam etdirilir. Mövsümün əvvəlindən indiyədək rayonda 6,5 min hektardan çox payızlıq bitkilər əkilib.**



Dekabrın 1-nə kimi Salyanda 15 min 904 hektar sahədə şum aparılıb, 6 min 576,7 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilib. Payızlıq səpinlərin 75 hektarını xəsil, 2 min 446,7 hektarını dən üçün buğda, 4 min 055 hektarını isə dən üçün arpa təşkil edir.

Qeyd edək ki, hazırda gələn ilin məhsulu üçün payızlıq bitkilərin səpini davam edir.

## Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 14 faiz artıb

**Cari ilin yanvar-noyabr ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 14 milyard 993 milyon manata yaxın vergi daxil olub, proqnoza 104,1 faiz əməl edilib.**

Dövlət Vergi Xidmətindən bildirilib ki, ödənilən vergilərin 68,6 faizi qeyri-neft-qaz sektorunun, 31,4 faizi isə neft-qaz sektorunun payına düşüb.

Hesabat dövründə qeyri-neft-qaz sektorundan daxilolmalar 10 milyard 286 milyon manatdan artıq olub, dövlət büdcəsinə proqnozdan əlavə 292 milyon manatdan çox vəsait ödənilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 14,1 faiz artıb.




## Astara terminalı yükaşırmanı 4 milyon tona çatdıracaq

**2025-ci ildə Şimal – Cənub ilə yanaşı, Cənub – Şimal istiqamətində də yük daşımaları planlaşdırılıb. Bu barədə jurnalistlərə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Rüstəmov məlumat verib.**

Onun sözlərinə görə, "Azərbaycan Dəmir Yolları"nın nümayəndələri "Şimal – Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə bağlı Rusiya və İran dəmir yolu idarələri ilə görüşlərdə müntəzəm iştirak edir. Gələn həftə İran dəmir yollarının rəhbəri ilə görüşün planlaşdırıldığını bildirən R. Rüstəm deyib ki, ötən ay qəbul edilmiş fəaliyyət planına uyğun olaraq gələn il Astara terminalının inşası tam yekunlaşdırılacaq. Bu da Azərbaycanın dəmir yolları ilə yükaşırma qabiliyyətinin 4 milyon tona çatdırılmasına imkan yaradacaq.



Qeyd edək ki, 5,5 hektar ərazidə yerləşən terminalda gömrük məntəqəsi yaradılıb. Yeri gəlmişkən, Astara terminalının istifadəyə verilməsi Pakistanla Azərbaycan və Rusiya arasında ticarət əlaqələrinin inkişafına da imkan yaradacaq.

## Son 5 ildə 6 yeni gəmi

**2018-2023-cü illərdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində (ASCO) 2 Ro-Pax və 4 tanker olmaqla, ümumilikdə, 6 yeni gəmi istismara qəbul edilib. Bu barədə məlumat ASCO-nun 5 illik fəaliyyətinə dair hesabatında yer alıb.**



Sənəddə bildirilib ki, yeni, eləcə də yaxın illərdə istifadəyə verilməsi planlaşdırılan gəmilər ümumi donanmanın dedveytini, demək olar ki, iki dəfə artırıb. Qeyd edək ki, ikinci əl gəmilərlə yanaşı, ASCO yeni tikinti layihələrinə də sərmayə qoyub.

2022-2024-cü illərdə 1 Ro-Pax, 3 kimyəvi tanker, eyni sayda sürətli sərnişin gəmisi, 4 dalğıc gəmisi və 2 quru yük gəmisi daxil olmaqla 13 yeni su nəqliyyatının inşası üçün sifariş verilib. Bütün bu layihələr enerji səmərəliliyi və ətraf mühitə minimal təsir nəzərə alınmaqla dizayn edilib. Sözügedən gəmilərin isə yaxın 2-3 il ərzində təhvil verilməsi gözlənilir.

# Milli sənayemizin artım dinamikası davam edir

(əvvəli 1-ci səhifədə)



Yanvar-noyabr aylarında sənaye məhsulunun 29,8 faizi emal sektorunda istehsal olunub. Sözügedən sektorda ən yüksək artım isə əczaçılıq məhsullarının istehsalında qeydə alınıb. Belə ki, ölkədə yeni dərman və tibbi ləvazimatların istehsalı ilə məşğul olan müəssisələrin istifadəyə verilməsi nəticəsində ilin ötən dövründə bu sahədə 2 dəfə artım baş verib. Hesabat dövründə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 56,6 faiz, mebel istehsalı 40,5 faiz, hazır metal məmulatlarının istehsalı 35,7 faiz, elektrik avadanlıqlarının istehsalı 29,6 faiz, geyim istehsalı 28,6 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 23,3 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 21,7 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı isə 17,7 faiz artıb. Bununla yanaşı, sənayenin içkilərin, qida məhsullarının və tütün məmulatlarının, eləcə də tikinti materiallarının, dəri və dəri məmulatlarının, ayaqqabıların, kağız və kartonun, kompüter, elektron və optik məhsulların, kimya sənayesi mallarının və sair sənaye məhsullarının istehsalında da artım baş verib.

Bu ilin 11 ayında emal sənayesinin digər sahələrində – maşın və avadanlıqların quraşdırılması və təmiri işlərində, neft məhsullarının, toxuculuq sənayesi, poliqrafiya mallarının, maşın və avadanlıqların, eləcə də sair nəqliyyat vasitələrinin istehsalında isə əksinə, azalma qeydə alınıb.

Yanvar-noyabr aylarında sənaye məhsulunun və sənaye xarakterli xidmətlərin 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarının payına düşüb. Hesabat dövründə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 0,9 faiz azalsa da, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 7,5 faiz artıb.

Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə qeyri-neft sənayesinin inkişaf etdirilməsi, eləcə də bu sahədə ixrac potensialının artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu da ölkəmizdə qeyri-neft sənayesində mühüm növ malların istehsalının və ixracının getdikcə artmasına səbəb olur. Yeri gəlmişkən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın yazığına görə, 2024-cü ilin yanvar-noyabr ayları ərzində Azərbaycanın qeyri-neft ixracı 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 3,1 milyard ABŞ dollar təşkil edib. Hesabat dövründə yeyinti məhsulları 12,3 faiz artaraq 923 milyon ABŞ dollarına bərabər olub.

Cari ilin 11 ayı ərzində şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 65,4 faiz (37,5 milyon dollar), pambıq lifi 52,6 faiz (170 milyon dollar), bitki mənşəli yağlar və piylər 32 faiz (25,5 milyon dollar), qiymətli metallar 29 faiz (189,8 milyon dollar), kimya sənayesi məhsulları 19,6 faiz (265,6 milyon dollar), alüminium və ondan hazırlanan məmulatlar isə 1,5 faiz (182,7 milyon dollar) artıb. Hesabat dövründə aqrar məhsullar 4,4 faiz (701,7 milyon dollar), aqrar-sənaye məhsulları 58,3 faiz (287,3 milyon dollar) çoxalıb. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 15,9 faiz artaraq 988,9 milyon dolları təşkil edib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Ruandada

## *Leyla Əliyeva qurumun layihələrinin açılış və təqdimatında iştirak edib*





**Heydər Əliyev Fondu əksər Afrika ölkələri üçün bir nömrəli problem olan içməli su ilə təchizat məsələsinə öz töhfəsini verib. Belə ki, Fondun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi çərçivəsində Ruandanın şərq əyalətinin administrativ mərkəzi Rvamaqana şəhər məktəbi içməli su ilə təchiz edilib.**

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ruandaya səfəri zamanı Rvamaqana şəhər məktəbində olub.

Qeyd olunub ki, məktəb binasının yerləşdiyi ərazidə Heydər Əliyev Fondunun dəstəyi ilə su quyusu qazılaraq saatda 3 tona yaxın içməli suyun verilməsi təmin edilib. Bundan əvvəl sakinlər tələbatlarını təmin etmək üçün yağış suyundan asılı vəziyyətdə olublar.

Məktəblə tanışlıq zamanı şagirdlər Azərbaycan haqqında daha geniş məlumat əldə edib, ölkəmizin ənənəvi təamlarından dadıblar.





**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ruandanın paytaxtı Kiqali şəhərində bu ölkənin xarici işlər üzrə daimi katibi Klementine Mukeka ilə görüşüb.**

Görüşdə Heydər Əliyev Fondunun "Afrika ölkələrində təhsil və mədəniyyətin inkişafı" layihəsi üzrə həyata keçiriləcək tədbirlər, ikitərəfli əməkdaşlıq müzakirə edilib. Vurğulanıb ki, Heydər Əliyev Fondu ilə Afrika ölkələri arasında gələcək faydalı əməkdaşlıq münasibətlərin inkişafına öz töhfəsini verəcək.

Leyla Əliyeva, həmçinin Ruandanın gənclər və incəsənət naziri Sandrine Umutoni ilə görüşüb. Azərbaycan ilə Ruanda arasında mədəni əlaqələrə dair, təhsil sahəsində, eləcə də gənclərin mübadilə proqramı çərçivəsində müzakirələr aparılıb, bu istiqamətdəki layihələrin xalqlar arasında münasibətlərə müsbət təsiri qeyd edilib. Müxtəlif mövzulara dair sərgilərin təşkili kimi tədbirlərin xalqlarımızın bir-birini daha yaxından tanımalarına imkan yaradacağı bildirilib.

***XQ***

---

**İzimiz, tariximiz...**

# Qaraxoca (Koço) Uyğur Dövləti

### II məqalə

Yüz ilə yaxın bir dövrdə yaşayan Uyğur Xaqanlığı süqut etdikdən sonra uyğurların bir hissəsi 843-cü ildə Türküstanın Turfan bölgəsində Göytürk Xaqanlığının və Uyğur Xaqanlığının varisləri Qaraxoca (Koço) Uyğur Dövləti yaradıblar. Beş yüz ildən artıq – XIII əsrədək hökm sürən bu dövlətin qurucusu Pan Təkin, paytaxtları Beşbalıq, Qaraxoca (Koço), Turfan, dini manilik, buddizm, İslam, xristianlıq, dili qədim uyğur dili olub. Dövlətin böyük şəhərləri Kuçar, Qaraşar, Komul, Canbalıq, Piçan, Çiktin, Soim, Konsir, Limçin, Sinin, Nijun, Yumşi, Napçik, Tiyok, Lukçun, Tiksin, Yar və sairdir. Ümumiyyətlə, Koço Uyğur Dövlətinin 22 böyük şəhəri olub. Hətta bu məmləkəti 22 şəhərli Koço Dövləti də adlandırıblar.

Dövlətin başçısı "müqəddəs səadət" mənasını verən idikut titulu götürən xaqan olub. O, dövlətin bütün siyasi, hərbi, iqtisadi və hüquqi işlərini idarə edib.

İdikutun müharibə elan etmək, rüsum və vergilərin miqdarını müəyyənləşdirmək, şəxsləri müvafiq vəzifələrə təyin etmək, torpaqla bağlı şikayətlərə baxmaq, hökmlər vermək: ölüm cəzası və ya əfv, xarici ölkələrlə əlaqə yaratmaq və s. səlahiyyətləri var idi.

İdikutdan sonra xaqanın Xatın adlanan xanımı və Tegin qəbul edilən oğlanları gəlib. Xatın və teginlərin kiçik dövlət rəhbərləri, məhəllə və şəhər hökmdarları, katiblər, səfirlər, qoşun komandanları və xəzinədarlar kimi kiçik dövlət vəzifələrini müəyyənləşdirmək səlahiyyətləri olub. Xatınların və teginlərin ayrı-ayrılıqda torpaqları, otlaqları, mal-qarası var idi. Onlar öz varidatlarını istədikləri şəxsə miras vermək hüququna malik idilər.

Üçüncü yerdə doqquz vəzir, sonra vilayət hakimləri gəlib.

Dövlətin ərazisinə Qumul bölgəsi və Çinin Şimal-Qərbindəki Dunxuan ərazisinin bir hissəsi də daxil edilmişdi. Dövlət 857-ci ildə Çinin nüfuzlu Tan sülaləsi tərəfindən tanınıb, hətta bu ölkəyə Vanq Yen De adlı səfir göndərilib.

Uyğurlar ərazilərini genişləndirmək üçün müharibələr aparmayıb, ölkələrində sülhü və əmin-amanlığı qorumaq, başqa xalqların işlərinə qarışmamaq siyasəti yeridiblər. Bununla belə hücum edən qonşu dövlətlərlə də vuruşmağı bacarıblar.

Məlum olduğu kimi, uyğurların bir hissəsi buddizmə sitayiş edib. Buddist uyğurlar müsəlman qonşuları, xüsusən də Qaraxanlılar dövləti ilə münaqişədə olublar. Qaraxanlıların hökmdarı Satuk Boqra xan Koçonun buddist məbədlərini dağıtdıqdan sonra bu münaqişə daha da güclənib.

Qaraxanlılar tərəfindən Tarim hövzəsinin islamlaşdırılması zamanı uyğur buddistlərinə və Xotan buddist dövlətinə qarşı döyüşlərdə həlak olmuş imamlar və döyüşçülər müqəddəs sayılıb.

1207-ci ildə uyğurlar Monqol imperiyasının, daha sonra isə Çağatay ulusunun vassalı olub. 1209-cu ildə Qara Xoca hökmdarı Baurçuk Art Təkin Çingiz xanın dövründə monqollara tabe olduğunu bəyan edib və 1335-ci ilə qədər vassal dövlət kimi yaşayıb. Monqollar uyğurlara Çindən Avropaya qədər fəth edilmiş geniş ərazilərdə hökumət işlərində iştirak etməyə icazə verib. Monqollar Koço dövlətinin inkişaf




etmiş idarəçilik sistemini də qəbul ediblər.

### Mədəniyyət və ədəbiyyat

X əsrin sonlarında təkcə Koço şəhərində 50 buddist məbədi var idi və orada olan buddist kitabları (nomalar) qorunub. Koço, Kuçar və Qaşqar musiqi sənətinin nadir şah əsərlərini – 12 uyğur muğamının formalaşması və inkişafı üçün güclü zəmin yaradıb. Uyğur musiqisinin Çin incəsənətinə böyük təsiri də danılmazdır.

Qədim uyğur yazısı 22 hərfdən ibarət olan soqd əlifbasına əsaslanıb. Bu əlifba sağdan sola və yuxarıdan aşağıya yazılıb və oxunub. Bu uyğur yazısı sonralar monqollar tərəfindən qəbul edilib və onu monqol yazısına uyğunlaşdırıblar. Şaquli uyğur yazısı həm də o dövrdə Avrasiyada geniş istifadə olunan yazıya çevrilib. İran tarixçisi Ata Məlik Cuvainiyə (XIV əsr) görə, monqol xalqları uyğur yazısını və dilini öyrənməyi öz mədəniyyətlərinin zirvəsi kimi qəbul ediblər. Uyğur yazısı ilə çoxsaylı ədəbi əsərlər – şeirlər, mahnılar, atalar sözləri, nağıllar, məsəllər, dini əfsanələr, dramlar yaradılıb.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Qərb arxeoloqları Turfan vadisində çox sayda yazılı abidənin fraqmentlərini aşkar ediblər. Bu abidələrin 4000-dən çoxu Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Sankt-Peterburq filialında və Dövlət Ermitajındakı əlyazmalar fondunda saxlanılır.

Almaniyanın muzeylərində təxminən 8000 fraqment var. Əsərlərin bir qismi Paris, London, Urumçi, Pekin, İstanbul və Tokio muzeylərində qorunur.

Koço dövlətində ədəbiyyat-poeziya və nəsr böyük inkişaf yolu keçib. Uyğur şairlərindən Apirinçur Tegin, Kiki, Prithya Yaşri, Çisuya Tutunq, Kalim Kayşi və s. şeirləri bu günədək qorunub saxlanır.

Uyğur Şinko Şeli Tutunq o dövrün ən məşhur yazıçısı və tərcüməçisi olub. O, "Buddist adları" və "Altun Yaruq" (Qızıl parıltı) və digər əsərləri uyğur dilinə tərcümə edib.

500 il oturaq həyat sürən dövlətdə manilik, buddizm, İslam, xristianlıq, Çin, tohar və qədim türk mədəniyyətlərinin qaynayıb-qarışması nəticəsində bu məkanda böyük mədəniyyət, incəsənət və ədəbiyyat yaranıb. Əsrlərlə Çin tacirləri və qonşu dövlətlərdən olan qaçqınlar Koço Uyğur Dövlətinə pənah gətirib, buranı özlərinə vətən seçiblər. Belə ki, Çin, Soqd, Türküstan və Hindistandan gələn tacirlər bu dövlətin inkişafında mühüm rol oynayıblar. Qədim mağaraların divar yaddaşına çəkilən təsvirlərdə yerli türk və toharlarla bərabər, Çin, Soqd, Türküstan və Hindistandan olan insanlar da təsvir olunub.




### Dövlətin iqtisadiyyatı

Koço Uyğur Dövləti Çindən Avropaya uzanan ticarət yolunun mərkəzi hissəsinə 500 ildən artıq nəzarət edib. Uyğurlar Çin və Hind–Avropa mədəniyyətləri arasında çoxşaxəli münasibətlərdə vasitəçilik rolunu oynayıblar. Koço Uyğur Dövlətində ipəkçilik və pambıqçılığın inkişafına xüsusi diqqət yetirilib. Əhalinin böyük bir hissəsi isə üzümçülük, meyvəçilik, taxılçılıqla məşğul olub. Yaxın və uzaq dövlətlərə ipək və pambıq satışından xeyli gəlir əldə olunub. Tarlalarda beş növ taxıl, (digər dənli bitkilər, düyü, darı) becərilib. Bir yanda labnor gölü, Konçi çayı, o biri yandan Tanrı dağlarının havası əhaliyə kənd təsərrüfatı, o cümlədən meyvəçiliyi inkişaf etdirmək üçün hər cür şərait yaradıb. Sahələrdə hər cür meyvələr yetişdirilib və qonşu ölkələrə satılıb.

### Koço Uyğur Dövlətinin zəifləməsi və süqutu

Koço və Turfan buddist uyğurları müsəlman hökmdarı Xızr Xoca tərəfindən Qəzavat (müqəddəs müharibə) zamanı İslamı qəbul ediblər. Bezeklikdəki "Min Buddanın Mağarası" adlı buddist freskaları yerli müsəlman əhalisi tərəfindən hücumlara məruz qalıb.

Buddist uyğurların müsəlman türklər tərəfindən hücuma məruz qalması Mahmud Kaşqarinin əsərlərində təsvir edilib. Kaşqarinin əsərlərində uyğur buddistləri ilə Qaraxanlı müsəlmanları arasındakı döyüşü təsvir edən poetik misralar var. Onu da deyək ki, məşhur "Kutatqu bilik" əsəri bu dövlətdə yazılıb.

Beləliklə, 525 il yaşayan Koço Uyğur



Dövləti 1368-ci ildə monqollar tərəfindən dağıdılıb.

Koço Uyğur Dövlətinin hökmdarlarının tam olmayan siyahısını belə səciyyələndirmək olar:

- Pan Təkin (843–866)
- Boko Təkin (866–871/876)
- İduk Tenqri Xaqan (təxminən 933)
- Alp Kutluq Uluq Bilgə Uyğur Tenqri Uyğur Xan (...933)
- Al Bilgə Tenqri (təxminən 954)
- Boquluk Uluq (X əsrin II yarısı)
- Arslan Bilgə Tenqri Sunuluq xaqan (təxminən 981–984)
- Büge Bilgə Tenqri (996–1003)
- Kül Bilgə Tenqri (1007–1024)
- Alp Arslan Kutluq Kul Bilgə Tenqri Xan (1017–1031)
- Alp Kutluq Uluq Bilgə Uyğur Tenqri Uyğur Xan (XI əsrin birinci yarısı)
- Tengri Bugə Al Bilgə Arslan Tenqri Uyğur Tarkan (təxminən 1067)
- Ay Tenqri Kut Bolmış Külyuq Kül Bilgə Tenqri Xaqan
- Arslan Bilgə Xan (XI əsrin sonu, XII əsrin əvvəli)
- Karı Bilgə Xaqan (1127–1130)
- Asan Timur
- Bilgə Təkin (1126–?)
- Baurçuk Art Təkin (1208-1235)
- Kusmayin (1235–1245)
- Salun Təkin (1246–1255)
- Oğrunc Təkin (1255–1265)
- Mamurak Tekin (1265–1266)
- Qoşgar Təkin (1266–1276)
- Nolen Təkin (1276–1318)
- Tomur Buka (1318–1327)
- Sunggi Təkin (1327–1331)
- Taipan Təkin (1331–1335)
- Yuelu Tomur (1335–1353)
- Sanqqe (1353–?)

### Qansu Uyğur Dövləti

Uyğur Xaqanlığının süqutundan sonra uyğurların digər hissəsi isə Çinin şimal-qərbindəki Qansu vilayətinə köç edib və burada yaşayan sarı uyğurlarla birgə 848-ci (yeni təqvimlə 890) ildə Qansu Uyğur Dövlətini qurub.

Dövlətin yaradıcısı Yağlakar sülaləsinin nümayəndəsi Hörmüzd xaqan, çincə taxt adı Xuaycian xaqan paytaxtı Çanqye olmaqla bu dövlətin yaradıldığını elan edib.

Dövlətin paytaxtı Qansu şəhəri, dili qədim uyğur dili, dini buddizm, manilik olub.

Qansu Uyğur Dövlətinə Qansu şəhərindən əlavə Dunxuan, Çjanye, Uvey, Ansi, Szyuan, Lançjou və İrsin (müasir adı Nensiya) şəhərləri və ətraf rayonlar daxil idi.

Hörmüzd xaqan 924-cü ilədək hakimiyyətdə olub.

Hörmüzd xaqandan sonra onun oğlu, çincə adı Ren Mey, hakimiyyət adı əvvəl Yinqyi xaqan, sonra isə Çiçəklənən dürüst



xaqan 924-cü ildə qısa müddətdə taxtda oturub.

Hörmüzd xaqanın digər oğlu Ren Yü qardaşı Yinqyi xaqanı devirərək əvvəl Şunhua xaqan, sonra İtaətkar xaqan, ondan sonra Fenqhua xaqan, daha sonra isə Xidmətkar xaqan adı ilə 924-cü ildən 959-cu ilədək hakimiyyətdə olub. O əvvəl Tan, sonra isə Cin sülaləsinə tabe olub.

Qansu Uyğur Dövlətinin xaqanlarının bir neçəsinin adı mənbələrdə var.

Çincə adı Cin Kian xaqan 959–975-ci illərdə hakimiyyətdə olub.

Uyğurca əsl adı Bilgə olan xaqan 976–983/998...

Lu Şenq (Çincə adı) xaqan 983/998–1003...

Çincə taxt adı Zonqşun Baode xaqan 1003–1016...

Öz adı Külüg, Çincə taxt adı Xuayninq olan Şunxua xaqan, 1016–1023...

Öz adı Toğan, hakimiyyət adı Quiçonq olan Baoşun xaqan, 1023–1028...

Öz adı Yasu, hakimiyyət adı Baoquo xaqan olan Qansu Uyğur Dövlətinin sonuncu xaqanı 1028–1032-cu illərdə taxtda oturub, Si Sya dövləti tərəfindən işğal olunub, bir əsr yarımdan çox yaşayan bu dövlət 1036-cı ildə süqut edib.

Qansu Uyğur Dövləti 940-cı ildə əvvəl Şimali Çinə hakim olan kitanların, sonra tanqutların, daha sonra isə Çingiz xanın (1226) hakimiyyəti altında yaşayıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***
**Daşkənd**

Ölməzliyə qovuşanlar

# "Həyəcan təbili" ilə "yaşıl" hərəkat yaratmış alim

**Dünya şöhrətli təbiətşünas alim, unudulmaz ziyalı, akademik Həsən Əliyevin anadan olduğu gün həmişə ölkəmizdə ehtiramla qeyd olunur. Azərbaycan təbiətinin patriarxı kimi özündən sonra xalqına zəngin elmi-ekoloji irs qoymuş, ölkəmizdə "Həyəcan təbili" çalaraq milli "yaşıl" hərəkat yaratmış yurdsevər alimin nurlu xatirəsini çoxsaylı yetirmələri və davamçıları daim sevgi-sayğı ilə yad edirlər.**



Akademik Həsən Əliyevin ideya və əməlləri ölkəmizdə keçirilən "yaşıl" həmrəylik ilində və yenicə başa catmış COP29 çərçivəsində təşkil edilən müzakirələrdə aktuallığı ilə diqqət mərkəzində oldu, alimə dönə-dönə minnətdarlıq və rəhmət qazandırdı. Qeyd edildi ki, mübariz təbiətşünas uzun illər boyu nəinki füsunkar və dünyada bənzəri olmayan Azərbaycan təbiətinin mühafizəsinə xüsusi önəm verirdi, o həm də təbii sərvətlərin qorunub gələcək nəsillərə bütün incəlikləri ilə çatdırılmasına ümumbəşəri əhəmiyyətli iş kimi baxırdı. Həsən Əliyev həm öz kəsərli publisistik sözü və elmi, həm də əməli işi ilə qlobal anlamda təbiətə xidmət edirdi.

Alim təbiətin qənimləri ilə vuruşur, həyəcan təbili çalırdı. Onun "Həyəcan təbili" adlı kitabı da bu baxımdan təbiətşünaslığa ən dəyərli elmi töhfədir. Bu kitab bütün dünyanı təbiətin qorunmasında, mühafizəsində, bir sözlə, ekoloji tarazlığın saxlanmasında səyləri birləşdirməyə güclü çağırış kimi səslənir. Aradan illər keçib, zaman dəyişib, lakin kitabın elmi dəyəri, kəsəri ildən-ilə öz tərafətini saxlayır.

Dünya şöhrətli alim parlaq bir həyat yaşayıb, xalqa, vətənə göstərdiyi misilsiz xidmətləri ilə əvəzsiz örnəyə, məktəbə çevrilib. Onun keçdiyi həyat yolu da fikirlərimizi bir daha təsdiqləyir. Həsən Əliyev Azərbaycan EA-nın yaradılmasından sonra elmi kadrların hazırlanmasına böyük əmək sərf edib. Eyni zamanda, akademiyanın torpaqşünaslıq və coğrafiya bölmələrinin qurulmasında da mühüm rol oynayıb.

Azərbaycanın görkəmli təbiətşünas alimi, respublika Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Həsən Əlirza oğlu Əliyev ölkəmizdə çoğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin aşkarlanmasında müstəsna xidmətlər göstərib. Alim çoxillik fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri uğurla həyata keçirib.

O dövrdə dünyanın bir çox ölkələrində, o cümlədən keçmiş SSRİ-də ətraf mühitin çirklənməsi geniş yayılmışdı. Belə bir şəraitdə bir qrup qabaqcıl alim ətraf mühitin mühafizəsinin zəruriliyini elmi biliklərlə əsaslandırırdı. Onların arasında akademik Həsən Əliyev də vardı. O, ətraf mühitin mühafizəsi işinə hələ 1955-ci ildə Azərbaycan EA-nın təbiəti mühafizə üzrə komissiyasında sədr kimi başlamışdı. Sonralar görkəmli alimin təşəbbüsü ilə akademiyanın Coğrafiya İnstitutunda təbiətin mühafizəsi şöbəsi açılmış və ona institutun direktoru akademik Həsən Əliyev özü rəhbərlik etmişdi.

Ətraf mühitin mühafizəsi ilə əlaqədar böyük alimin elmi düşüncələri, narahatlıqları məhz onun "Həyəcan təbili" kitabında öz əksini tapmışdı. 1982-ci ildə işıq üzü görən bu kitab, həqiqətən, füsunkar, zəngin flora və faunaya malik Azərbaycan təbiətinin mühafizəsinin zəruriliyi ilə əlaqədar çalınan həyəcan təbili idi. Təsadüfi deyil ki, akademik öz fikirlərini oxucuları ilə bölüşərək yazırdı: "Əlimə qələm alarkən torpağın tədqiqindən başladım. Bəs torpağın dərdi? Torpağın dərdi çoxdur. Onu düşünmək, görmək və hiss etmək lazımdır. Torpaq dilə gəlib şikayətləndi. Kimdən? "Özünün süd verib, bəslədiyi" insanlardan, sinəsinə yara vuranlardan, gözlərinə zəhər tozu üfürənlərdən. Mən isə torpağın övladlarından biri kimi haray saldım, dövrü mətbuatda məqalələrlə çıxış etdim, dedim ki, qoy səsimi hamı eşitsin".

Həsən müəllim təbiətə qarşı son dərəcə həssas və qayğıkeş münasibət bəsləyirdi. Publisist alim meşəni haqlı olaraq "həyat mənbəyi, yaşıl ciyər", havanı təmizləyən və tənzimləyən əvəzsiz sərvət, torpağın xilaskarı adlandıraraq yazırdı: "Meşə sudur, su məhsuldur, məhsul isə həyatdır... Meşəni, Yer kürəsinin bu yaşıl kəmərini bircə an təsəvvür etməsək, demək, bəşər də yoxdur. Yaşıllığa ölçüsüz – biçisiz hücum insana qarşı yönəldilmiş ən ağır müharibədir. Düşmən hər hansı bir ölkəyə hücum edəndə birinci növbədə onun adamları ilə bərabər meşəsini də qırır. Meşəsi məhv olmuş milləti, xalqı, torpağı təslim etmək, məhv etmək asandır. Meşə xalqın sərvətinin tacıdır, meşəsiz torpaq yazıqdır, səqirdir, miskindir".

Akademik Həsən Əliyevin elmi fəaliyyətini statistik rəqəmlərlə ifadə etsək, deyə bilərik ki, o, 500 elmi əsərin, onlarla kitab və monoqrafiyanın müəllifi olub. Alimin rəhbərliyi sayəsində ölkəmizdə 40-a qədər elmlər namizədi, 8 elmlər doktoru yetişib. Həsən müəllimin elmi varisliyini bu alimlər nəsli qoruyaraq, inkişaf etdirib. Torpaqşünaslıq, coğrafiya, əkinçilik, təbiəti mühafizə və digər elmi istiqamətlərdə aparılan tədqiqat işləri öz bəhrəsini verib. Respublikamızda bu sahələrdə elmi sistemlər qurulub və praktik fəaliyyət uğurlu nəticələr verib.

Həsən Əliyev yalnız elmi fəaliyyətlə kifayətlənməyib, elmin təbliği və cəmiyyətin maarifləndirilməsi ilə bağlı mühüm işlər görüb. 1970-ci ildən akademikin elmi fəaliyyətinin yeni dövrü başlanıb. Bu mərhələdə onun "Meşələrin torpaq prosesinə təsiri", "Azərbaycanın Kür boyu Tuqay meşələri", "Yaşıl sərvətin keşiyində", "Naxçıvan MSSR-nin torpaqları", "Böyük Qafqazın torpaqları", "Azərbaycanın torpaq ehtiyatları, onlardan səmərəli istifadə olunması və qorunması" və s. kimi dəyərli kitabları nəşr olunub. Alimin əsərləri keçmiş SSRİ-nin sərhədlərini aşaraq, ABŞ, Fransa, Belçika, Şərqi Avropa ölkələri, Vyetnam və Yaponiyada geniş içtimaiyyətə çatdırılıb. Onun əsərləri dünyanın 20-yə yaxın ölkələrində çap olunub.

Həsən Əliyevin bir şəxsiyyət kimi böyüklüyü təkcə onun tədqiqatları, elmi kəşfləri, humanistliyi, vətənpərvərliyi ilə məhdudlaşmayıb. O, qəlbinin hökmü ilə doğma Azərbaycanın kənd və qəsəbələrini qarış–qarış gəzərək, insanlarla görüşüb, problemlərini öyrənib, onları təbiətin mühafizəsi ilə əlaqədar maarifləndirib. Eyni zamanda, dünyanın əksər ölkələrində beynəlxalq elmi konfranslara, forumlara dəvət alaraq, doğma Azərbaycanı, onun füsunkar təbiətini elmi məruzələri ilə təbliğ edib.

Akademikin xatirəsinə ən böyük abidə bu gün Azərbaycan təbiətinin yaşıllaşdırılmasına göstərilən qayğıdır, təbiətin sağlamlaşdırılmasıdır. Respublikamızda Prezident İlham Əliyevin ətraf mühitin, xüsusilə yaşıllıqların mühafizəsi və artırılması ilə bağlı tapşırıq və tövsiyələrinə uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi, yerli qurumların təşkilatçılığı ilə davamlı şəkildə ağacəkmə kampaniyası keçirilir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da bu sahədə gördüyü işlər nəinki ölkəmiz, həm də bütün dünyanın təbiətsevərləri üçün əvəzsiz örnəkdir. Onu da qeyd edim ki, bu gün gəncliyin təbiətə qayğısı kimi IDEA İctimai Birliyinin ekoloji layihələri çərçivəsində aparılan yaşıllaşdırma işləri, habelə on minlərlə ağacın əkilməsi təbiətin mühafizəsinə və ekoloji tarazlığın qorunmasına dəyərli töhfədir.

Həsən Əliyev bu gün həyatda olmasa da, onun mənəvi irsi, ölməz ideyaları yaşayır. Böyük alimin illər öncə söylədiyi fikirlər, təbiətin yaraları ilə bağlı çaldığı "Həyəcan təbili" bu gün daha gur səslənir, hətta coğrafi sərhədləri aşaraq narahat və ekoloji problemlərə məruz qalan dünya xalqlarının təbiət marşına çevrilib.

*Bəxtiyar HÜSEYNOV,*
*ETSN-in 1 saylı Regional İdarəsinin əməkdaşı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü*

Təqvim yada salır

# Talelərinə əbədi qonşuluq yazılmış 2 sənətkar

**Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələrindən olan Səttar Bəhlulzadə milli impressionizmin banisi kimi tanınıb. Dünyanın bir çox şəhərlərində əsərlərinin sərgiləri sənətsevərləri heyran qoyub.**



Fitri istedad sahibi olan Səttar Bəhlulzadə 1909-cu ilin bu günündə Bakı qəzasının Əmircan kəndində doğulub. Azərbaycan Dövlər Rəssamlıq Məktəbində və Moskva Dövlər Rəssamlıq İnstitutunda oxuyub. Hələ texnikumda tələbə ikən müəllimi, məşhur rəssam Əzim Əzimzadənin diqqətini çəkən Səttar onun baş rəssam olduğu "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində müxtəlif mövzularda karikaturalar çəkmək təklifi alıb. Gələcəyin böyük rəssamı təklifi məmnuniyyətlə qəbul edərək, bu janrda da gözəl işlər ortaya qoyub.

Moskvada oxuyanda isə həm sənətin incəliklərini mənimsəyib, həm də Tretyakov qalereyasında, Puşkin muzeyində yerli və xarici rəssamların əsərlərinin surətlərini çıxarmaqla daha da püxtələşib.

Daha sonra mənzərə janrına meyil salıb. Özü də məhz Azərbaycanda doğma xalqın həyatı, Vətən torpağı onun əsl ilham mənbəyinə çevrilib. Rəssam ölkənin bir çox yerlərini, xüsusilə də Abşeron yarımadasını gəzib-dolaşıb, gördüklərini "Bilgəh", "Əmircan", "Zuğulba", "Sübh çağı", "Maştağaya yol", "Xəzərdə axşam", "Əbədi palıdlar", "Abşeron tacı" əsərlərini kətan üzərinə məharətlə köçürüb.

Səttar Bəhlulzadə ötən əsrin 50-60-cı illərində daha geniş kompozisiyalı, monumental əsərlər yaradıb. "Qudyalçay sahili", "Cıdır düzü", "Dumana bürünmüş dağlar", "Kür boyu", "İlandağ", "Dədəgünəş", "Bizim payız", xüsusilə də "Kəpəzin göz yaşları" tabloları onu dünya səviyyəli rəssam kimi xarakterizə edir. Bu əsərlərdə rənglərin tonal zənginliyi, fəlsəfi təfəkkür, qeyri-adi sənətkar təxəyyülü heyrət doğurur. Səttar fırçasından çıxan natürmort və qrafika əsərləri də özünəməxsusdur.



Səttar Bəhlulzadənin vəfatından düz 50 il ötür. Sənətkarın ömrü onun muzeyləri bəzəyən misilsiz əsərlərində davam edir. Ondan düz 25 il və 1 gün sonra – dekabrın 16-da Əmircanda sözlə "rəsm"lər çəkəcək daha bir istedad dünyaya göz açıb. O, dövrünün gözəl şairi Tofiq Bayram kimi tanınacaqdı.

Qulam bəy və Məşədi Zivər xanımın ailəsinin ilk övladı olan Tofiq poeziya aləminə erkən qədəm qoyub, ədəbi dərnəklərdə, yaradıcılıq müzakirələrində, sonradan isə Yazıçılar Birliyində keçirilən görüşlərdə iştirak etməyə başlayıb. Gənc şair Pedaqoji İnstitutun tarix fakültəsində təhsil alıb.

Sonuncu kursda oxuyanda onun "Füzuli" pyesi əsasında teletamaşa hazırlanır və Süleyman Rüstəmlə Şəmsi Bədəlbəyli bunu yüksək qiymətləndirirlər. AYİ-yə üzv qəbul olunur və atası Tofiqə deyir ki, həmin dostlarını dəvət et, onlara bir qonaqlıq verim. Süleyman Rüstəm təklifə cavab olaraq zarafatla: "Dəvə qutabı olacaqmı?" – deyə soruşur. Qobu kəndinə gedib dəvə alan Qulam bəy yaddaqalan bir qonaqlıq təşkil edir. Süleyman Rüstəm, Şəmsi Bədəlbəyli, Lütfəli Abdullayev, Bəşir Səfəroğlu və televiziyanın əməkdaşları böyük bir dəstə ilə Əmircana gəlirlər. Bu qədər qonağa bəs edəcək qutabları bişirməkdə ev sahiblərinə qonşuları da köməklik göstərir. Beləcə, həmin məşhur qonaqlığın dəvə qutablarından qonaqlar da, qonum-qonşu da doyunca yeyir...

...Get-gedə dərin emosional şeirləri ilə oxucuların ürəyini fəth edən Tofiq Bayram güclü poetik duyumu, fərqli dəsti-xətti seçilib. Əsərləri, ilk növbədə, aydın obrazlı dili ilə fərqlənib. Yaratdığı poetik lövhələr, xoşagələn pafoslu ifaları hər kəsi valeh edib. Vətənpərvərlik, humanizm, insansevərlik və s. onun sevimli mövzuları idi.

Gözəl şair, həssas insan olan Tofiq Bayram ədəbi qəzet və jurnallarda, "Yazıçı" nəşriyyatında müxtəlif vəzifələrdə çalışıb. Bütün həyatını şeirə, sənətə həsr edib, mənalı ömür yaşayıb. Müxtəlif illərdə onun "Ana təbəssümü"ndən "Ay gecikən məhəbbətim"ə qədər 12 kitabı çıxıb. Vəfatından sonra bunların əsasında "Seçilmiş əsərləri", "Ay anam Bakı" və "Azərbaycanım" adlı topluları da nəşr olunub.

Tofiq Bayram tərcüməçi kimi də tanınıb. Aleksandr Puşkin, Aleksandr Tvardovski, Anna Axmatova, Yevgeni Yevtuşenko, Rəsul Həmzətov, İrakli Abaşidze, Teymuraz Ciladze, Qaysın Quliyevin məşhur əsərlərini dilimizə ustalıqla çevirib. Əməkdar incəsənət xadimi, Maksim Qorki adına Mükafata, fəxri adlara layiq görülüb.

Onu görüşlərdən çəkilmiş televerilişlərdə odlu-alovlu tribun şair kimi maraqla izləyirdik. Dostları ilə şənlənməyi də sevirdi. Səhv etmirəmsə, 1984-cü ildə Sumqayıtda "Azərbaycan televiziyası Günü" keçirilirdi. Mən də orada "Poeziya saatı" verilişi üçün şairlərlə keçirilən görüşdə çıxış edəcəkdim. Çəkilişdən yarım saat əvvəl görüş üçün nəzərdə tutulan mədəniyyət sarayına getdim. Mədəniyyət İşçiləri Həmkarları İttifaqı Sumqayıt şöbəsinin sədri olan qonşum, gözəl şair Əşrəf Veysəlli klubun kitabxanasında bir ayaqüstü məclis açmışdı. Məni görən



kimi "Əli, buyur, – dedi, – Tofiq Bayram gəlib". Sevimli şairlə görüşüb masanın üstünə işarə ilə belə cavab verdim: "Tofiq Bayram yox, Toy-bayram gəlib". O da bu sözümə ürəkdən gülüb "Şair belə olar" – dedi...

Tofiq Bayram 1960–1961-ci illərdə televiziyada işləmişdi. Sonralar mən də orada çalışdım. Sevimli şairimiz ara-sıra verilişlərə gəlirdi. Axır vaxtlar, deyəsən, şəkər xəstəliyinə görə sınıxan kimi olmuşdu. Bir də eşitdik ki, dünyasını dəyişib. İlk ildönümü ərəfəsində sədr müavinimiz, yazıçı Nahid Hacızadə mənə onun haqqında xatirə verilişi hazırlamağı tapşırdı. Bəzi kadrları Əmircandakı evində çəkmək üçün ora getdik.

Şairin bacısı Svetlana Bayramova, sinif yoldaşı olmuş ömür-gün dostu Zərifə xanım (5 il əvvəl dünyasını dəyişib) xatirələrini söylədilər. Sonra qəsəbə qəbiristanlığında şairin məzarını ziyarət etdik. İki addımlıqda olan Xalq rəssamı Səttar Bəhlulzadənin məzarı önündə ayaq saxlayıb onu da ehtiramla yad etdik. Böyük rəssamın əlində boş rəsm çərçivəsi olan heykəlinə baş əyəndə onun axirət qonşusu Tofiq Bayramın heykəl obrazı sanki həmin çərçivənin arasında bir portretmiş kimi diqqətimi çəkdi. Operatordan məhz həmin rakursdan da kadrlar çəkməsini xahiş etdim. Gözəl alındı.

Orada Svetlana xanım dedi ki, qardaşı vəfat edəndə Fəxri xiyabanda dəfn olunmasına rəsmi qərar verilibmiş. Amma öz vəsiyyətinə və anasının təkidinə görə Əmircan qəbiristanlığında – Səttarın yanında torpağa tapşırılıb.

Bəli, Səttar Bəhlulzadə ilə Tofiq Bayram, illəri nəzərə almasaq, bircə gün fərqlə Əmircanda anadan olublar. Bu gün və sabah birinin 115, digərinin isə 90 yaşı tamam olur. İki qonşunun iki yubileyi, beləcə, eyni vaxta düşüb.

Nur içində yatsınlar...

*Əli NƏCƏFXANLI*
*XQ*

# "Anamın örtüyü sarı kəlağayı"

**Səməd Vurğunun Ev Muzeyində "Sazlı, sözlü kəlağayı günləri" layihəsi çərçivəsində "Anamın örtdüyü sarı kəlağayı" adlı toplantı keçirilib. Kəlağayı muzeyi və Mirvarid Dilbazi Poeziya Məclisinin birgə təşkil etdikləri görüş milli kəlağayımızın Azərbaycan Respublikasının Birinci Vitse Prezidenti Mehriban Əliyevanın təşəbbüsü və səyi nəticəsində UNESCO-nun Qeyri-maddi mədəni irsin Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyinə həsr olunub.**



Mirvarid Dilbazi poeziya Məclisinin üzvü, şair Mətanət Ulu Şirvanlı layihə çərçivəsində keçirilən bu silsilə tədbirlərin milli-mənəvi dəyərlərimizin təbliğ edilməsində əhəmiyyətindən danışıb. Mirvarid Dilbazi Poeziya Məclisinin üzvü Surxay Məmmədoğlu, AMEA Folklor İnstitunun əməkdaşı Elmiyyə Abdullayeva, yazıçı-publisist Reyhan Mirzəzadə və başqa qonaqlar ipək sapdan toxunmuş qadınlara məxsus bu qədim baş örtüyünün Azərbaycanın zəngin mədəni irs tarixində daşıdığı dəyərdən söz açıblar. Aşıq Nərmin Cəlalın ifasında Səməd Vurğunun "Azərbaycan" şeiri, "Paşaköçdü" havası və s. mahnılar məclisə təravət gətirib.

Layihə iştirakçılarına kəlağayı, onun hazırlanma prosesi və növləri haqqında məlumat verilib, bədii nümunələrdən ibarət sərgi təqdim edilib.

Xatırladaq ki, yanvar ayından başladılan bu layihə respublikamızın bölgələrində, Naxçıvan MR-da, Sankt-Peterburqda, Tbilisi - M.F.Axundzadənin Ev Muzeyində, Marneuli - Tədris və Mədəniyyət Mərkəzində və başqa məkanlarda davam etdirilib. Silsilə tədbirlər bu ilin sonuna qədər davam edəcək.

*Fidan SALMANOVA,*
*Elşən AĞALAROV (foto)*
*XQ*

# Göyçay: “Eşq olsun həyatın gücünə”

## *Nə vaxt bura gəlsəm, Rəsul Rzanın bu sözləri yadıma düşür*



**Bu gün Aran Şirvanın məhsuldar torpaqlarına yeni can verilən, cəmiyyət həyatının bütün sahələrində respublikamızın ümumi inkişafına layiq addımlar atılan Göyçayda həyat qaynayır. Burada yurda, Vətənə, həyata bağlı insanlar çoxdur, sadə göyçaylılar həyatın qədrini bilirlər. Həm də ustad şair Rəsul Rzanın “Eşq olsun həyatın gücünə” misrası ilə başa çatan “Nərgiz” şeirinin ədəbi gücünü unutmaq mümkün deyil. Xatırladım ki, doğulub böyüdüyüm Gəncə şəhəri Nizami Gəncəvi başda olmaqla onlarca görkəmli, tarixi şəxsiyyət yetirib. Yəni fəxr, iftixar baxımından “gözüm toxdur”. Amma hər dəfə Göyçaya gələndə sanki Rəsul Rzanın, Ənvər Məmmədxanlının, Əli Kərimin səsini eşidirəm.**

...Bu il oktyabrın 17-də Natiq Ağayevin Göyçay Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsinin cəmi iki ili tamam oldu. Burada “cəmi” sözünün işlədilməsi təsadüfi deyil. Çünki rayonun yeni rəhbəri bu qısa müddətdə – cəmi iki ildə Göyçayın, demək olar ki, ən kiçik kəndlərində belə sakinlərlə görüşüb, səyyar qəbul–görüşlərdə iştirak edib, insanları narahat edən, maraqlandıran məsələlərin həlli yollarının tapılmasına çalışıb.

Onun rayona rəhbərlik etdiyi illər İkinci Qarabağ müharibəsindən sonrakı dövrə təsadüf etdiyinə görə icra hakimiyyətinin qarşısında duran əsas vəzifələrdən biri də şəhid ailələrinin, qazilərin problemlərinin həll edilməsi, şəhid valideynlərinin yarasının sağaldılması istiqamətində görüləcək işlər olub. Elə buna görə də icra hakimiyyətinin saytındakı hər üç xəbərdən biri səyyar



qəbul, biri isə hansısa şəhidin anım və ya ad gününün qeyd olunması barədədir.

... Cəmi iki əsrə yaxın yaşı olan bu “Çinarlar şəhəri”, burada abidə kimi qorunan çinar ağaclarından nə yazırsan yaz, sözünün, söhbətinin yarısı göyçaylılar barədə, o biri yarısı mütləq nar haqqında olur.

Bu şəhərə Ağsu tərəfdən daxil olanda yolun sağında metaldan hazırlanmış nəhəng bir nar fiquru görünür. Həmin fiqur həmişə mənə uşaqlıq illərində eşitdiyim tapmacanı xatırladır: “Aldım bir dənə, açdım – yüz dənə”. Nar artım, ruzi, bərəkət, bolluq rəmzidir. Həmin rəmzə ehtiram olaraq burada dəfələrlə “Nar bayramı” keçirilib. Bilmirəm, xatırlayırsınız, ya yox, bir neçə il qabaq ölkəmizdə keçirilən birinci Avropa Oyunlarının simvollarından biri nar olub. Bu “metal nar”dan əlavə rayonun istehsal müəssisələrindən birinin həyətində “Nar heykəli” də ucaldılıb. Bu, Azərbaycanda ilk və hələlik yeganə nar heykəlidir.

Nar bayramlarının bir neçəsində mən də iştirak etmişəm. Nar həmişə Göyçayı qonaq-qaralı edib. Bura nə qədər nar sevdalı turist, səyyah, diplomat, ziyalı, mətbuat təmsilçisi gəlib. Bunu bilmək üçün siz də gəlin. Görəcəksiniz, narın işığına nə qədər insan yığışır.

Ötən il Heydər Əliyev Mərkəzində göyçaylılar maraqlı bir tədbirə şahidlik etdilər. Belə ki, orada Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) prezidenti, xeyriyyəçi Elxan Süleymanovun rəhbərliyi ilə nəfis şəkildə buraxılmış “Göyçay ensiklopediyası”-nın təqdimat mərasimi keçirildi. Yaxından-uzaqdan xeyli qonaq gəlmişdi. Yazıçılar Birliyini sədri, Xalq yazıçısı Anar çıxışında



bildirdi ki, belə bir toplunun ərsəyə gəlməsi böyük zəhmət tələb edir və onun içində qiymətli faktlar var. Ensiklopediyada bölgənin tarixi, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı, inzibati-ərazi vahidləri, fiziki-coğrafi obyektləri, geoloji quruluşu, yeraltı və yerüstü təbii sərvətləri haqqında məqalələr, müvafiq xəritələr yer alıb. Yerli ədəbi-mədəni mühit, folklor və mərasimlər, maddi mədəniyyət, toponimlər haqqında tanınmış tədqiqatçıların yazdıqları oçerklərlə tanış olmaq olar. Kitaba, ilk növbədə, Göyçayın adını xan çinarın ucalığına qaldırmış görkəmli şəxsiyyətlər haqqında məqalələr daxil edilib. Bunların hamısı 951 məqalədə, 11 irihəcmli oçerkdə birləşib.

Buradaca qeyd edək ki, bu ilin iyun ayında Göyçayın Qaraman kəndində Elxan Süleymanovun təşəbbüsü ilə Göyçaydakı 57 məktəbin hər birindən bir əlaçı şagirdə 500 manat məbləğində Hacı Rəhim Əfəndi təqaüdünün verilməsi mərasimi keçirilib. Həmin tədbirdə mən də iştirak etmişəm. Mərasimdə çıxış edən Elxan Süleymanov təhsilə qayğı ənənəsinin yaşadılmasından danışıb. Babası Hacı Rəhim Əfəndinin 1903-cü ildə bünövrəsini qoyduğu Qaraman kənd tam orta məktəbindən və digər xeyriyyəçilik fəaliyyətindən konkret faktlarla söz açıb. Onu da deyək ki, Elxan Süleymanov həmin məktəbi və kənddəki Hacı Rəhim Əfəndi məscidini 1991-ci ildə əsaslı şəkildə bərpa etdirib.

Göyçayda bu il şahidlik etdiyim sonuncu tədbir isə payızın sonuna təsadüf edib. Həmin toplantıda şəhər infrastrukturunun qış mövsümünə hazırlıq vəziyyəti müzakirə edilirdi, küçələrin işıqlandırılması, piyadaların və avtomobillərin axşam saatların-




da təhlükəsiz hərəkətinin təmin olunması, həmçinin sakinlərin asudə vaxtlarını parklarda rahat keçirmələri üçün işıqlandırma sistemlərinin bərpasından danışılırdı. Tədbirdə şəhərin Heydər Əliyev prospektində, M.Ə.Rəsulzadə, R.Rza, Maarif Həsənov və Natəvan küçələrində təmir-bərpa işlərinin aparılması, ərazilərin işıqlandırılaraq tamamilə müasirləşdirilməsi qeyd edildi. Yeri gəlmişkən, rayonda abadlıq-quruculuq və yenidənqurma işləri, o cümlədən küçə və parkların abadlaşdırılması, yaşıllıqların salınması, yolların və səkilərin əsaslı təmiri, asfaltlanması istiqamətində il boyu davamlı işlər həyata keçirilir.

Rayon icra hakimiyyəti başçısının müavini Kamil Xəlilov ilə söhbətimiz zamanı məlum oldu ki, Göyçay küçələrinin bu şəkildə işıqlandırılmasından qabaq, yəni oktyabrın əvvəlindən “Azərişıq” ASC tərəfindən Göyçay şəhəri ilə yanaşı, kəndlərin də daha keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi məqsədilə təmir-bərpa işlərinə başlanılıb. Bir sıra ərazilərdə elektrik enerjisinin verilişində yaranan çətinliklərin aradan qaldırılması üçün hava xətlərində təmir işləri aparılıb.

Bütün bunlarla yanaşı, Göyçay Elektrik Şəbəkəsinin xidməti ərazisində rayonun Qarabaqqal, Hacalıkənd, Çayarxı, Bığır, Mirzəhseynli, Cəyirli, Kürdəmiş, Ləkçılpaq, Yalman və Qarabağlar kəndlərində abonentlərin fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi və qəzaların qısa vaxt ərzində aradan qaldırılması məqsədilə müvafiq xətt ayırıcıları quraşdırılıb.

Həmsöhbətim əlavə etdi ki, Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il dekabrın 25-də Göyçay rayonunun Potu – Ulaşlı Şıxlı – Üngütlü – Çərəkə – Çərəcə – Şıxlar – Xəlitli –Yeniarx –Hacıağabəyli kəndlərinin avtomobil yolunda əsaslı təmir işlərinin aparılması ilə bağlı imzaladığı sərəncamın icrası prosesində bu il uzunluğu 42,35 kilometr olan layihənin Çərəkə, Çərəcə və Şıxlar kəndlərini birləşdirən kəndlərarası avtomobil yoluna yeni asfalt örtüyünün vurulması işləri başa çatdırılıb. Avtomobil yolunun üzərində avtobus dayanacaqları, yol nişanlarının quraşdırılması və yolun üfüqi nişanlanma xətlərinin çəkilişi aparılmaqla magistral müasir görkəmdə vətəndaşların istifadəsinə verilib.

Göyçay rayonunun iqtisadi və sosial inkişafının göstəriciləri də ürəkaçandır. Belə ki, rayonda fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 39 milyon 403 min manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 11,2 faiz çox ümumi məhsul buraxılışı olub. Məhsul və xidmətlərin 70,7 faizi istehsal sahələrinin, 29,3 faizi isə xidmət sahələrinin payına düşüb.

Onu da yada salaq ki, əvvəlki ilin müvafiq dövrünə nisbətən məhsul buraxılışının həcmi sənaye üzrə 113,4 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə 94,4 faiz, tikinti üzrə 7,5 dəfə çox olub. Bundan başqa, nəqliyyat və anbar təsərrüfatı üzrə göstəricilər 105,1, informasiya və rabitə üzrə 91,4, ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə isə 100,3 faiz təşkil edib.

İlin 3 rübü ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 4 milyon 893 min manatlıq və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz çox sənaye məhsulu istehsal edilib. Sənaye məhsulunun 91,7 faizi emal sektorunda, 7,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsal olunub.

Rayona yolu düşənlər görürlər ki, Göyçayın bu gün görkəmi kifayət qədər müasirləşdirilib. Tikinti-quruculuq, abadlıq işləri günün əsas məsələlərindən birinə çevrilib. Bu ilin geridə qalan aylarında iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 20 milyon 689 min manat investisiya yönəldilib. Sərmayə qoyuluşunun 20 milyon 625 min manatı və ya 99,7 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib.

Yuxarıda qeyd etdik ki, son zamanlar Göyçaya təkcə respublikamızdan deyil, dünyanın çox ölkələrindən qonaqlar və turistlər gəlirlər. Ona görə də nəqliyyat, informasiya və rabitə sahələri rayon rəhbərliyinin diqqət mərkəzindədir. İlin əvvəlindən bəri nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 543 min ton yük və 9087 min nəfər sərnişin, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 38 min ton və ya 7,5 faiz çox yük daşınıb. İnformasiya və rabitə müəssisələri tərəfindən isə əhaliyə, müəssisə və təşkilatlara 1 milyon 775 min manatlıq xidmət göstərilib.

Göyçay çayı, Göyçay rayonu, “Göyçay” qəzeti və göyçaylı imici. Çayı bu insanlara Tanrı bəxş edib, rayonu dövlət formalaşdırıb, qəzeti jurnalist həmkarlarımız ərsəyə gətiriblər. Göyçaylı imici isə halallıqla yaşamağı bacaran yerli ziyalıların,



sadə zəhmət adamlarının, işgüzar, yorulmayan sahibkarların və səsi ölkənin müxtəlif ünvanlarından gələn fərasətli göyçaylıların qətrə-qətrə topladıqları nüfuzun nəticəsidir.

Bığırlı sahibkar Tofiq Lətifov həmin sadə zəhmət adamlarından biridir. Həyatının böyük hissəsi nar bağlarında keçən bu ağsaqqal nar ağaclarındakı tumurcuqlarla da danışıb, nar çiçəkləri ilə də. Çiçəkdən meyvəyə çevrilən ufaq narların da sevincinə qoşulub, budaqları əyilən bol məhsullu



ağacların da. Onun fikrincə, ən böyük sevinc – yorğunluq çıxaran məqam isə nar məhsulu doldurulmuş yüzlərlə yeşiyin “boy sırasına düzüldüyünü” görməkdir.

Dekabrın ilk günlərində Göyçay sakinlərinin rahat gediş-gəlişinin təmin olunması məqsədilə şəhərin Heydər Əliyev prospektində və Nizami küçəsində abadlıq işlərini həyata keçirən podratçı təşkilat “ATF” MMC tərəfindən piyada səkisinin yenidən qurulması işlərinə başlanılıb. Noyabrda aparılan abadlıq işləri çərçivəsində isə şəhərin Heydər Əliyev prospektindəki dalanlara, Vaqif, S.Vurğun, Şirvani, Z.Tağıyev, Z.Nəcəfov, Xəyal Məmmədov, Maarif Həsənov, Rauf İsayev küçələrində və 52-ci məhəllədə yeni asfalt örtüyü çəkilişi başa çatıb.

Göyçay da digər rayonlarımız kimi həm birinci, həm də ikinci Qarabağ müharibələrində xeyli şəhid verib. Noyabrın 30-da həmin şəhidlərdən birinin – Rəhim Həmidovun o zirvəyə ucalmasının dördüncü ildönümü qeyd edilirdi. Yəqin ki, hörmətli oxucu bu tarixin fərqinə vardı. Belə ki, Rəhim İkinci Qarabağ müharibəsi başa çatandan 20 gün sonra şəhid olub. Bu isə düşmənin nə dərəcədə qansız olduğunun göstəricisidir.

İldönümü mərasimində iştirak edən rayon icra hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərləri, şəhid ailələri, rayon ictimaiyyətinin üzvləri şəhidin əziz xatirəsini ehtiramla yad edərək göyçaylı gənclərin Vətən sevgisini, mərdliyini, cəsurluğunu alqışlayıblar. Xatırladaq ki, şəhid Rəhim Həmidov Azərbaycan Prezidentinin sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Nəhayət, böyük şairimiz Rəsul Rzanın hələ 1957-ci ildə yazdığı “Nərgiz” şeiri barədə. Şair “Goycayda bir qonaq evi var” sözləri ilə başlanan şeirdə qeyd edir ki, bir səhər gördüm ki, onun qonaq evinin həyətindəki asfalt qabar-qabar olub. Sonrakı günlər gördüm ki, həmin qabarlar parçalanır. Daha sonra gördüm ki, asfaltın parçalanmış yerlərindən nərgiz topaları çıxıb, yasil bir alov kimi:

**Soyuq asfalt**
**Məğlub olub həyat gücünə**
**Zərif nərgiz**
**Qalxıb düyməcə-düyməcə.**
**Qalxıb Günəş eşqinə,**
**Bahar eşqinə.**
**Dedim: Eşq olsun həyatın gücünə.**

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

**Göyçay**

Beynəlxalq həyat

# Gürcüstanın yeni prezidenti seçildi

**Dünən Gürcüstanda prezident seçkiləri keçirilib. Keçmiş futbolçu və eks-deputat Mixeil Kavelaşvili dövlət başçısı vəzifəsinə yeganə namizəd kimi irəli sürülüb. Səsvermədə 225 seçki kollegiyasının üzvü iştirak edib ki, bu da seçicilərin yarısından çoxu və prezident seçkilərinin baş tutması deməkdir.**



Açıq şəkildə baş tutan seçkidə əvvəlcə Gürcüstan parlamentinin üzvləri, sonra isə əlifba sırası ilə digər dövlət orqanlarının nümayəndələri səs veriblər. Müxalifət partiyaları isə prezident seçkisində iştirak etməyiblər. Səsvermədə Seçicilər Kollegiyasının 225 üzvündən 224-ü Mixeil Kavelaşvilinin prezident postuna namizədliyini dəstəkləyib. 1 bülleten isə etibarsız sayılıb. “Mtavar” telekanalının məlumatına görə, namizədə Abxaziya Muxtar Respublikası Ali Sovetinin deputatı Ada Marşaniya səs verməyib.

Beləliklə, “Gürcü arzusu”nun namizədi Mixeil Kavelaşvili Gürcüstanın prezidenti seçilmək üçün lazım olan 200 səsdən çoxunu toplayıb.

Bəs Mixeil Kavelaşvilinin siyasi fəaliyyəti ilə bağlı nə bilirik? O, 2016-cı ildən hakim "Gürcü arzusu - Demokratik Gürcüstan" partiyasından Gürcüstan parlamentinin üzvüdür. 2016–2020-ci illərdə ölkənin İdman və Gənclər Komitəsinə rəhbərlik edib. 2022-ci ilin iyununda isə "Gürcü arzusu – Demokratik Gürcüstan" partiyasını və parlament fraksiyasını tərk edib.

2023-cü ilin yazında xarici agentlərlə bağlı qanun layihəsinin təşəbbüskarı olub. 2024-cü ilin martında "Xalq Gücü" partiyası kimi qeydə alınıb. Onun siyasi katibi vəzifəsini Mixeil Kavelaşvili icra edib. 2024-cü il oktyabrın 26-da "Gürcü arzusu – Demokratik Gürcüstan" partiyasının siyahısı ilə Gürcüstan parlamentinin deputatı seçilib.

2024-cü il noyabrında "Gürcü arzusu – Demokratik Gürcüstan" partiyası prezident seçkisində Mixeil Kavelaşvilinin namizədliyini irəli sürüb. Və nəhayət, bu vəzifəyə seçilib. Onun prezident kimi səlahiyyətləri məhduddur. Bu barədə “Gürcü arzusu” partiyasının liderlərindən biri Mamuka Mdinaradze bildirib ki, Mixeil Kavelaşvili məhdud səlahiyyətlərini nəzərə alsaq, yaxşı prezidenti olacaq. “Gürcüstanın beşinci prezidenti Salome Zurabişvili və onun sələfləri prezident postu ilə bağlı yalnış fikir yaradıblar. İndi, hətta tənqidi fikirlər söyləməyin özü də səhvdir”. Mdinaradze vurğulayıb ki, parlament respublikası şəraitində Kavelaşvili simvolik fiqur olacaq və ölkənin kursunu müəyyən etməyəcək: “O, şəxsi və peşəkar keyfiyyətlərinə görə fərqlənə bilər. Bu gün prezident məhdud səlahiyyətlərə malik simvolik bir fiqurdur. Məsələn, kimin əfv edilməsinə prezidentin özü qərar verir və qanunlara veto hüququndan istifadə edir. Lakin o, xarici siyasəti müəyyən etmir və bu, onun işi deyil. Parlament respublikasında xarici siyasəti Gürcüstan hökuməti müəyyənləşdirir və həyata keçirir. O, beynəlxalq münasibətlərdə nümayəndəlik funksiyalarını yalnız hökumətin razılığı ilə həyata keçirə bilər”.

Mdinaradze qeyd edib ki, eyni sözlər Ali Baş Komandan vəzifəsinə də aiddir. “Əgər biz Ali Baş Komandandan danışırıqsa, Mixeil Kavelaşvili yaxşı baş komandan olacaq. Bu, bir növ orduya rəhbərlik kimi qəbul edilir, amma prezidentin bu səlahiyyəti də məhduddur. Onun ordu hissələrinin hərəkəti və ya döyüş taktikası haqqında heç bir xüsusi biliyə ehtiyacı yoxdur”.

Bu arada, xanım Salome Zurabişvili yenə də deyib ki, dövlət başçısı kimi səlahiyyətlərinə davam edəcək. O, sosial şəbəkədəki şəxsi səhifəsində yazıb: “Kimin gedəcəyini görəcəyik”.

Qeyd edək ki, dünən Salome Zurabişvili prezident seçkisinin keçirildiyi parlament binasının qarşısında görünüb və etiraz aksiyasının iştirakçılarına dəstəyini bildirib.

Bu açıqlama hakim partiyada xoş qarşılanmayıb. Baş nazir İrakli Kobaxidze deyib: “Salome Zurabişvili, təəssüf ki, son 3 ildə ölkəmizin milli maraqlarına zərər vurmağa çalışıb. Lakin şükürlər olsun ki, Gürcüstan parlament respublikası olub və olaraq qalır. Buna görə də prezident ölkəmizdə çox şeyi korlaya bilmədi. 29 dekabrda onun səlahiyyət müddəti tamamilə başa çatır. Və əlbəttə, o, təqaüdə çıxmalı olacaq”.

Hakim “Gürcü arzusu” partiyasının baş katibi Kaxa Kaladze isə vaxtilə partiyanın Zurabişvilinin prezident seçilməsinə kömək etdiyi üçün xalqdan üzr istəyib.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Suriyanın gələcəyi necə formalaşacaq?

**Suriya müxalifətinin Dəməşqə daxil olması ilə sabiq prezident Bəşər Əsədin hakimiyyəti devrildi. 13 il ərzində rejim dəfələrlə süqut ərəfəsində oldu, lakin sonu dekabrın 8-də baş verdi. Son 13 ilin iztirablarına və qanlarına görə ən böyük məsuliyyəti daşıyan Bəşər Əsəd ölkədən qaçaraq Rusiyaya sığındı. Amma indi hamını bir sual maraqlandırır: Suriyanın bundan sonra gələcəyi necə formalaşacaq?**



Daxili dinamika baxımından rejimin sürətlə çökməsi mühüm başlanğıc nöqtədir. “Həyat əş-Şam” (HTŞ) rejimin devrilməsində aparıcı rol oynadı. Bu səbəbdən HTÇ keçid prosesinin idarə olunmasında təsirli söz sahibi olacaq. Dəməşqdə rejimin yeganə simvolik nümayəndəsi olaraq qalan Suriya baş naziri Məhəmməd Qazi əl-Cəlali hakimiyyəti sülh yolu ilə müxalifətə təhvil verdi. Bu, keçid dövrünün nisbətən rəvan başlamasına şərait yaradır. Beləliklə, Suriya daxilində qüvvələr balansı kontekstində nisbətən legitim zəmin formalaşdı. Ancaq siyasi şərhçilərin fikrincə, Suriyada rejimin süqutundan sonra əsas prioritet hər kəsin təhlükəsizliyini təmin etməkdir. Bunun üçün hərbi toqquşmaları tamamilə dayandırmaq və gündəlik həyatı təhlükəsiz etmək lazımdır.

Türkiyənin regional oyunçu rolu o qədər artdı ki, onu gözardı etmək mümkün deyil. Ankara Suriyanın ərazi bütövlüyünün qorunmasının tərəfdarıdır və buna görə də, vəziyyətdən sui-istifadə etməyə çalışan terrorçu qruplara qarşı qabaqlayıcı və sarsıdıcı tədbirlər görür. Bu qruplaşmalar həm Suriyanın, həm də bütün regionun təhlükəsizliyinə təhdid yaradır. Türkiyə diqqətə çatdırır ki, Suriyanın suverenliyinə və ərazi bütövlüyünə hücumlara icazə verməyəcək. Ankara terror təşkilatlarına qarşı mübarizədə mövqeni açıq şəkildə ifadə edir və bu mübarizəni davam etdirmək əzmində olduğunu vurğulayır.

Bundan başqa, Türkiyə PYD/YPG-nin qorunmasına yönəlmiş bütün hərəkətləri, o cümlədən Fəratın şərqində İŞİD təhlükəsinin qaldığı görüntüsü yaratmaq cəhdlərini də diqqətlə izləyir. Ankara bir daha bildirir ki, bir terror təşkilatını digər terror təşkilatının köməyi ilə məhv etmək olmaz. Xatırladaq ki, ABŞ və onun müttəfiqləri Suriyadakı kürd silahlı qruplaşmalarının dəstəklənməsini onların İŞİD-ə qarşı mübarizə aparmaları ilə əlaqələndirir. Artıq məlum olur ki, yeni dövrdə ABŞ-ın Suriyadakı prioritetləri İsrailin təhlükəsizliyi, PYD/YPG-nin varlığının qorunub saxlanılması və terror təşkilatı İŞİD ilə mübarizənin davam etdirilməsidir.

ABŞ dövlət katibi Antoni Blinken Əsəd administrasiyasının devrilməsindən sonra Suriya ilə bağlı gündəmlə Ankaraya gəldi. Ankara Esenboğa hava limanında Prezident Rəcəb Tayyib Ərdoğanla görüşən Blinken dekabrın 13-ü cümə günü səhər saatlarında xarici işlər naziri Hakan Fidanla da danışıqlar apardı. Görüşlərdə Türkiyə və Amerika rəsmiləri Suriyanın gələcəyinin müəyyən edilməsində hansı rol oynayacaqlarını müzakirə etdilər və sabit Suriya görmək istədikləri mövzusunda ümumi razılığa gəldiklərini açıqladılar. Ancaq Türkiyə KİV-i yazır ki, tərəflər İŞİD-ə qarşı necə mübarizə aparacağı ilə bağlı fikir ayrılığını ortadan qaldıra bilmədilər.

Xüsusilə qeyd etmək lazımdır ki, ABŞ Suriyada baş verənlərin İŞİD-lə mübarizəyə zərər verməməli olduğunu və Türkiyənin Suriyada kürd silahlı birləşmələrinə qarşı apardığı hərbi əməliyyatlardan məmnun olmadığını açıq şəkildə bildirir. “Wall Street Journal” (WSJ) qəzeti Suriya kürdlərinin “komandiri” Məzlum Abdinin bəyanatına istinadən qondarma “Suriya Demokratik Qüvvələri”nin (SDQ) (terrorçu Kürdüstan Fəhlə Partiyasının Suriya qolu-red.) Türkiyəyə “təzyiq göstərmək” üçün ABŞ-dan kömək istədiyini yazır. Son günlər SDQ-nin Suriyanın Mənbic və Deyr əz-Zor şəhərləri də daxil olmaqla, bir neçə bölgəyə nəzarəti itirdiyi bildirilir. HTŞ qüvvələrinin iki yaşayış məntəqəsinə daxil olduğu vurğulanır. ABŞ KİV-nin məlumatına görə, 900-dən çox ABŞ əsgəri Suriyanın şimal-şərqində və şərqində (kürdlərin ələ keçirdiyi zona) İŞİD-ə qarşı mübarizə aparır və mənbələrə görə, döyüşü davam etdirmək üçün orada qalmağı planlaşdırır.

Rusiya da Suriyada yeni vəziyyətin yaranmasının səbəblərini təhlil edərək öz mövqeyinə yenidən baxır. Moskva bu ölkədəki hərbi bazalarını saxlamağa çalışır. Ancaq post-Əsəd Suriyasının formalaşmasında yaxından iştirak etmək istəyən Qərb buna qarşı çıxır. Avropa İttifaqı (Aİ) hesab edir ki, Rusiya bazaları regionda sabitliyə kömək etmir. Qurumun yüksək səviyyəli nümayəndəsinin sözlərinə görə, Brüssel Suriyanın yeni hakimiyyət orqanlarının ölkədəki Rusiya hərbi bazalarının qalmasına qərar verməyəcəklərinə ümid edir: “Yeni hakimiyyət Rusiya bazalarını çıxarmaq qərarına gəlsə, biz tamamilə şad olarıq”. Jurnalistlərin Aİ-nin öz mövqeyini Suriyanın yeni hakimiyyət orqanlarına çatdırmaq niyyətində olub-olmaması ilə bağlı sualına diplomatın müsbət cavab verdiyi bildirilir.

Xatırladaq ki, Rusiyanın Suriyada iki hərbi obyekti var. Son məlumatlara görə, Moskva hərbi texnikasını çıxarır. “Reuters” agentliyi Rusiya təyyarələrinin Suriyadakı bazalarını tərk etməyə başladığını iddia edir. Agentlik peyk görüntülərinə istinadən yazır ki, Rusiya Suriyadakı hava bazalarından hərbi texnikanı, o cümlədən iki An-124 təyyarəsini köçürür. Ancaq dekabrın 12-də Rusiyanın “Həyat Təhrir əş-Şam” qruplaşmasının siyasi komitəsi ilə əlaqə yaratması ilə bağlı xəbər yayılmışdı. Daha sonra Rusiya Federasiyası xarici işlər nazirinin müavini Mixail Boqdanov bildirmişdi ki, Rusiya tərəfi Suriyadakı hərbi bazalarını saxlamağa ümid edir.

Almaniya Müdafiə Nazirliyi də Rusiya hərbçilərinin Suriyadan çıxarılmasına başlandığını təsdiqləyir. Bundesver Rusiya qrupunun artıq Tartus limanını tərk etdiyini iddia edir. “Financial Times” qəzeti peyk şəkillərinə və Ukrayna kəşfiyyatının məlumatlarına istinadən böyük nəqliyyat təyyarələrinin təxliyyə tədbirləri həyata keçirmək üçün Xmeymim hava bazasına gəldiyini yazır. Dekabrın 13-də Anadolu Agentliyi rus əsgərlərinin bəzilərinin zirehli iri hərbi maşınlar, həmçinin qoşqulu yük maşınlarının olduğu karvanla Latakiyadakı Xmeymim hava bazasına getdiyini bildirmişdi. Bütün bunlar belə deməyə əsas ki, Suriyanın gələcəyinin formalaşmasına təsir göstərən kənar qüvvələrin azalması keçid dövrünün az ağrılı keçməsinə şərait yaradacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

**Xalq rəssamı Səttar Bəhlulzadənin Bakının Əmircan qəsəbəsindəki ev-muzeyində onun ömür yolunun silinməz izləri əbədiləşib**

# Rənglərin sənət nağılı

O, hər səhər etüd çantasını əlinə götürüb bu pilləkənlərlə düşərək Xəzərin qayalara, qumlu sahillərə çırpılıb qayıdan sularını, şahə qalxan dalğaları doyunca seyr edib.

Təkcə bu yerlərə layla çalan mavi Xəzəri yox, gülləri-çiçəkləri, bağ-bağçaları, dağları, qayaları, ətrafda nə varsa, hər şeyi. Axşamlar qayıdıb gələndə dolanbac pilləkənlərlə evə qalxıb. Sonra gördüklərini arıq, uzun barmaqları ilə kətan üzərinə köçürüb. Mahir fırça ustasının yaratdığı ecazkar tablolar ona tamaşa edən hər kəsi heyran edib.



Dahi rəssam anası Hökümə və bacısı ilə birlikdə ömrünün sonunadək bu evdə yaşayıb. Burada hər şey onu xatırladır. Şkafda Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri, impressionizmin banisi hesab olunan Səttar Bəhlulzadənin Azərbaycanın müxtəlif guşələrindən topladığı minerallar, daşlar, balıqqulaqları onun çox sevdiyi yadigarlardır. Onların hamısını öz əlləri ilə toplayıb, çünki o, bu torpağın, onun bəxş etdiyi gözəlliklərin vurğunu, məftunu idi.

Səttar Bəhlulzadənin ev-muzeyinin direktoru Pərzad Abdinova eksponatlar haqqında məlumat verir. O, rəssamın bacısının nəvəsidir, ona nənəsinin adını veriblər. Pərzad “Səttar Bəhlulzadənin əsərləri” mövzusunda elmi iş müdafiə edib, sənətşünaslıq üzrə fəlsəfə doktorudur.

Muzeyin direktoru ilk otaqda divardakı bir rəsmin önündə ayaq saxlayaraq deyir: “Böyük rəssamın yaratdıqları əsərlərin heç də hamısı kətan, molbert üzərində əks olunmayıb. O, bağ evlərində, hətta divarlarda da rəsmlər şəkib. Bu şəkildə Səttar babanın rəssam dostu Oqtay Sadıqzadənin bağ evinin divarı əks olunub. Ondan başqa Nəcəfqulu İsmayılov və Kamil Xanlarovun bağ evinin divarına da rəsm çəkib. Təəssüf ki, həmin rəsmlər divar üzərində əks olunub. Əgər onları kətan üzərində çəkmiş olsaydı, onun sənət xəzinəsində indiyədək yaşayardı”.

Ev-muzeyində ikinci otaq rəssamın emalatxanasıdır. Əslində, o, öz əsərlərinin böyük bir hissəsini Nərimanov rayonundakı bazarın yanında, sonralar isə İnşaatçılar prospektindəki Rəssamlar evində yaradıb.

Tən ortada molbert qoyulub, palitra, fırçalar, boyalar, etüd çantası... Dünyanın nəhəng sərgi salonlarını Qahirə, Vyana, Berlin, Paris, Neapol, Monreal, Havana, Nyu-York, Moskva, Minsk, Bonn, İstanbul, Tiflis, Praqa və digər şəhərlərdə nümayiş olunan əsərlər məhz bu fırçaların, rənglərin vasitəsi ilə yaradılıb.

Bir az küncdə dördkünc yazı stolu, güldan, ev əşyaları, kompozisiyalarda istifadə etdiyi etnoqrafik əşyalar, mis qablar, radioqəbuledici... Bu radioqəbuledicidə fırça ustası kimlərə qulaq asıb, hansı musiqiləri dinləyib?

Sonra yataq otağı gəlir. Hər axşam məşhur rəssamın ata ocağındakı yataq otağı gərgin iş günündən sonra onun yaradıcılıq axtarışlarına və romantik duyğularına qanad açıb.

Yataq otağında rəssamın yaşadığı illərdəki mebel, avadanlıq, televizor, ümumi mühit olduğu kimi qorunub saxlanılıb. Pəncərə önündə patefon və üzərində Əməkdar artist Gülağa Məmmədovun ona bağışladığı plastinka...

Sonra qonaq otağı. Burada da stol, stul, kreslo, şkaflar eynən məşhur rəssamın öz dövründə olduğu kimi saxlanılıb. Ona bağışlanan kitablar, əşyalar, divarlardan asılmış portretlər, televizor zamanın qanadlarını qıraraq adamı rəssamın yaşadığı dövrə aparır.

Ev-muzeyindəki kiçik otaqların qarşısındakı zalda Səttar Bəhlulzadəyə göndərilən məktublar, rəssamın əsərlərindən ibarət müxtəlif dillərdə dərc olunan kataloqlar, nəqliyyat vasitələrinə, elektrik qatarına minmək üçün istifadə etdiyi biletlər, öz əlləri ilə yazdığı gündəlikdən səhifələr, sənət dostu Maral Rəhmanzadə, kimyaçı professor Həbib Məmmədəliyev, partiya işçisi Pyotr Yelistratov və sənətşünas Qriqoriy Anisimovun ona ünvanlanan məktubları, həmkarları Mikayıl Abdullayev və Tahir Salahovun təbrik teleqramları, rəssamın fərdi sərgisinə dəvətnamələr, şəxsi sənədləri və tarixi əhəmiyyət kəsb edən eksponatlar nümayiş etdirilir. Əlbəttə ki, yenə də etüd çantası, palitra və fırçalar...

Divarlarda “Mənim anam”, “Kəpəzin göz yaşları”, “Bazar düzü” və başqa məşhur əsərlərin reproduksiyası asılıb. Rəssam şəxsi gündəliyində yazırdı: “Dağlar isə elə bil ki, məxmər xalçadır, üzərindəki bu rəngarəng güllər onun nəqşləridir. Şamaxıya qədər gedən yol boyunca dağlar və çiçəklər dəyişir və cürbəcür koloritə girir”.

Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadə yaradıcılığı boyu çox əsərlər çəkib. Onun ayrı-ayrı fondlarda saxlanılanı da var, ev-muzeyində qorunanı da. Rəssam təxminən, 1000-ə yaxın rəsm əsərlərinin xeyli bir hissəsini dost-tanışa bağışlayıb. Onun 18 əsəri Dövlət Rəsm Qalereyasında, 10-u Tretyakov qalereyasında, 13-ü Şərq Xalqları muzeyində, qalanları Milli İncəsənət muzeyində saxlanılır. Bir hissəsi isə ev-muzeyində saxlanılır.

O, dünyaya bu həyətdə salam verib, ilk dəfə bu həyətdə üst-başını toz-torpağa batırıb, uşaqlığını bu həyətdəki ağacların dibində itirib. Dünyaya, çox sevdiyi Abşerona, mavi Xəzərə də ilk dəfə bu evdən, bu həyətdən boylanıb. Onun fırçasından qopan rənglər və naxışlar doğulduğu kəndi, şəhəri, ölkəni bütün dünyaya tanıdıb. Səttar fırçasının yaratdığı gözəlliklər onun sənətini, evmuzeyinin eksponatlar isə rəssamın əziz xatirəsini yaşadır...

***Süleyman QARADAĞLI***

# Mömінə Xatın türbəsi əsaslı bərpa ediləcək



**Xəbər verdiyimiz kimi, Orta əsrlərin nadir memarlıq yadigarı Möminə Xatın türbəsinin bərpası və ərazinin abadlaşdırılması ilə bağlı layihələndirmə işlərinin aparılması məqsədilə Avstriyanın “Atelier Erich Pummer GmbH” şirkəti ilə müqavilə bağlanıb. Bu günlərdə qurumun rəhbəri Erich Pummer və ölkəmizdəki nümayəndəsi Çingiz Neymanzadənin iştirakı ilə Naxçıvanda bərpa layihəsinin müzakirəsi keçirilib.**

Sentyabrın sonlarında Möminə Xatın türbəsinin mövcud vəziyyətinin hərtərəfli tədqiqi və ölçmə işlərinin aparılması üçün keçirilmiş ilkin baxışa əsasən hazırlanmış planlar və məlumatlar çap və elektron versiyada Naxçıvan MR Mədəniyyət Nazirliyinə təqdim edilib.

Nazir müavini Həsən Seyidov bildirib ki, Möminə Xatın türbəsi UNESCO-nun maddi-mədəni irs nümunələri üzrə ilkin siyahısına daxildir və bərpa zamanı abidənin detallarına xüsusilə diqqət yetirilməli, tarixiliyi qorunub saxlanılmalıdır. Erich Pumer abidənin ilkin formaya uyğun bərpa ediləcəyini və yerli alim və mütəxəssislərin də rəylərinin alınacağını qeyd edib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı”
Qapalı Səhmdar Cəmiyyəti

*portal kranı üçün kabelin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 27 dekabr 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (+994 12) 599 00 03 (daxili 3706).

Ünvan – AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 277 (30681) 15 dekabr 2024-cü il, bazar

## “Qış nağılı” – Beynəlxalq turnir

**"Qış nağılı" bədii gimnastika turnirinə start verilib.**



Milli Gimnastika Arenasında təşkil olunan yarışda 2009–2018-ci illərdə doğulmuş gənc gimnastlar fərqli alətlərdə qüvvələrini sınayıblar. Turnirdə xarici ölkələrdən bədii gimnastlar da bacarıqlarını nümayiş etdiriblər.

İlk yarış günündə 2016-cı, 2017-ci, 2018-ci il təvəllüdlü idmançılar arasında qaliblər müəyyənləşib. Yer tutanlara medal, diplom və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, "Qış nağılı"na bu gün yekun vurulacaq. Turnir, həmçinin gələn ildən qüvvəyə minəcək yeni yarış qaydalarını mənimsəmək məqsədi daşıyır.

## DÇ-2026 oyunlarının təqvimi




**DÇ-2026-nın Avropa zonası üzrə seçmə mərhələsində keçiriləcək oyunların təqvimi müəyyənləşib.**

D qrupunda yer alan Azərbaycan millisinin də matçlarının vaxtı bəlli olub.

**2025-ci il**

5 sentyabr

23:45. İslandiya – Azərbaycan

23:45. Ukrayna – Fransa/Xorvatiya cütünün qalibi

**9 sentyabr**

21:00. Azərbaycan – Ukrayna

23:45. Fransa/Xorvatiya cütünün qalibi – İslandiya

**10 oktyabr**

23:45. Fransa/Xorvatiya cütünün qalibi – Azərbaycan

23:45. İslandiya – Ukrayna

13 oktyabr

23:45. İslandiya – Fransa/Xorvatiya cütünün qalibi

23:45. Ukrayna – Azərbaycan

**13 noyabr**

21:00. Azərbaycan – İslandiya

23:45. Fransa/Xorvatiya cütünün qalibi – Ukrayna

**16 noyabr**

21:00. Azərbaycan – Fransa/Xorvatiya cütünün qalibi

21:00. Ukrayna - İslandiya

***S.FİDAN***
***X Q***

Ömrün fəsilləri

# Payıza bir yarpaq vida sözü

**Bəzən təbiət də, insanlar kimi əbədi bölgüyə məhəl qoymur. Olur ki, təqvimdə yaz gəlir, həftələr ötür, ancaq günlərin sir-sifəti açılmaq bilmir ki, bilmir. Yazın ortasında soyuq payız külələri əsir, bəzən də qırov, qar düşür. Tumurcuqlamış, çiçək açmış ağac və kollar oyanmalarına peşman olurlar. Belə günlərdə ürəyi bahara köklənmişlər daha çox darıxır.**



Bəzən də böyük çillənin ortasında, mayın axırlarında olduğu kimi, pencəkdə kürəyin tərləyir. Hətta ağaclar da vaxtsız oyanır, çiçək açır. Nə bilsinlər hələ şaxtalı, çovğunlu çağlar qabaqdadı (Bu, bir az bəzi insanların vaxtsız, vədəsiz sevdalanmalarına bənzəyir – ya tələsirlər, ya da gecikirlər). Belə dəmlərdə fikirləşirsən ki, Xudaya, yoxsa, qışla yazın yerini dəyişmisən, bəndələrinin xəbəri yoxdur?

İnsan hansı yaşda olursa-olsun, xoş, ağrısız günündə elə bilir hələ cavandı, elə bilir ömrün payızına çox qalıb. Ona görə də ötən günləri vecinə almır... Lakin unudur ki, hər şey göründüyü və düşünüldüyü kimi deyil.

Bu il təqvimdə payız girsə də, təbiətdə hələ qaynarlıq yaşanırdı. Sanki düz-dünya sarışın paltarını geyinməyə, quşlar qürbətə uçmağa tələsmirdi. Bağlarda heyva hələ sarala-sarala, nar qızara-qızara dünyaya baxırdı. İnsanlarsa isti paltar geyinməyi lazım bilmirdilər...

Amma ürəklərdə bir payız havası vardı. O havanı arabir budaqlara vida deyən yarpaqlar, ilk payız yağışından sonra təbiətə hakim kəsilən həzinlik, nigarançılıq, yenidən göyərən otlar, dağların sinəsinə çəkilən xınalı naxışlar doğurmuşdu. Payız addım-addım, sakitcə gəlirdi. Məncə, bu duyğuların ürəyimizdə yaratdığı təzadlı ovqat, əslində, sözlə təsvirə gəlmir. Çünki o hisslər rənglərin qarışığından yaranmış bir şeydi. Bu çulğaşma fikir bulantısıdır. Bu qarışım, adətən, ilin yaz-yayını yola salandan sonra düşüncələrimizdə formalaşmağa başlayır. Və günlər ötdükcə bu dünyanın işığı da, yağışı da, səs-küyü də, sevinci – kədəri də o rəngin canına qarışır. Yalnız bundan sonra hiss edirik ki, təbiət ahıllaşıb, kövrəkləşib. Belə məqamlarda sanki canlı-cansız hər şey içinə çəkilir, öz daxilində gizlənməyə çalışır. Belə çağlarda insan quşlara qoşulub uzaqlara uçmaq, bulud olub yağışa dönmək, bir xoş duyğu olub tənha, kimsəsiz insanların ümidinə çevrilmək istəyir...

O gün həyətdə gəzişir, barı dərilmiş nar, heyva ağaclarına baxırdım. Hava elə ılıq və xoş idi ki, evə girmək istəmirdim. Bu dəqiqələrdə kəndin üstündən bir qatar qaz uçub geçdi. Səsləri çox zəif eşidilirdi. O quşları görcək uşaqlığımda olmuş bir olayı xatırladım. O xatirə mənə əzizdir. Bəlkə ona görə ki, o xatirədə ata-anam hələ cavandılar. Bəlkə ona görə o illər ömrümün qayğısız çağlarıdı, qədərimdə nələr olduğundan isə xəbərsizəm.

Atam yaxşı ovçu idi. Günlərin bir günü Küdrü düzündən yaralı qu quşunu tutub gətirmişdi. Anam quşun yarasını ılıq su ilə yudu, sonra yaraya gərman səpib bağladı. Qu quşu bütün günü ağlayırdı. Ot, yonca verirdik yemirdi. Onun halı hamımızı üzürdü...Anam deyirdi ki, yəqin balasını gözləri önündə vurublar, ya da ailəsi üçün ağlayır, yarası sağalan kimi aparıb Küdrüyə buraxın, uçub getsin, bu, ah-nalədi...

Bu aylarda adam çox darıxır. Elə bilir ki, uzaqdan kimsə gələcək, Amma o adam gəlib çıxmır, nə də zəng edir. Əslində, o Allah bəndəsinin kim olduğu bizim üçün məchuldu. Bəlkə, üzünü heç görməmişik, həndəvərində dolanmamışıq, səsini eşitməmişik. Adamın cibində pulu olmaz, soyuqda-qarda geyinməyə isti paltarı, rahat evi olmaz, fikir çəkər. Sonra ağlıma gəlir ki, yox, məni darıxdıran başqa şeylərdi.

Darıxanda hərdən geyinib Küdrüyə gedirəm. Cəngi gölünün yulğunluğa çevrilmiş yatağından və qarağan kollarının arasından keçib uşaqlığımın oylağına çıxıram. Son illərdə bəzi məmurlar tərəfindən sinəsinə çalın-çarpaz dağlar çəkilmiş Küdrü düzündə nə axtardığımı özüm də bilmirəm – göbələk yığan, yaşıdları ilə qaçdı-tutdu oynayan, at sürən o qarayanız oğlanımı, yoxsa qədəri qədərimə bənzər o ağ qu quşunumu...

Bu ilin payızı sakit, təmkinli, xeyirxah insana bənzəyir. Günlər elə sakit axıb gedir ki, adam ürəyində payıza təşəkkür etməyə bilmir. İndi torpağın sinəsi yaşıldı. Vaxtında səpin aparılmış ərazilərdə toxumlar çüçərib. Təbii biçənək sahələri də yaşıllaşıb. Deməк, payız öz nəfəsi ilə torpağa bərəkət havası verib. Xalq arasında deyirlər ki, payızı xoş keçən ilin məhsulu bol olar.

İndi torpağa qırov düşəndə hərdən yadıma bir vaxtlar həyətimizdəki nar ağacları gəlir. Əzəl Allah, torpağın bərəkəti, Günəşin istisi və atamın əllərinin tumarı ilə ərsəyə gələn o ağaclar indikindən qat-qat çox məhsul verərdi. O narlardan seçib budağı ilə birlikdə evimizin divarındakı xalçaların üstündən asardıq və onlar Novruza qədər yanan fanar kimi orada işıq saçardı. Bəzən məhsul dərildikdən sonra budaqlarda kiçik narlar qalırdı. Atam deyirdi ki, onlar quşların payıdı. Payızın qırovundan, şaxtasından və ilk qarından sonra o xırda narlar elə ətirli və dadlı olurdu ki, şirəsini içməkdən doymazdıq. Görəsən o dad-tam, bərəkət niyə yoxa çıxdı?

Son həftələrdə bir anda külək qopur, ağacların olub-qalan “saçlarını” yolub aparır. Artıq bəzi ağacların budaqları çılpaqlaşıb. Baxdıqda adam üşüyür. Həmin anlarda adamın yadına gözəl şairimiz Musa Yaqubun bu kövrək misraları düşür:

***Bu payızın dərdi götürüb məni.***
***Nə qədər hicranlar var bu dünyada,***
***Payızın ən həzin çağı olanda,***
***Kimsə bu payızla tənha qalanda***
***O hicranlı təklər necə dözəcək?***
***O solan sevgilər, insan ağaclar,***
***O insan çiçəklər necə dözəcək?***

Elə gün də olur ki, təbiət fikirli adam kimi donub durur. Bu donuqluq adamı çox yorur.

Payız ilin ahıl çağıdır. Belə günlərdə adam təbiətin qoynunda qəribə hisslər yaşayır. Ayaqların altında sarı, qırmızı yarpaqlar xışıldayır.

Son günlər düzlərə də qırov düşür. Günəşin şəfəqləri altında buz kristalları par-par parıldayır. Buz kristallarının əmələ gətirdiyi mozaik naxışlara baxdıqca zövq alırsan və təbiətin ən böyük rəssam olduğuna şübhən qalmır.

Həftələr, aylar ötəcək, ağaclar yarpaq paltarını yenidən geyinəcək, çiçək açacaq. Amma ömrümüzün daha bir ili heç vaxt dönməyəcək və bundan sonra neçə payız görsək də, o payızlarda builki ovqatı yaşada bilməyəcəyik.

Artıq dağlar qara bələnib. Havalar getdikcə soyuyur. Çöldən əl-ayaq yığışır. Qışa son hazırlıq işləri görülür.

Sağ ol, payız! Sən süfrəmizə əlavə bərəkət qatdın, qəlbimizə isti duyğular bəxş elədin, indiyədək ayırd edə bilmədiyimiz bir çox həqiqətləri aydınlatdın, həyatın nə qədər şirin olduğunu bir daha göstərdin, bizi sevindirdin, kövrəltdin, qəribsətdin...

***Səməd MƏLİKZADƏ***
***XQ***

# Bakıya qar yağdı

**Dünən Bakıya ilk qarı yağdı. Sübh tezdən yuxudan duranlar buna canlı şahid oldular.**

Binaların damları, avtomobillərin üzərində yığılan qar bəzi yerlərdə hələ də qalırdı. Ötən gecədən başlayan qar sonradan sulu qara çevrildi. Doğrudur, havanın temperaturu çox aşağı olmasa da, paytaxt sakinləri uzun zamandan sonra qışı hiss edə bildilər.

Qar daha çox Yasamal, Binəqədi, Xətai rayonlarına yağdı. Qarlı hava səbəbindən sözügedən ərazilərdə avtomobillər arasında sıxlıq müşahidə olunurdu.

Milli Hidrometeorologiya Xidmətinin yaydığı məlumatda isə hava şəraiti ilə bağlı sürücülərin hava durumunu nəzərə almaları və ehtiyatlı olmaları tövsiyə edilirdi. Qeyd olunurdu ki, Bakıda və Abşeron yarımadasında dekabrın 14-dən 15-nə keçən gecə bəzi şəhərətrafı və nisbətən yüksək ərazilərdə,





eyni zamanda, ölkənin əksər dağlıq və dağətəyi rayonlarında gecə və səhər yolların buz bağlama ehtimalı var. BDYPİ xüsusilə külək tutan açıq ərazilərdə, enişli-yoxuşlu yollarda, körpülərdə sürüşmə ehtimalının dəfələrlə artacağını nəzərə alaraq, sürücülərdən zəruri ehtiyat tədbirləri görməyi, mövsümə uyğun təchiz edilməmiş, texniki-təhlükəsizlik baxımından yararsız nəqliyyat vasitələri ilə yola çıxmamağı, səfərləri mümkün qədər günün işıqlı vaxtına planlaşdırmağı, təcrübəsiz sürücülərdən sükan arxasına əyləşməməyi xahiş edirdi.

Hətta qarlı, buzlu yollarda sürüşmə ehtimalını nəzərə alaraq, piyadalara da ehtiyatlı olmaq, yolun hərəkət hissəsinə çıxmamaq, təhlükəsizlik qaydalarına ciddi əməl etmək tövsiyə olunurdu.

***Anar ƏLİ***
***XQ***

# Yağmursuz, küləkli və dumanlı bazar günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, dekabrın 15-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin gecə bəzi şəhərətrafı ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənən cənub-qərb küləyi ilə əvəz olunacaq. Gecə 1° şaxtadan 2°-dək isti, gündüz 4-8° isti olacaq. Atmosfer təzyiqi 775 mm civə sütunundan 769 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-65, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında əsasən yağmusuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6° şaxta, gündüz 4-8° isti, dağlarda gecə 8-13°, yüksək dağlıq ərazilərdə 17-22° şaxta, gündüz 5-10° şaxta olacaq.

***QQ ASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4001
SİFARİŞ 2855
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00